Xalqın qəzeti!

# Xalq qəzeti

№ 137 (30541) 4 iyul 2024-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

“İqlim” həmrəyliyi və çoxmədəniyyətlik




Səhifə ⇨ 8

# Türk dövlətlərinin Avrasiyada nüfuzu və mövqeyi yüksəlir

## Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana səfəri

### Astana şəhərinin Nursultan Nazarbayev Beynəlxalq Aeroportunda qarşılanma



**Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) sədri statusunda Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin dəvəti ilə ŞƏT-in Zirvə toplantısında iştirak etmək üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 3-də Astanaya səfərə gəlib.**

Astana şəhərinin Nursultan Nazarbayev Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidentini Qazaxıstanın Baş nazirinin müavini Kanat Bozumbayev və digər rəsmi şəxslər qarşıladılar.

Qeyd edək ki, bu, Prezident İlham Əliyevin Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə toplantısında ikinci iştirakıdır. Bundan əvvəl Şanxay Əməkdaşlıq Təşkilatının sədri statusunda Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin dəvəti ilə dövlətimizin başçısı təşkilatın 2022-ci il sentyabrın 16-da Özbəkistanın Səmərqənd şəhərində keçirilmiş Zirvə toplantısında iştirak edib.

### Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Prezidenti Vladimir Putin ilə görüşü




Səhifə ⇨ 2



## Azərbaycan–ŞƏT: çoxtərəfli dialoqda ortaq hədəflər

**Ölkəmiz iyulun 3-də Qazaxıstanın paytaxtı Astanada start götürmüş Şanxay Əməkdaşlıq Təşkilatına (ŞƏT) üzv ölkələrin Zirvə görüşünə son dərəcə böyük önəm verir. Bu önəmin nəticəsidir ki, Prezident İlham Əliyev mühüm toplantıda iştirak üçün Astanaya səfər edib.**

Dövlətimizin başçısını Zirvə görüşünə Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev dəvət edib. Qürurverici haldır ki, Azərbaycan üzv olduğu beynəlxalq təşkilatlarla yanaşı, üzv olmadığı təşkilatların da sammit, konfrans və görüşlərinə dəvət alır, həmin tədbirlərdə fəal iştirak edir.

(ardı 6-cı səhifədə)

## Türk dünyası ismarıcını Şuşadan göndərəcək

### TDT regional birlikdən beynəlxlaq təşkilata çevrilir




**Öncə onu qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi sammitinin Şuşada keçirilməsi tarixi hadisədir. Əslində, TDT-nin Şuşa Zivəsi Azərbaycanın azad olunmuş ərazisində düzənlənən beynəlxalq səviyyəli siyasi tədbir sayılır. Budəfəki toplantıya qatılacaq iştirakçı dövlətlərin genişlənən coğrafiyası onu deməyə əsas verir ki, TDT, həqiqətən, dünyanın gündəminə təsir göstərməyə qadir beynəlxalq güc mərkəzinə çevrilməkdədir.**

Avropanın göbəyində yerləşən Macarıstandan başqa, Şimali Kipr Türk Respublikasının da Şuşa görüşündə təmsil olunması bunu deməyə tam əsas verir. Bu iki dövlət TDT-də hələlik məşvərətçi səslə iştirak etsə də, çox yaxın gələcəkdə onların da Türk dövlətləri ailəsinə daxil olacağı heç kəsdə şübhə doğurmur.

Sabah Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin liderləri Şuşaya səfər edəcəklər. İndiyədək müxtəlif ölkələrin başçıları ayrı-ayrılıqda belə səfərlər ediblər, amma budəfəki sammit əvvəlkilərdən fərqlənir. Bu dəfə 8 ölkənin lideri Türk dünyasının mədəniyyət paytaxtı Şuşada mühüm siyasi məsələləri müzakirə edəcəklər. Bu, hər şeydən öncə, Azərbaycanın azad olunmuş ərazilərində əhalinin normal və təhlükəsiz həyatına təminatın yaradılmasının beynəlxalq səviyyədə nümayiş etdirilməsi deməkdir. Eyni zamanda, belə beynəlxalq miqyaslı tədbirlər yaxın perspektivdə Azərbaycanın Qarabağ iqtisadi rayonuna həm siyasi, həm də iqtisadi dividendlər vəd edir.

(ardı 4-cü səhifədə)

## NATO Ukraynaya silah, ŞƏT ümid vəd edir



Səhifə ⇨ 11

## “Freedom House”un açıq qərəzi

Freedom House

Səhifə ⇨ 5

## “Masdar” “yaşıl” potensialımızı öyrənir



Səhifə ⇨ 8

# Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Prezidenti Vladimir Putin ilə görüşü



**İyulun 3-də Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə görüşü olub.**

**Görüşdə çıxış edən Rusiya Prezidenti Vladimir Putin dedi:**

- Hörmətli İlham Heydər oğlu, Sizi bir daha görməyimə şadam.

Qarşılıqlı fəaliyyətimizin miqyası böyükdür, mənə elə gəlir ki, hətta hər gün, hər ay görüşsək, danışmaq üçün mövzularımız var. Diqqətinizi ona cəlb etmək istəyirəm ki, əsas məsələ - məhz qarşılıqlı iqtisadi-ticari fəaliyyət üzrə əlaqələrimiz müsbət istiqamətdə inkişaf edir. Dövriyyə 4 milyarddan çoxdur, məncə, 4,3-4,5 milyarddır və bu, Rusiyanın Azərbaycan iqtisadiyyatına birbaşa sərmayəsidir. Tendensiya yaxşıdır, məncə, ilin birinci yarısında artıq 13 faizlik artım var. Ümumiyyətlə, hər şey müsbət inkişaf edir.

İnfrastruktur sahəsindəki planlarımızı qeyd etmək istərdim və təbii ki, burada indi birinci yerdə məlum Şimal-Cənub magistralıdır. Ümidvaram ki, bu barədə də bir neçə kəlmə danışacağıq. Digər istiqamətlərdə, o cümlədən enerji və sənaye sahələrində əməkdaşlıq imkanları var. Sizinlə 2022-ci ildə imzaladığımız müqavilə əsasında fəaliyyət göstəririk. Bu, bütün sahələrdə əlaqələrin inkişafı üçün yaxşı zəmindir.

Mən humanitar sahəni də qeyd edəcəyəm. Məncə, Azərbaycanda Rusiya Mədəniyyəti Günləri yenicə başa çatıb. Mən Sizin rus dilinin dəstəklənməsinə şəxsi xüsusi diqqətinizi həmişə qeyd edirəm. Azərbaycanda rus dilində 300-dən çox məktəb fəaliyyət göstərir, gənclərə və uşaqlara rus dili öyrədilir. Bu, gələcəkdə də əlaqələrimizin qorunub saxlanılması və inkişafı üçün yaxşı zəmin və perspektivlər yaradır.

Sizi görməyimə çox şadam.

**Azərbaycan Prezidenti İlham Əliyev dedi:**

– Sağ olun Vladimir Vladimiroviç. Sizinlə yenidən görüşməyimə çox şadam.

Qeyd etdiyiniz kimi, məsələlər çoxdur. Amma prinsipcə, onları müzakirə etmək üçün biz demək olar ki, ayda bir dəfə görüşürük. Sonuncu dəfə aprelin ikinci yarısında Moskvaya səfər etdim. Ondan bir aydan bir qədər sonra yenidən görüşürük. Siz də qeyd etdiyiniz kimi, bu onu göstərir ki, böyük uğurla həll edilən çoxlu məsələlər var. Əlbəttə, həm keçən il, həm də bu il əmtəə dövriyyəsinin artması ölkələrimizin iqtisadiyyatlarının fəal qarşılıqlı fəaliyyət göstərdiyini nümayiş etdirir. Sevindirici haldır ki, həmçinin milli valyutalarda qarşılıqlı hesablaşmalar artır. Bu, Azərbaycanın Rusiyaya ixracında artıq 70 faizdən çoxdur, Rusiyanın Azərbaycana ixracında isə 50 faizə yaxındır. Beləliklə, Sizinlə bir neçə il əvvəl danışdıqlarımız artıq uğurla həyata keçirilir.

Humanitar əməkdaşlıq həmişə qarşılıqlı fəaliyyətimizin demək olar ki, əsasını təşkil edib. Sizə minnətdaram ki, Azərbaycanda rus dilinə, rus mədəniyyətinə, ədəbiyyatına olan münasibəti həmişə qeyd edirsiniz və yüksək qiymətləndirirsiniz. Azərbaycanda böyük uğurla keçirilən Rusiya Mədəniyyəti Günləri də bunu bir daha təsdiqləyir. Bizdə bir milyona yaxın şagird rus dilində təhsil alır, 150 min nəfər rus məktəblərində oxuyur, 800 min nəfər isə rus dilini ikinci dil kimi öyrənir. Yəni, bu, onu deməyə əsas verir ki, vətəndaşlarımızın gələcək nəsilləri də aktiv qarşılıqlı fəaliyyətdə olacaqlar və rus dilində Sizinlə mənim danışdığımız kimi danışacaqlar.

Keçən dəfə Moskvada "Şimal-Cənub" layihəsini müzakirə etdik. O vaxtdan bəri müsbət irəliləyişlər baş verdi. Bu barədə danışacağıq. Biz Azərbaycan ərazisində dəhlizin infrastrukturunu genişləndirmək əzmindəyik, fiziki cəhətdən mövcud olsa da, o, tərəfdaşlarımızın və qonşularımızın bu layihədən maksimum istifadə ilə bağlı niyyətlərinə uyğun gəlmir.

Həmçinin Siz qeyd etdiyiniz kimi, energetika sahəsində yeni ideyalar var, bizim müvafiq strukturlarımız daimi təmasdadır. Bu gün bu barədə də danışacağıq. Həmçinin başqa istiqamətlər üzrə də.

Qeyd etdiyiniz kimi, 2022-ci ildə biz uğurla həyata keçirilən Müttəfiqlik Bəyannaməsini imzaladıq və Bəyannamənin bütün bəndləri real həyatda öz əksini tapır. Artıq iki ildən artıqdır ki, müttəfiqlər kimi birgə işləyirik və yaxşı nəticələrə nail oluruq. Bu gün bu barədə daha ətraflı danışacağıq.

Sizinlə görüşmək imkanına görə bir daha təşəkkür edirəm.

*

Görüşdə Rusiya Prezidenti Vladimir Putin Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılmasına və sülh gündəliyinin irəli aparılmasına daim dəstək verməyə hazır olduğunu dedi. Bu əsnada müzakirələr aparıldı. Dövlətimizin başçısı Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması prosesi haqqında məlumat verdi.

Söhbət zamanı nəqliyyat, gəmiqayırma, əczaçılıq, avtomobil sənayesi sahələrində əməkdaşlıq, Rusiyanın avtomobil istehsal edən müxtəlif şirkətləri tərəfindən Azərbaycanda istehsalın təşkili məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı.

Rusiyadan Azərbaycana gələn turistlərin sayında artım və Azərbaycanda Rus Dram Teatrının fəaliyyət göstərdiyi qeyd edildi.

# Azərbaycan və Çin liderlərinin dialoqu

**Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə görüşü keçirilib.**



**Görüşdə çıxış edən Çin Xalq Respublikasının Sədri Si Cinpin dedi:**

– İnanıram ki, cənab Prezidentin rəhbərliyi ilə Azərbaycan bundan sonra da ölkə quruculuğunun müxtəlif istiqamətlərində yeni nailiyyətlər əldə edəcək. Çin-Azərbaycan əlaqələri səmimiyyətə və qarşılıqlı etimada əsaslanır.

Ölkələrimiz yaxşı dostlardır, bərabərlik və qarşılıqlı faydaya əsaslanan yaxşı tərəfdaşlardır. Çin-Azərbaycan münasibətləri həmişə sağlam və sabit şəkildə inkişaf edib. İki ölkə arasında əməkdaşlıq səmərəli nəticələr verib və daha zəngin strateji məzmuna çatıb. Bu gün biz Birgə Bəyannamə qəbul edəcəyik. Bu sənədlə ikitərəfli əlaqələrimizi strateji tərəfdaşlıq səviyyəsinə yüksəldəcəyimizi bəyan edəcəyik. Bu, həm də yeni bir başlanğıc nöqtəsidir. Biz xalqlarımızın rifahı naminə qarşılıqlı dəstəyi artırmağa davam edəcəyik.

*

**Azərbaycan Prezidenti İlham Əliyev görüşdə çıxış edərək dedi:**

– Hörmətli cənab Sədr.

Yenidən görüşməyimizə çox şadam. Siz qeyd etdiyiniz kimi, ölkələrimiz yaxın tərəfdaşlardır və bu gün qəbul ediləcək Bəyannamə Çin Xalq Respublikasını və Azərbaycanı rəsmi olaraq strateji tərəfdaşlara çevirir. Hesab edirəm ki, bu, böyük nailiyyətdir, həmçinin yüksək məsuliyyətdir. Biz gələcəkdə də fəal qarşılıqlı fəaliyyət göstərmək, ikitərəfli əlaqələri bütün istiqamətlər üzrə möhkəmləndirmək niyyətindəyik.

Şadam ki, Sizinlə görüşlərimiz müntəzəm xarakter daşıyır və ölkələrimiz arasında hərtərəfli münasibətlərin inkişafına mühüm impuls verir. Beynəlxalq strukturlarda qarşılıqlı dəstəyi, ikitərəfli səviyyədə qəbul edilən müxtəlif sənədlərdə ölkələrimizin ərazi bütövlüyünün və suverenliyinin dəstəklənməsinin ifadə olunmasını xüsusi vurğulamaq istərdim.

Eyni zamanda, ölkələrimizin nazirləri, idarələri, dövlət strukturları, ictimai təşkilatları səviyyəsində fəal diplomatiyanı, Çin Kommunist Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında məhsuldar əməkdaşlığı qeyd etmək istərdim. Bütün bunlar əlaqələrimizi möhkəmləndirir.

Ölkələrimiz arasında əmtəə dövriyyəsinin artması bizi sevindirir, o, 3 milyard dollara çatıb və artım potensialına malikdir. Azərbaycan artıq Çinin 6 şəhərində ticarət evi açıb, bununla da Çin bazarında öz məhsullarını təşviq etməyə çalışır. Həmçinin biz Çin Xalq Respublikasından Azərbaycana ixracın artmasından məmnunuq.

**(ardı 3-cü səhifədə)**

# Azərbaycan və Qazaxıstan prezidentlərinin görüşü



**İyulun 3-də Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə görüşü keçirilib.**

**Görüşdə çıxış edən Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev dedi:**

– Hörmətli İlham Heydər oğlu.

Sizi Astanada səmimi-qəlbdən salamlayıram. Sizi görməyimə şadam. Bakıya, Şuşaya səfərimi daim xatırlayıram. Həqiqətən bu, dönüş yaradan, mühüm, mübaliğəsiz demək olar ki, həm də öz əhəmiyyətinə görə tarixi səfər idi. Danışıqlar əsnasında qarşılıqlı fəaliyyətimizin, hətta deyərdim ki, bir sıra strateji sahələrdə əməkdaşlığın və qarşılıqlı fəaliyyətin gələcək inkişafına böyük impuls verdik. Mübaliğəsiz deyə bilərik ki, əməkdaşlığımız, qarşılıqlı fəaliyyətimiz strateji əhəmiyyət daşıyır.

Sizi qonaq qismində Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə toplantısında görməkdən məmnunam. Bəlkə də bir müddət sonra Azərbaycan ŞƏT-in tamhüquqlu üzvü olacaq. Hər halda, Qazaxıstan buna etiraz etmir, əksinə, Sizin tərəfinizdən müvafiq istək varsa, onu dəstəkləyir.

Qazaxıstanda Sizi Azərbaycanın şəksiz Lideri, görkəmli dövlət xadimlərindən biri kimi tanıyırlar. Açıq deyirəm ki, biz Qazaxıstanda Sizin ölkənizdə baş verən bütün dəyişiklikləri böyük maraqla izləyirik, bu dəyişikliklərə ürəkdən sevinirik. Əlbəttə, sözsüz ki, burada Sizin böyük şəxsi rolunuz var və onu yüksək qiymətləndiririk.

Qazaxıstan ərazisində Ermənistanla danışıqlar üçün platforma təqdim etmək təklifimizə dərhal razılıq verdiyinizə görə Sizə minnətdaram. İlk danışıqlar Almatıda baş tutdu. Onlar kifayət qədər uğurlu, hər halda faydalı oldu.

Azərbaycana səfərimin nəticələrinə qayıdaraq deməliyəm ki, hazırda biz əldə olunmuş razılaşmaların həyata keçirilməsi üzərində işləyirik. Əslində, biz burada - ŞƏT çərçivəsində görüşsək də, bu, əməkdaşlığımızla bağlı bütün məsələlər üzrə tamformatlı danışıqlardır. Ona görə də indi sözü Sizə vermək istərdim.

*

**Sonra çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev dedi:**

– Hörmətli Kasım-Jomart Kemeleviç.

İlk növbədə, ŞƏT-in Zirvə toplantısında iştirak etmək üçün dəvətinizə görə Sizə minnətdarlığımı bildirirəm. Biz bunu Qazaxıstanın Azərbaycana qardaşlıq münasibətinin növbəti göstəricisi kimi qiymətləndiririk. Bu tədbirdə iştirak etməkdən şərəf duyuruq. Həmçinin vaxt ayırdığınıza görə təşəkkür edirəm, bu günlərdə görüşlərlə bağlı nə qədər məşğul olduğunuzu bilirəm. Nisbətən yaxın vaxtlarda görüşməyimizə baxmayaraq, gündəmə bir az nəzər salmağa, razılaşmalarımızı necə həyata keçirdiyimizi görməyə ehtiyac var.

Sizin Azərbaycana dövlət səfəriniz, əslində, həm forma, həm məzmun, həm də emosional əhvali-ruhiyyə baxımından tarixi idi. İşğaldan azad edilmiş ərazilərin bərpasına kömək göstərilməsi təşəbbüsünüzə görə bir daha bütün Azərbaycan xalqı adından minnətdarlığımı bildirmək istəyirəm. Qazax xalqının dahi oğlu Kurmanqazının adını daşıyan mərkəz səmərəli fəaliyyət göstərir və Sizinlə birlikdə qeyd etdiyimiz kimi, bu, Qazaxıstan-Azərbaycan dostluğunun və qardaşlığının mərkəzidir. Bu, şəxsən Sizin və qardaş Qazaxıstan xalqının Azərbaycana münasibətinin bariz təzahürüdür.

Müzakirə etdiyimiz və razılaşdırdığımız bütün istiqamətlər üzrə müsbət dinamika əldə olunur. Nəqliyyat infrastrukturu ilə bağlı məsələlər fəal şəkildə həyata keçirilir. Biz mahiyyət etibarilə Trans-Xəzər nəqliyyat marşrutu üzrə vahid komanda şəklində fəaliyyət göstəririk. Əlbəttə, bugünkü və sabahkı tədbirlər çərçivəsində bu mövzu daha geniş müzakirə ediləcək. Həmçinin bu, bir neçə gün sonra keçiriləcək və Sizi yenidən Qarabağda görməyimizə şad olacağımız Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşündə əsas mövzu olacaq.

Eyni zamanda, Azərbaycan ilə Ermənistan arasında prosesə verdiyiniz dəstəyə görə təşəkkürümü bildirmək istərdim.

*

Dövlətimizin başçısı Qazaxıstan Prezidentinin Azərbaycana səfəri zamanı əldə olunmuş razılaşmaların həyata keçirilməsi istiqamətində birgə addımların və səylərin davam etdirildiyini vurğuladı, görüşün yaxın günlərdə Türk Dövlətləri Təşkilatının Şuşada keçiriləcək qeyri-rəsmi Zirvə toplantısında davam edəcəyini bildirdi.

Türk Dövlətləri Təşkilatının da ölkələrimizin gündəliyində prioritet istiqamət olduğu vurğulandı.

Prezident İlham Əliyev Kasım-Jomart Tokayevin rəhbərliyi ilə Qazaxıstanın inkişafının, beynəlxalq səviyyədə nüfuzunun artmasının, ölkədə həyata keçirilən siyasi-iqtisadi islahatların dost və qardaş Azərbaycanı da sevindirdiyini bildirdi, bu münasibətlə təbriklərini çatdırdı.

Qazaxıstan Prezidenti qeyd etdi ki, ölkəsi Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatına tam üzvlüyünü dəstəkləməyə hazırdır.

Kasım-Jomart Tokayev COP29-un ölkəmizdə keçirilməsi münasibətilə təbriklərini çatdırdı.

COP29-un dünya səviyyəsində ən mötəbər tədbirlərdən biri olduğunu deyən Qazaxıstan Prezidenti Azərbaycanın bu tədbiri uğurla təşkil edəcəyinə əminliyini bildirdi.

Görüşdə ölkələrimizin bu məsələ ilə bağlı müxtəlif təşəbbüslərlə çıxış etmələrinə toxunuldu.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını ifadə etdi.

Söhbət zamanı Orta Dəhlizin inkişafı istiqamətində nailiyyətlər qeyd olundu, Birgə İnvestisiya Fondu ilə əlaqədar imzalanacaq anlaşma memorandumunun əhəmiyyəti bildirildi və bu xüsusda artıq konkret layihələrin icrasına dair aidiyyəti qurumlara tapşırıqlar verildiyi diqqətə çatdırıldı.

Humanitar sahədə əməkdaşlığa toxunuldu, Qazaxıstan Mədəniyyət Günlərinin Azərbaycanda uğurla keçirildiyi, Azərbaycan Mədəniyyət Günlərinin isə bu ilin sentyabrında Qazaxıstanda keçiriləcəyi vurğulandı.

# Azərbaycan–Qazaxıstan Səhmdarlar Müqaviləsinin mübadiləsi



**İyulun 3-də Astanada imzalanmış "Azərbaycan İnvestisiya Holdinqi və "Samruk-Kazına" Milli Rifah Fondu" Səhmdar Cəmiyyəti arasında Səhmdarlar Müqaviləsi"nin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin iştirakı ilə mübadiləsi mərasimi olub.**

# Azərbaycan və Çin liderlərinin dialoqu



(əvvəli 2-ci səhifədə)

COVID-19 epidemiyası zamanı göstərilən köməyə görə bir daha Sizə minnətdarlığımı bildirmək istərdim. Mənim Sizə yazılı müraciətimə dərhal müsbət reaksiya verildi və Azərbaycana minlərlə insanın həyatını xilas edən milyon dozadan çox vaksin çatdırıldı. Azərbaycan bu sınaqdan, ilk növbədə, Sizin dostluq münasibətiniz və çətin vaxtda bizə köməyiniz sayəsində ən az itkilərlə çıxan ölkələr sırasında oldu.

Qeyd etmək istərdim ki, investisiya əməkdaşlığının perspektivləri artıq əyani şəkildə görünür. Son hadisələr arasında elektromobillərin və elektrobusların tanınmış istehsalçısı – Çinin “BYD” şirkətinin Azərbaycanın strateji tərəfdaşı seçilməsini qeyd etmək istərdim. Əməkdaşlığın, elektrobusların və digər elektromobillərin birgə istehsalının ilk addımı olaraq müvafiq sənədlər imzalanıb. Əlbəttə, ölkələrimiz arasında yükdaşımaların artmasını xüsusi məmnunluqla qeyd edirəm.

Si Cinpin İlham Əliyevi Prezident seçilməsi münasibətilə təbrik etdi. Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev Azərbaycanın daim “Vahid Çin” siyasətini dəstəklədiyini vurğuladı. Tayvanda keçirilmiş seçkilərin Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi tərəfindən pislənildiyi, Çinin də Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə dəstək ifadə etdiyi qeyd olundu.

Si Cinpin Azərbaycanın daim “Vahid Çin” siyasətini dəstəklədiyinə görə təşəkkürünü bildirdi. Ekstremizmə və separatizmə qarşı mübarizədə ölkələrimizin mövqelərinin üst-üstə düşdüyü xüsusi qeyd olundu.

Prezident İlham Əliyev Azərbaycanın multilateralizmə - çoxtərəfli diplomatiyaya böyük əhəmiyyət verdiyini vurğulayaraq qeyd etdi ki, Azərbaycan ölkələrin daxili işlərinə qarışmamaq prinsipinin tərəfdarıdır. İkili standartlardan əziyyət çəkmiş ölkəmiz də daxili işlərimizə qarışmaq cəhdlərini qəbul etmir.

Şanxay Əməkdaşlıq Təşkilatında Azərbaycanın statusunun artırılmasının Çin tərəfindən dəstəkləndiyi vurğulandı, gələn il Çinin sədrliyi çərçivəsində bu məsələyə xüsusi diqqət yetiriləcəyi bildirildi.

Si Cinpin Azərbaycan Prezidentini Şanxay Əməkdaşlıq Təşkilatının Çində keçiriləcək Zirvə toplantısına, eyni zamanda, bu əsnada Çinə dövlət səfərinə dəvət etdi.

Prezident İlham Əliyev dəvəti məmnunluqla qəbul etdi.

Azərbaycan Prezidenti də Çin Xalq Respublikasının Sədrini uyğun vaxtda ölkəmizə rəsmi səfərə dəvət etdi.

Azərbaycanın “Bir kəmər, bir yol” layihəsini dəstəkləyən və buna qoşulan ilk dövlətlərdən biri olduğu vurğulandı, ölkəmizin nəqliyyat-logistika imkanları, bu sahəyə hazırda Azərbaycanın investisiyalar qoyduğu və daim onu təkmilləşdirməsi sayəsində qazandığı uğurları qeyd edildi. Bu xüsusda, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin ötürücülük imkanlarının 5 milyon tona, Ələt Beynəlxalq Dəniz Ticarət Limanının yükaşırma qabiliyyətinin 15 milyon tondan 25 milyon tona çatdırılması vurğulandı.

Orta Dəhliz çərçivəsində Azərbaycan ilə Çin arasında əməkdaşlığa toxunularaq, bu dəhlizin rəqəmsallaşdırılmasının onun Mərkəzi Asiya ölkələrindən Qərb istiqamətinə, eyni zamanda, Qərb istiqamətindən də Çinə və Mərkəzi Asiyaya yüklərin həcminin artmasına müsbət təsir göstərməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

Söhbət zamanı İqtisadiyyat Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Çinin “BYD” şirkəti arasında imzalanan və ölkəmizdə avtobus parkının yerli istehsal hesabına təmin edilməsini nəzərdə tutan Çərçivə Sazişinin önəmi bildirildi.

Görüşdə ölkələrimizin şəhərləri arasında qardaşlıq əlaqələrinə toxunularaq, Azərbaycanın 6 şəhərinin Çinin müxtəlif şəhərləri və regionları ilə əlaqələrinin olduğu vurğulandı.

Azərbaycan ilə Çin arasında humanitar, mədəni əlaqələr qeyd edildi, Heydər Əliyev Fondunun xətti ilə həyata keçirilən layihələrin əhəmiyyəti diqqətə çatdırıldı.

Turizm sahəsində əməkdaşlığın genişləndirilməsi və insanlar arasında təmasların artırılması məqsədilə Azərbaycanın birtərəfli qaydada Çin vətəndaşlarına münasibətdə vizaların aradan qaldırılması qeyd edilərək, bunun da ölkələrimiz və insanlar arasında təmaslara ciddi təkan verəcəyinə ümidvarlıq ifadə olundu. Si Cinpin dedi ki, Çin tərəfi də Azərbaycan vətəndaşlarına münasibətdə vizasız gediş-gəlişin tətbiq olunması məsələsini nəzərdən keçirəcək ki, ölkələrimiz və insanlar arasında təmaslar daha da çoxalsın.

Çin Xalq Respublikasının Sədri COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırdı və ölkəsinin də bu tədbirdə yüksək səviyyədə təmsil olunacağını dedi. COP29 çərçivəsində nümayəndə heyətlərimizin yaxından əməkdaşlıq etməsinin önəmi qeyd olundu.

Si Cinpin Azərbaycanın Qoşulmama Hərəkatında uğurlu sədrliyinə toxunaraq, COP29-un sədri kimi Azərbaycanın və Çinin Qlobal Cənubun bir hissəsi olduqlarını dedi.

Prezident İlham Əliyev ölkəmizin ŞƏT ilə əməkdaşlığını dəstəklədiyi kimi, BRICS-lə də əməkdaşlığının inkişafına yaxından dəstək verdiyinə görə Çinə təşəkkürünü bildirdi. Dövlətimizin başçısı qeyd etdi ki, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Sammiti 2026-cı ildə Azərbaycanda keçiriləcək. Bununla bağlı Azərbaycan ilə Çin arasında əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıldı.

*

Qeyd edək ki, görüş çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Çin Xalq Respublikasının Sədri Si Cinpin tərəfindən “Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə” qəbul olundu.

# Azərbaycan Prezidenti, Türkiyə Prezidenti və Pakistan Baş nazirinin üçtərəfli görüşü





**İyulun 3-də Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif arasında üçtərəfli görüş olub.**

Söhbət zamanı Azərbaycan Prezidentinin, Türkiyə Prezidentinin və Pakistanın Baş nazirinin üçtərəfli formatda Zirvə görüşünün ilk dəfə keçirildiyi vurğulanaraq, onun tarixi əhəmiyyəti qeyd olundu və bu görüşlərin bundan sonra mütəmadi xarakter daşıyacağına əminlik ifadə edildi.

Azərbaycan, Türkiyə və Pakistanın tarixi-dini köklər və qardaşlıq münasibətləri ilə bir-birinə bağlı olduğu xüsusi vurğulandı. Ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində daim bir-birini dəstəklədiyi qeyd olundu və bunun gələcəkdə də davam etdirilməsinin vacibliyi bildirildi.

Azərbaycan, Pakistan və Türkiyə arasında parlamentlərin sədrləri, xarici işlər nazirləri səviyyəsində üçtərəfli formatların artıq mövcud olduğu və bu əsnada əvvəllər bir sıra görüşlərin keçirildiyi diqqətə çatdırıldı.

Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam şəkildə təmin etməsi bir daha vurğulandı. Regiondan kənar ölkələrin Cənubi Qafqazda militarizasiya siyasəti aparmasından narahatlıq ifadə edildi.

44 günlük Vətən müharibəsində qardaş Türkiyə və Pakistanın Azərbaycana göstərdiyi siyasi və mənəvi dəstək xüsusi vurğulandı. Bunun Azərbaycan xalqı və dövləti tərəfindən yüksək qiymətləndirildiyi qeyd olundu.

Ölkələrimiz arasındakı siyasi əlaqələrin ruhuna uyğun olaraq üçtərəfli formatda iqtisadi-ticari əlaqələrin, innovasiyalar, energetika, kənd təsərrüfatı, təhsil, humanitar və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsinin perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı. İqtisadi-ticari əlaqələrin hazırda artan dinamikası müsbət hal kimi qeyd edildi, amma bunun ölkələrimizin potensialına tam şəkildə uyğunlaşdırılmasının vacibliyi vurğulandı.

Orta Dəhlizdə Pakistanın da iştirakı qeyd edildi və bunun ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin təşviqinə töhfə verəcəyi bildirildi.

Görüşdə müdafiə və müdafiə sənayesi sahələrində əməkdaşlıq məsələlərinə toxunuldu, 2021-ci ildə üç ölkənin xüsusi təyinatlılarının iştirakı ilə “Üç qardaş” şüarı altında keçirilən təlimlərin əhəmiyyəti vurğulandı və üç ölkənin Silahlı Qüvvələri tərəfindən birgə təlimlərin bundan sonra da mütəmadi qaydada keçirilməsi təklif edildi. Təklif məmnunluqla qəbul olundu. Müdafiə sənayesi sahəsində də üç ölkənin birgə istehsalının təşkil edilməsi məsələsi vurğulandı.

Dövlətimizin başçısı Türkiyə Prezidentini və Pakistanın Baş nazirini COP29-da iştiraka bir daha dəvət etdi.

Prezident Rəcəb Tayyib Ərdoğan və Baş nazir Məhəmməd Şahbaz Şərif dəvəti məmnunluqla qəbul etdilər.

# Astanada nümayəndə heyətləri başçılarının şərəfinə qeyri-rəsmi şam yeməyi

**İyulun 3-də Astanada Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə toplantısında iştirak edən nümayəndə heyətlərinin başçılarının şərəfinə Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin adından qeyri-rəsmi şam yeməyi verilib.**

# Astanada “Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə” qəbul olunub

**Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı çərçivəsində iyulun 3-də “Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə” qəbul olunub.**

## “Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında

## BİRGƏ BƏYANNAMƏ

Azərbaycan Respublikası və Çin Xalq Respublikası (bundan sonra “Tərəflər” adlanır) yekdilliklə hesab edirlər ki, diplomatik münasibətlərin qurulduğu 2 aprel 1992-ci ildən etibarən iki ölkə arasında ikitərəfli əməkdaşlıq müxtəlif sahələrdə səmərəli nəticələr verib.

Tərəflər beynəlxalq və regional vəziyyətin tektonik və mürəkkəb inkişafı fonunda siyasi, iqtisadi və mədəni sahələrdə əməkdaşlığı genişləndirməyə, beynəlxalq məsələlərdə qarşılıqlı fəaliyyəti gücləndirməyə, iki ölkənin ümumi maraqlarını birgə qorumağa, həmçinin regional və qlobal sülh, sabitlik və inkişaf fəaliyyətini birgə irəlilətməyə dair razılıq əldə ediblər.

1.0. Tərəflər strateji tərəfdaşlıq qurur, ikitərəfli münasibətlərin təməl prinsipləri olan qarşılıqlı hörmət, bərabərlik, etimad, qarşılıqlı dəstək, qarşılıqlı fayda və əməkdaşlıqdan çıxış edirlər. Tərəflər bir-birini prioritet və etibarlı tərəfdaş hesab edir və xarici amillərdən asılı olmayaraq ikitərəfli münasibətlər üzrə siyasətlərini müstəqil şəkildə müəyyənləşdirirlər.

1.1. Tərəflər ərazi bütövlüyünə və suverenliyə qarşılıqlı hörmət, hücum etməmək, daxili işlərə qarışmamaq, bərabərlik, qarşılıqlı fayda və dinc birgəyaşayışa sadiqliyi təsdiqləyirlər. Azərbaycan tərəfi “Vahid Çin” prinsipini qətiyyətlə dəstəkləyir, dünyada yalnız bir Çinin mövcudluğunu, Çin Xalq Respublikası hökumətinin bütün Çini təmsil edən yeganə qanuni hökumət olduğunu, Tayvanın isə Çin ərazisinin ayrılmaz bir hissəsi olduğunu tanıyır, istənilən formada “Tayvanın müstəqilliyi”nə qarşı qətiyyətlə çıxış edir və Tayvan boğazının iki sahili arasındakı münasibətlərin dinc inkişafını, habelə Çin Hökumətinin Çinin birləşdirilməsi istiqamətində səylərini dəstəkləyir.

Çin tərəfi Azərbaycan tərəfinin təklif etdiyi sülh gündəliyini qətiyyətlə dəstəkləyir və konfrontasiyanın saxlanmasına yönəlmiş geosiyasi intriqaları qeyri-səmərəli hesab edir.

1.2. Tərəflər terrorizm, separatizm və ekstremizmin bütün beynəlxalq ictimaiyyət üçün ciddi təhdidlər yaratdığını və bu çağırışların qarşısını almaq və onlara qarşı mübarizə aparmaq üçün ümumi səylərin birləşdirilməsini tələb etdiyini vurğulayırlar.

1.3. Tərəflər milli xüsusiyyətlərinə uyğun seçilmiş inkişaf yolu boyunca bir-birilərinə qətiyyətli dəstək verməyə davam edəcək, ümumi inkişaf və firavanlığa nail olmaq üçün əməkdaşlıq etməyə hazırdırlar.

1.4. Tərəflər milli, eləcə də regional və qlobal təhlükəsizliyin ən vacib məsələləri ilə bağlı sıx əlaqə və koordinasiya saxlamağa, etimadı möhkəmləndirməyə, öz dövlətinin ərazisindən hər hansı bir qüvvənin digər tərəfə qarşı hərəkət etmək üçün istifadə etməsinə imkan verməməyə hazırdırlar.

1.5. Tərəflər Azərbaycan və Çinin siyasi və ictimai strukturları arasında mübadilə və əməkdaşlığın iki ölkə arasında münasibətlərin inkişafına və daha da dərinləşməsinə töhfə verdiyini vurğulayırlar. Tərəflər Azərbaycanın hakim siyasi partiyası ilə Çin Kommunist Partiyası arasında mübadilə və əməkdaşlığın möhkəmlənməsini dəstəkləyirlər.

1.6. Tərəflər ikitərəfli əlaqələrin genişləndirilməsi və inkişafında Azərbaycan və Çin qanunverici orqanları arasında əməkdaşlığın mühüm rolunu qeyd edirlər. Tərəflər bu kontekstdə iki ölkənin qanunverici orqanları arasında müxtəlif sahələrdə və müxtəlif səviyyələrdə, o cümlədən müvafiq beynəlxalq və regional təşkilatlar çərçivəsində mübadilə və əməkdaşlığın fəallaşmasını vurğulayırlar.

1.7. Tərəflər iki ölkənin hökumətləri arasında kommunikasiya və fikir mübadiləsi mexanizmlərini aktivləşdirməyə, inkişaf məsələlərinə dair siyasi dialoqu gücləndirməyə ehtiyac olduğunu hesab edirlər.

1.8. Tərəflər hüquqi sahədə bərabərlik, qarşılıqlı fayda və hörmətə əsaslanan əməkdaşlığı gücləndirməyə və təcrübə mübadiləsini həyata keçirməyə hazır olduqlarını təsdiqləyirlər.

1.9. Tərəflər, tərəflərdən birinin fikrincə iki dövlətin strateji tərəfdaşlığına və strateji münasibətlərinə xələl gətirən hər hansı bir hərəkətdən çəkinirlər.

1.10 Tərəflər qarşılıqlı razılıq əsasında müntəzəm olaraq hər iki ölkənin Xarici İşlər nazirlikləri vasitəsilə siyasi məsləhətləşmələr aparırlar.

2.0. Tərəflər iki ölkə arasında ticarət-iqtisadi əlaqələrin davamlı və dinamik inkişafını yüksək qiymətləndirir və ticarət, sərmayə və mühəndislik layihələri sahəsində qarşılıqlı fəaliyyəti daha da gücləndirmək üçün Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyası mexanizminin rolunu artırmağa davam etməyə, o cümlədən Azərbaycan-Çin ticarət-iqtisadi əməkdaşlığının yüksək səviyyədə inkişafına nail olmaq məqsədilə nəqliyyat və kommunikasiyalar, yaşıl enerji, emal və istehsal, infrastruktur, rəqəmsal iqtisadiyyat, kənd təsərrüfatı və s. sahələrdə layihələrin həyata keçirilməsinin təşviqinə diqqət yetirməyə hazırdırlar.

2.1. Azərbaycan və Çin güclü iqtisadi tamamlayıcılıq, sənayeləşmə və investisiya sahəsində əməkdaşlığı artırmaq üçün böyük potensiala malikdirlər. Tərəflər Azərbaycan və Çin arasında sənayeləşmə və investisiya üzrə əməkdaşlıq mexanizmindən tam istifadə edəcək, baxış, planlaşdırma və siyasət sahəsində əlaqələri artıracaq, Azərbaycan və Çin şirkətlərinin fəaliyyətini dəstəkləyəcək, enerji, o cümlədən neft və qaz hasilatı və emalı, yaşıl enerji və nəqliyyat infrastrukturu, informasiya və telekommunikasiya, rəqəmsal iqtisadiyyat, əlvan metallar, tikinti materialları və s. kimi prioritet sahələrdə əməkdaşlığı fəal şəkildə təşviq edəcək, bazar iqtisadiyyatı prinsipi əsasında iki ölkə arasında əməkdaşlığı reallaşdıracaq və hər iki ölkə və onların xalqları üçün faydalı nəticələr əldə edəcəklər.

2.2. Tərəflər ikitərəfli ticarətin həcmini daha da artırmağa, əmtəələrin strukturunu optimallaşdırmağa və malların bazarlara çıxışını asanlaşdırmağa hazır olduqlarını bildirirlər. Çin Azərbaycanın Çin Beynəlxalq İdxal Ekspo, Çin idxal və ixrac malları sərgisi, Çin beynəlxalq xidmət ticarət sərgisi və digər böyük sərgilərdə fəal iştirakını alqışlayır. Azərbaycan Çinin aparıcı şirkətlərinin ADEX beynəlxalq hərbi sərgisində və Azərbaycan ərazisində keçirilən digər iri sərgi və forumlarda iştirakını alqışlayır. Çin Azərbaycanın tematik təqdimatlar keçirməsini və Çin ərazisində açılan ticarət mərkəzləri və milli pavilyonlar, eləcə də Çin elektron ticarət şəbəkələri ilə əlaqə qurmasını dəstəkləyir.

2.3. Tərəflər iki ölkənin inkişaf strategiyalarının birləşdirilməsini gücləndirməyə, “Bir kəmər, bir yol” çərçivəsində bütün sahələrdə praktiki əməkdaşlığı dərinləşdirməyə, Azərbaycan və Çin hökumətləri arasında beynəlxalq multimodal daşımaların inkişafına dair Sazişin imzalanması prosesini sürətləndirməyə hazır olduqlarını bildirirlər.

2.4. Tərəflər öz ərazilərindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin təhlükəsizliyinin və fasiləsiz fəaliyyətinin təmin edilməsi məsələlərinin həllində bir-birinin səylərini dəstəkləyəcək, milli qanunvericilik və ikitərəfli sazişlər çərçivəsində tranzit daşımalar üçün əlverişli şərait yaradacaqlar.

2.5. Tərəflər intellektual nəqliyyat sistemlərinin texnologiyalarından istifadə etməklə tranzit-nəqliyyat qarşılıqlı fəaliyyətinin potensialının ardıcıl inkişafına, habelə beynəlxalq nəqliyyat marşrutlarının fasiləsiz və tammiqyaslı fəaliyyəti üçün texniki-iqtisadi şəraitin təmin edilməsinə istiqamətlənirlər.

(ardı 4-cü səhifədə)

# Astanada “Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə” qəbul olunub

**(əvvəli 3-cü səhifədə)**

2.6. Tərəflər Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyası çərçivəsində investisiya əməkdaşlığı üzrə işçi qrupunun yaradılmasını dəstəkləyirlər. Tərəflər, həmçinin öz müəssisələrinin Azərbaycan və Çində qarşılıqlı investisiya qoyuluşu və biznesin inkişafında, o cümlədən onların rezident qismində Azərbaycan və Çinin azad iqtisadi zonalarının və sənaye parklarının fəaliyyətində qarşılıqlı iştirakını dəstəkləyirlər. Çin Azərbaycan və Çin arasında neft və qaz, neft-kimya, eləcə də yaşıl enerji, elektrik enerjisi, yüksək texnologiyalar və innovasiyalar, süni intellekt və kosmik sahədə sərmayə əməkdaşlığının inkişafını alqışlayır. Tərəflər iki ölkənin müəssisələri üçün əlverişli şərtlər və lazımi şərait yaratmağa, iki ölkənin əməkdaşlıq layihələrinin və müəssisələrinin heyətinin təhlükəsizliyini birgə təmin etməyə hazır olduqlarını bildirirlər.

2.7. Çin tərəfi Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin (“Orta Dəhliz”) tikintisində və istismarında fəal iştirak etməyə, Çin-Avropa və əks istiqamətdə Cənub dəhlizinin yük qatarları üçün fasiləsiz işini və sürətləndirilmiş inkişafını birgə təşviq etmək məqsədilə Azərbaycanla və marşrutboyu yerləşən digər ölkələrlə daha sıx işləməyə, regional praktiki əməkdaşlığın dərinləşdirilməsi üçün əlverişli şərtlər yaratmağa, istehsal-təchizat zəncirlərinin təhlükəsizliyini və sabitliyini birgə təmin etməyə hazır olduğunu bildirir.

2.8. Çin tərəfi Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (UNFCCC COP29) Azərbaycanda keçirilməsini alqışlayır və Azərbaycanın Konfransda müsbət nəticələrin əldə olunmasının təşviqində sədrlik rolunu dəstəkləyir. Tərəflər iqlim dəyişikliyi ilə mübarizədə, o cümlədən yaşıl enerji sahəsində əməkdaşlığa, iki ölkənin müəssisələrini yeni enerji mənbələrinə əsaslanan yeni istehsal, enerjinin saxlanması, yeni enerjidaşıyıcıları, elektrik enerjisinin ötürülməsi, enerjiyə qənaət və emissiyaların azaldılması və s. kimi yaşıl və aşağı karbonlu texnologiyalar sahələrində əməkdaşlığı dərinləşdirməyə təşviq etməyə, təmiz enerji sahələrində əməkdaşlıq üçün qlobal tərəfdaşlığın qurulmasını birgə təşviq etməyə hazır olduqlarını bildirirlər.

3.0. Tərəflər ticarət-iqtisadi sahədə hüquqi bazanın təkmilləşdirilməsini müzakirə etməyə, ticarət və investisiya prosedurlarının liberallaşdırılması və sadələşdirilməsi üçün institusional mexanizmin yaradılması imkanlarını fəal şəkildə araşdırmağa hazır olduqlarını bildirirlər. Tərəflər ÜTT-nin himayəsi altında çoxtərəfli ticarət sisteminə güclü dəstəyi təsdiqləyirlər. Çin tərəfi Azərbaycanın beynəlxalq çoxtərəfli ticarət sisteminin inkişafı və əməkdaşlığında fəal iştirakını, eləcə də Azərbaycanın ÜTT-yə daxil olma prosesi çərçivəsində həyata keçirdiyi tədbirləri dəstəkləyir.

3.1. Tərəflər regionlar arasında əlaqələrin genişləndirilməsini, həmçinin media və informasiya mübadiləsi sahəsində əməkdaşlığı dəstəkləyirlər.

3.2. Tərəflər elm və texnologiya sahəsində qarşılıqlı faydalı əməkdaşlığın tərəqqisini fəal şəkildə təşviq etməyə hazır olduqlarını bildirirlər.

3.3. Tərəflər hesab edirlər ki, təhsil sahəsində əməkdaşlıq sabit şəkildə inkişaf edir. Tərəflər təhsil sahəsində əməkdaşlıq haqqında saziş və təhsil sənədlərinin və elmi dərəcələrin qarşılıqlı tanınması haqqında saziş çərçivəsində kadr və dil mübadiləsini, eləcə də universitetlər arasında qarşılıqlı əlaqəni həyata keçirirlər. Tərəflər ali təhsil müəssisələrinin birgə alyansının yaradılması məsələsini müzakirə edəcəklər.

3.4. Tərəflər dil mübadiləsi sahəsində əməkdaşlığa böyük əhəmiyyət verir, təhsil müəssisələrində Azərbaycan və Çin dillərinin tədrisini təşviq edəcək və müəllimlər arasında mübadilələri və mütəxəssislərin hazırlanması təcrübəsini inkişaf etdirəcək, həmçinin Konfutsi İnstitutlarının inkişafına dəstək verəcəklər.

3.5. Tərəflər mədəniyyət sahəsində əməkdaşlığın səviyyəsinin artırılması, qarşılıqlı əsasda Azərbaycan və Çinin mədəniyyət günlərinin keçirilməsi barədə razılığa gəlib və qarşılıqlı olaraq mədəniyyət mərkəzlərinin təsis edilməsi ilə bağlı məsləhətləşmələr aparmağa hazır olduqlarını bildirirlər.

3.6. Tərəflər turizm sahəsində əməkdaşlığı gücləndirməyə və turizmin ümumi inkişafına töhfə verməyə hazır olduqlarını bildirirlər. Çin Azərbaycanın illik Çin beynəlxalq turizm yarmarkasında və digər turizm sərgilərində iştirakını, habelə Azərbaycan tərəfinin turizmin inkişafı, eləcə də iqtisadi, humanitar və mədəni əlaqələrin daha da genişləndirilməsi məqsədilə Çin vətəndaşlarına birtərəfli qaydada bir il müddətinə vizasız rejimin tətbiq edilməsi barədə qərarını alqışlayır. Tərəflər bundan sonra da vətəndaşların qarşılıqlı səfərlərinin asanlaşdırılmasına töhfə verəcəklər.

3.7. Tərəflər səhiyyə, idman və gənclər sahələrində əməkdaşlığı dərinləşdirməyə, kino, media və beyin mərkəzləri sahələrində əməkdaşlığı gücləndirməyə hazır olduqlarını bildirirlər.

3.8. Tərəflər dayanıqlı inkişaf naminə əməkdaşlığı gücləndirməyə hazırdırlar.

3.9. Tərəflər yüksəkkeyfiyyətli və tam məşğulluğun təmin edilməsi, sosial təminat sisteminin təkmilləşdirilməsi və əhalinin rifahının yüksəldilməsi üçün ixtisaslı kadrların hazırlanması məqsədilə mübadiləni gücləndirməyə hazır olduqlarını bildirirlər.

4.0. Tərəflər aktual beynəlxalq problemlər üzrə qarşılıqlı fəaliyyət göstərir, o cümlədən ikitərəfli səviyyədə, həmçinin qarşılıqlı maraq doğuran məsələlər üzrə beynəlxalq təşkilatlar və forumlar çərçivəsində konstruktiv əməkdaşlığı dərinləşdirirlər.

4.1. Tərəflər Birləşmiş Millətlər Təşkilatının himayəsi altında beynəlxalq sistemi birgə dəstəkləyəcək, beynəlxalq hüquqa əsaslanan beynəlxalq qaydaya, BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə söykənən beynəlxalq münasibətlərin əsas normalarına riayət edəcəklər. Azərbaycan və Çin hegemonluğa və güc siyasətinə qarşıdır. Tərəflər real çoxtərəfliliyə sadiqdir, Birləşmiş Millətlər Təşkilatının beynəlxalq məsələlərdə konstruktiv rolunu dəstəkləyir, həmçinin BMT çərçivəsində əməkdaşlığı gücləndirməyə davam etməyə hazırdır. Tərəflər bəşəriyyətin ümumi dəyərlərinin – sülh, inkişaf, bərabərlik, ədalət, demokratiya və azadlığın təşviqinin tərəfdarıdırlar, eyni zamanda, bəşəriyyətin vahid taleli cəmiyyətinin və yeni beynəlxalq münasibətlər sisteminin yaradılmasını dəstəkləyirlər.

4.2. Azərbaycan və Çin inkişaf etməkdə olan ölkələr kimi əməkdaşlığı gücləndirməyə və inkişaf etməkdə olan ölkələrin ümumi maraqlarını birgə müdafiə etməyə hazırdırlar.

4.3. Tərəflər hesab edirlər ki, xalqın xoşbəxt həyatı insanın ən böyük hüququdur, insan hüquqlarının təşviqi işi xalqyönümlü olmalıdır. Tərəflər insan hüquqlarının qorunmasının bütün ölkələrin suverenliyinə hörmət kimi sarsılmaz prinsiplərə əsaslanmalı olması mövqeyindən çıxış edir və insan hüquqları ilə bağlı məsələlərin siyasiləşdirilməsinə və ikili standartların tətbiq edilməsinə qarşı çıxırlar. Tərəflər insan hüquqlarının müdafiəsi bəhanəsi altında hər hansı dövlətin daxili işlərinə müdaxiləyə qarşı çıxır, təhlükəsizliyin təmin edilməsi, inkişaf yolu ilə insan hüquqlarının irəlilədilməsi, əməkdaşlıq və dialoq yolu ilə insan hüquqlarının təbliğini dəstəkləyirlər, insan hüquqları sahəsində qlobal mexanizmlərin daha bərabərhüquqlu, ədalətli, səmərəli və tolerant məcrada inkişafına birgə yardım edəcəklər.

4.4. Azərbaycan Çinin təklif etdiyi qlobal inkişaf, qlobal təhlükəsizlik və qlobal sivilizasiya təşəbbüslərini dəstəkləyir və 2030-cu ilə qədər Dayanıqlı İnkişaf Gündəliyinin icrasını sürətləndirmək və beynəlxalq və regional təhlükəsizlik və sabitliyi birgə qorumaq üçün bu təşəbbüslər çərçivəsində əməkdaşlıqda fəal iştirak etməyə hazır olduğunu bildirir. Çin mədəniyyətlərarası dialoqun təşviqi üçün qlobal platforma kimi Azərbaycanın “Bakı Prosesi” təşəbbüsünü və onun çərçivəsində toplanan Ümumdünya Forumları ilə bağlı səylərini dəstəkləyir.

4.5. Çin tərəfi Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) çərçivəsində əməkdaşlığı gücləndirmək səylərini alqışlayır, ŞƏT-də Azərbaycanın hüquqi statusunun yüksəldilməsini dəstəkləyir. Azərbaycan tərəfi BRICS-ə daxil olmaq arzusunu ifadə edir və Çin tərəfi BRICS əməkdaşlığında Azərbaycanın iştirakını alqışlayır.

**3 iyul 2024-cü il”.**

# Belarus Respublikasının Prezidenti Zati-aliləri cənab Aleksandr Lukaşenkoya

**Hörmətli Aleksandr Qriqoryeviç!**

Dövlət bayramı – Belarus Respublikasının Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi və ən xoş arzularımı qəbul edin.

Möhkəm dostluq əlaqələrinə, etimada və qarşılıqlı dəstəyə əsaslanaraq son onilliklər ərzində qardaş ölkələrimiz strateji tərəfdaşlığın çoxtərəfli münasibətlərini qurublar. Sizin Azərbaycana bu yaxınlarda etdiyiniz dövlət səfəri, keçirilən görüşlər və imzalanan sənədlər bir daha sübut etdi ki, Azərbaycanla Belarus arasında mövcud olan yaxşı əməkdaşlıq ənənələri bu gün uğurla inkişaf edir və yeni məzmunla zənginləşir.

Əminəm ki, bizim birgə səylərimiz gələcəkdə də Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında dost xalqlarımızın və ölkələrimizin maraqları naminə qarşılıqlı faydalı əməkdaşlığın inkişafına və möhkəmlənməsinə kömək edəcək perspektivli təşəbbüslərin və layihələrin həyata keçirilməsinə yönəldiləcək.

Hörmətli Aleksandr Qriqoryeviç, bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik və ali dövləti fəaliyyətinizdə uğurlar, Belarus Respublikasına isə əmin-amanlıq və tərəqqi arzulayıram.

**Hörmətlə,**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı, 1 iyul 2024-cü il**



# YAP-ın Mərkəzi Seçki Qərargahı yaradılıb

**İyulun 3-də Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin növbəti iclası keçirilib.**

Dövlətimizin başçısı, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin böyük inkişaf yolu keçdiyini vurğulayan YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov qeyd edib ki, dövlətimizin və xalqımızın qarşısındakı ən ümdə vəzifənin yerinə yetirilməsi - Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin təmin edilməsi müasir dövlətçilik tariximizin ən şərəfli səhifəsi və möhtəşəm tarixi nailiyyətimizdir.

YAP-ın avanqard siyasi qüvvə olaraq hər zaman ictimai-siyasi proseslərin önündə getdiyini söyləyən Tahir Budaqov partiyanın qarşıdan gələn parlament seçkilərinə də yüksək səviyyədə hazırlaşdığını qeyd edib.

İclasda Milli Məclisə sentyabrın 1-nə təyin edilmiş növbədənkənar seçkilərlə əlaqədar Tədbirlər Planı müzakirə edilərək təsdiqlənib.

Sonra partiyanın Mərkəzi Seçki Qərargahının yaradılması və onun tərkibinin təsdiqlənməsi məsələsi müzakirə edilib. Müzakirələrdən sonra 21 nəfərdən ibarət Qərargahın yaradılması haqqında qərar qəbul olunub.

İdarə Heyətinin qərarı ilə YAP-ın səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi də təyin olunub, səsvermə gününədək seçki komissiyalarının iclaslarını müşahidə edəcək şəxslər müəyyənləşib.

**XQ**

# Türk dünyası ismarıcını Şuşadan göndərəcək

**(əvvəli 1-ci səhifədə)**

Türkdilli dövlət başçılarının Qarabağa səfərlərinin vacib protokol qaydasına çevrilməsi ilə yanaşı, qardaş ölkələrin Azərbaycanın bu dilbər məkanında özlərindən nişanə, həmrəylik əlaməti, xalqımıza hədiyyə olaraq müxtəlif təyinatlı təhsil və mədəniyyət obyektlərini inşa etmələri də artıq ənənə halını alıb. Bu ənənə, həmçinin bölgəyə daha çox xarici investisiyanın cəlb olunmasını təşviq edir. Beynəlxalq təcrübədən məlumdur ki, xarici investorlar təhlükəsizliyə xüsusi önəm verirlər. Çünki onlar qoyduqları kapitalın risklərlə üzləşməsini istəmirlər. Azərbaycanın işğaldan azad olunmuş ərazisində bu səviyyədə tədbirlərin keçirilməsi Qarabağın investisiyalar üçün cəlbedici bölgə olduğunu əyani şəkildə nümayiş etdirir.

***

Azərbaycanın azad olunmuş əraziləri artıq regional və beynəlxalq siyasi dialoq məkanına çevrilməkdədir. Bu mənada TDT-nin iyulun 5-6-da Şuşada keçiriləcək Zirvə toplantısını irəliyə doğru atılan növbəti addım saya bilərik.

2009-cu ilin oktyabrında Türkdilli dövlət başçılarının Naxçıvan Zirvə görüşündən başlanan yolu bu gün Şuşada daha geniş tərkibdə və artıq beynəlxalq statuslu Türk Dövlətləri Təşkilatı (TDT) miqyasında davam etdirilir. Arxada buraxdığımız 15 il ərzində Türk dövlətləri arasında strateji tərəfdaşlıq yalnız yüksələn xətlə inkişaf edib. Bu yolda Azərbaycanın atdığı inamlı addımların nəticələri artıq göz önündədir. Otuz illik işğaldan azad olunmuş ərazilərdə həyat yenidən qaynayır, Qarabağ indi bölgənin siyasi-iqtisadi mərkəzinə çevrilməkdədir. Yaxın perspektivdə Cənubi Qafqazın, Türk dünyasının, İslam coğrafiyasının nəbzinin məhz Qarabağda vuracağı birmənalıdır. Bütün bunlar Azərbaycan Prezidenti İlham Əliyevin məqsədyönlü şəkildə həyata keçirdiyi düzgün və qətiyyətli siyasətinin, uğurlu strategiyasının bəhrəsidir. TDT-nin Şuşa görüşünün təkcə Azərbaycanın deyil, bütün Türk dünyasının zəfər sammiti adlandırmaq olar. Bu sammitin məhz Şuşada – Türk dünyasının mədəniyyət paytaxtında keçirilməsi isə Türk coğrafiyasında inteqrasiyanın dərinləşməsinə, qardaşlıq bağlarının daha da möhkəmlənməsinə təkan verəcək.

Hazırda dünyada BRİKS-dən NATO-ya, Avropa İttifaqından (Aİ) Şanxay Əməkdaşlıq Təşkilatına (ŞƏT) və Afrika İttifaqına qədər bir çox beynəlxalq strukturlar mövcuddur. Beynəlxalq gündəmə təsiri və imkanı baxımından bu birliklərin bəziləri güclü və nüfuzlu, bəzilərinin isə efektivliyi zəifdir. Dünyanın üzləşdiyi iqtisadi-siyasi, ekoloji böhran şəraitində Türk Dövlətləri Təşkilatının qlobal sabitliyi və türk dünyasının təhlükəsizliyini, sülhü qoruyacaq transmilli təşkilat kimi daha da güclənməsi və fövqəladə, əslində, bölgədənkənar ölkələrin də maraqları ilə üst-üstə düşür. Çünki qlobal problemlərin çözüm yolları, yaşıl dünyaya keçidin üsulları məhz bu platformada təklif olunur.

Heç şübhəsiz, TDT-nin Şuşa Sammitində COP29 mövzusu da müzakirə mövzusu olacaq. Cari ilin noyabr ayında Azərbaycanın COP29-a evsahibliyi etməsi Türk dünyası adına böyük uğurdur. Əslində, COP29 Azərbaycan və bütövlükdə Türk dünyası üçün mühüm zirvədir. Bundan əvvəl Birləşmiş Ərəb Əmirliklərində təşkil olunan, on minlərlə insanın iştirak etdiyi və bütün qlobal iqlim məsələlərinin müzakirə edildiyi tədbirə bu dəfə evsahibliyini Azərbaycan edəcək.

***

Oxuculara xatırladaq ki, Prezident İlham Əliyev iyunun 6-da Bakıda TÜRKPA nümayəndələri ilə görüşündə bildirmişdi ki, onun təşəbbüsü ilə bir aydan sonra Şuşada Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşü keçiriləcək. Dövlətimizin başçısı çıxışında Zirvə görüşünün ildə bir dəfə keçirilməsinin kifayət etmədiyini vurğulamışdı. Yeri gəlmişkən, eyni mövqeyi Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da bölüşdüyünü bildirmişdi: “Türk Dövlətləri Təşkilatındakı birliyimizin daha da güclənməsi üçün fəaliyyətimizi davam etdiririk. Təşkilatımızın növbədənkənar Zirvə toplantısının iyul ayında Türk dünyasının mədəniyyət paytaxtı olan Şuşada keçirilməsindən məmnunluq hissi keçirdiyimi xüsusi qeyd etmək istəyirəm”.

Göründüyü kimi, artıq TDT beynəlxalq güc mərkəzinə çevrilmək yolunda inamla addımlayır və dünya gücləri bunu qəbul etməyə başlayıblar. Çünki onlar neokolonializm, alternativ enerji və yaşıl dünya kimi qlobal çağırışların səsləndiyi Azərbaycanla və onun timsalında Türk dünyası ilə hesablaşmalı olacaqlar. Bunun diplomatik işartıları indidən görünməkdədir.

TDT-nin Şuşa Sammiti, həmçinin Azərbaycanın öz ərazi bütövlüyünün bərpası üçün apardığı mübarizədə ona verilən vahid qardaşlıq dəstəyinin mesajı, ölkəmizin türk dövlətləri arasında əməkdaşlıq mərkəzinin avanqardı olduğunun nümayişidir.

Əminliklə deyə bilərik ki, bu cür beynəlxalq tədbirlərin keçirilməsi nəticəsində iştirakçı dövlətlər türk inteqrasiyası, eləcə də ticari-iqtisadi və investisiya sahəsində əməkdaşlığın gücləndirilməsi istiqamətlərində öz təşəbbüslərini irəli sürmək üçün daha geniş imkanlar əldə edəcəklər. Şuşa sammiti ilə Türk Dövlətləri Təşkilatının daha da güclənəcəyinə, dünyada söz sahibinə çevriləcəyinə inananlar getdikcə çoxalmaqdadır.

Sabah TDT-nin Şuşada start veriləcək Zirvə toplantısı dünyada baş verən qlobal dəyişikliklərin regional təsirlərinə baxış prizmasından da xüsusi önəm kəsb edir. Sammitin Şuşada keçirilməsi həm də o deməkdir ki, Azərbaycanın son 4 ildə Cənubi Qafqazda yaratdığı yeni reallıqlar “Türk Dünyası 2040” vizyonu üçün əhəmiyyətli istiqamətlər təqdim edir. Onu da qeyd edək ki, Türkün Şuşa Zirvəsi Rusiya–Ukrayna, HƏMAS–İsrail hərbi qarşidurmalarının beynəlxalq təhlükəsizlikdə yaratdığı qeyri-müəyyənliklər və bunun TDT-nin davranış modelləri üçün müzakirələrlə yadda qalacağı gözlənilir. Ən azı, o səbəbdən ki, TDT dünyanı cənginə almış münaqişələrə baxmayaraq sülh və təhlükəsizlik, əməkdaşlıq modellərinə üstünlük verən, bu çağırışlara adekvat səs verən nüfuzlu beynəlxalq təşkilata çevrilib. Bu tezislərin Şuşa Sammitində inkişaf etdirmək TDT-nin gündəliyinə daxil olan məsələlərdəndir. Yəni, Şuşa görüşü TDT-nin regional səviyyədən beynəlxalq miqyaslı güc mərkəzinə çevrilməsi istiqamətində əlavə stimuldur.

***

Bu gün TDT özünün proqram və strategiyasını inkişaf etdirmək barədə düşünür. Bunu zərurətə çevirən əsas şərtlərdən biri isə dünyada Qərbin təqdim etdiyi dəyər və prinsiplərin çöküşünün baş verməsidir. İndi TDT üç güc mərkəzi – NATO, Rusiya və Çin ilə balanslaşdırılmış diplomatik dinamikanı qoruyub saxlamaqla ideoloji cəbhədə görünən boşluqları doldurmaq missiyasını yerinə yetirir. TDT-də təmsil olunan dövlət liderlərinin Şuşa müzakirələrində həm də bu məsələ üzərinə xüsusi olaraq fokuslanacaqları proqnozlaşdırılır. Türk dünyasının ideoloji çətir üçün ortaq tarixi, dili, mədəniyyəti və siyasi iradəsi mövcuddur. Bunlar isə dünyanın pozulmuş nizamına təsir edə biləcək müştərək ideoloji proqramın hazırlanması zərurətini meydana çıxarır.

Əminik ki, TDT üzvü olan qardaş ölkələr iqtisadi, sosial və mədəni, ideoloji standartlarını daha da yüksəltmək üçün Şuşa Sammitindən hərtərəfli yararlanacaqlar. Bundan sonra yeni geosiyasi reallıqları dərk edən dünyanın kiçilməkdə olan “böyük gücləri” TDT-nin bölgədə və beynəlxalq müstəvidə sülhə, sabitliyə, təhlükəsizliyə nail olmaq şanslarına yeni təkan verəcəyinə şahidlik edəcəklər.

***İmran BƏDİRXANLI***
***XQ***

## Ekspert rəyi

**Cavid VƏLİYEV,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin şöbə müdiri**



– Bu il 15-ci ildönümünü qeyd edən TDT-nin yaranması barədə Naxçıvan anlaşmasına görə, təşkilata üzv dövlətlərin liderləri ildə bir dəfə zirvə görüşündən savayı, üzvlərdən birinin təklifi ilə fövqəladə, qeyri-rəsmi sammitə toplaşa bilər. Keçən il belə bir toplantı Ankarada keçirildi və orada ilkin sərmayəsi 500 milyon dollar olan Türk Sərmayə Fondu (TSF) yaradıldı. Şuşa Sammitindən öncə TÜRKPA İdarə Heyətinin iyunun 6-da Bakı görüşü oldu. Görüşdə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev “Əminəm ki, bir gün dünyanın bütün problemləri Türk Dövlətləri Təşkilatı ilə məsləhətləşmələr yolu ilə öz həllini tapacaq”, – deyərək TDT-ni dünya gündəminin istiqamətini və taleyini müəyyən edəcək güclü bir təşkilat olaraq görmək istəyini açıqladı.

Azərbaycanın xarici siyasəti üçün Türk dövlətləri ilə əməkdaşlıq daim prioritet sayılıb. Qarabağ işğaldan azad olunandan sonra TDT-nin əhəmiyyəti və çəkisi daha da artdı. Bunun bir səbəbi torpaqların işğaldan qurtarması ilə müasir dönəmdə yeni hədəflərin gündəmə gəlməsi ilə bağlıdır. İlham Əliyev “Bizim ailəmiz Türk dünyasıdır” mesajını verərək Azərbaycanın gələcək xarici hədəfləri ilə bağlı son nöqtəni qoymuş oldu. Eyni zamanda, İlham Əliyevin bu açıqlaması son 30 ildə Azərbaycanın da yer aldığı Cənubi Qafqazda fəaliyyət göstərən regional təşkilatlara ismarıc idi. Bu ismarıcın bir məqsədi isə Qarabağ savaşında və zəfərdən sonra TDT-nin Azərbaycana verdiyi siyasi-mənəvi dəstəklə bağlıdır.

Azərbaycanın TDT-yə baxışınıı şəkilləndirən digər önəmli amil dünya düzənində yaşanan dəyişikliklərdir. Təkqütblü sistemdən çoxqütblü dünya sisteminə keçid dövründə TDT kimi birliklərin əhəmiyyəti durmadan artmaqdadır. Onu da qeyd etməliyik ki, Azərbaycan Türk bölgəsində görünən güc boşluğunu fürsət kimi dəyərləndirməklə qlobal təhdidlərə qarşı TDT çərçivəsində müqaviməti artırmaq niyyətindədir. TDT-nin beynəlxalq və regional miqyasda söz sahibi olacaq təşkilata çevrilməsi üçün ciddi səylər göstərən Azərbaycan qurumu daha mükəmməl hala gətirmək üçün Şuşa görüşü ərəfəsində TDT-yə ayırdığı illik büdcəni 2 milyon dollara çatdırdı. Hazırda TDT üzvü digər dövlətlərin də illik ayırmanı 2 milyon dollara çatdırması gözlənilir. Bununla da həm TDT-nin zirvə görüşlərinin sayını ildə 2 dəfəyə qaldırılması, həm də təşkilatın qurumlarının daha işlək hala gətirilməsi hədəflənir.

# Azərbaycan-Türkiyə birliyi: “Geosiyasi layları” tərpədən müttəfiqlik

**II MƏQALƏ**

**Türkiyə nə qədər güclü olsa, Azərbaycan da bir o qədər güclü olar. Bizim gücümüz birliyimizdədir və bütün beynəlxalq məsələlərdə biz bir yerdəyik.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Prezidenti**



## Qriqoryanın yeni “diplomatik üslubu”

Tarix sarkazmı sevir. Yulian təqvimi (Yuli Sezarın təqvimi – Miladdan öncə I əsr) ilə Qriqorian təqvimini (Roma papası VIII Qriqorinin katoliklər üçün nəzərdə tutduğu təqvimi –XVI əsr) müqayisə edəndə ikincini birinciyə nisbətən “yeni stil” kimi xarakterizə edirlər. Yeni stil illərin hesablanmasında kiçik zaman fərqlərinin nəzərə alınması ilə bağlıdır. Real olaraq isə hər bir təqvim nisbidir – çünki Yerin Günəş ətrafında fırlanma dinamikası kiminsə iradəsindən asılı deyildir. Ermənistanın özününküləşdirdiyi A.Qriqorianın iradəsindən heç asılı deyil. Bundan başqa, indiki qriqoryanların diplomatiyada “yeni stili” Roma papasının təqvimindən fərqli olaraq reallığa heç bir aidiyyatı olmayan qondarma hadisədir.

Biz, Ermənistan təhlükəsizlik şurasının katibi Armen Qriqoryanın “APRİ-2024” formunda çıxışı zamanı ifadə etdiyi bir fikri nəzərdə tuturuq. A.Qriqoryanın “yeni diplomatik stili” ondan ibarətdir ki, o, Türkiyə – Ermənistan və Azərbaycan – Ermənistan münasibələrinin bir-birindən asılı olmadığını təkrar etmişdir. Burada istehza bu qədər proseslərdən sonra dövlətin ciddi qurumlarından birinin katibi olan adamın köhnə nağılı “yeni stil” mənasında təqdim etməyə çalışmasıdır.

Məsələ onunla bağlıdır ki, Azərbaycan və Türkiyə heç II Qarabağ savaşına qədər bu erməni diplomatik avantürasını qəbul etməyib. Zəfər savaşının gedişi və sonra imzalanan Şuşa Bəyannaməsi siyasi, hüquqi, hərbi, informasiya sferalarında təsdiq etdi ki, Azərbaycanla Türkiyəni dövlətçilik məsələsində bir-birindən ayrı tutmaq mümkün deyil, absrud və cəfəng cəhddir. Bundan başqa, ərazi bütövlüyünün bərpası ilə nəticələnən hərbi əməliyyatlardan sonra rəsmi Ankara açıq və birmənalı mesaj verdi: Türkiyə heç zaman Azərbaycanın marağına cavab verməyən addım atmayacaq, o cümlədən, Ermənistan Azərbacyanla münasibətləri normallaşdırandan sonra sərhəd açıla bilər, əlaqələr yaranar! Bu bəyanatdan sonra da real siyasi-diplomatik müstəvidə Ankara – Bakı birgə fəaliyyətini hər anda, addımda, məqamda və məsələdə bütün dünya görür.

İndi təsəvvür edin: bu qədər aydın, açıq və real bir gerçəklik fonunda bir erməni rəsmisinin ciddi tədbirdə “biz Türkiyə və Azərbaycanla münasibətlərə bir-birindən ayrı olan məsələ kimi baxırıq” deməsinin “yeni diplomatik və siyasi stili” nədən ibarətdir? Növbəti erməni riyakarlığı, absurdluğu və siyasi cəfəngiyyatı! Ancaq bu, hansısa proseslər üçün fon yaratmaq, insanları çaşdırmaq və regionda sülhün bərqərar olmasına qarşı çıxmaq baxımından düşündürücüdr. Çünki təhlillər göstərir ki, rəsmi İrəvanın bu cür cəfəng siyasi ritorikası bir neçə səbəbdən qaynaqlanır. Daha doğrusu, həmişə olduğu kimi, indi də Ermənistan rəhbərliyi kənar əmrlərin qulu funksiyasını yerinə yetirir. Bu tezisi bir qədər də konkretləşdirmək mümkündür.

## İslamofob və neokolonialist dairələr

Azərbaycanın, bütövlükdə ksenofobiyaya və onun tərkib elementi olaraq İslamofobiyaya qarşı davamlı mübarizəsi bir sıra dairələri ciddi narahat edir. Bu prosesdə yeni müstəmləkəçilik siyasətinin ifşa edilməsi xüsusi yer tutur. Fransanın bir sıra kiçik ölkələrə qarşı apardığı müstəmləkəçilik siyasətinin içüzü açıldıqca rəsmi Paris daha çılğın və məntiqsiz davranmağa başlayır. Bunun fonunda E.Makronun prezident kimi vəziyyətinin daha da ağırlaşması diqqət çəkir. Avropa Parlamentinə keçirilən seçkilərdə E.Makronun məğlub olması, situasiyanı daha da çətinləşdirmişdir. Bu cür vəziyyətdən xilas olmaq üçün rəsmi Parisin Cənubi Qafqazdakı siyasi oyuncağından yararlanmaq istəyi ola bilər. Onun yolu isə sülh prosesinin qarşısına süni əngəllər çıxarmaqla bağlıdır. Təxribatçı prosesi aparmaq üçün Cənubi Qafqazın geosiyasi mənzərəsini müəyyən edən Azərbaycan–Türkiyə birliyinə mane olmaqla alovlandırmaq mümkündür. Bu məntiq A.Qriqoryanın məntiqsiz fikrindən birbaşa alınır.

Doğrudan da, erməni rəsmisi aydın görünən gerçəkliyi təhrif edirsə, bu, açıqca sülh müqaviləsinin imzalanmasına əngəl olmaq deməkdir. Cənubi Qafqazda etibarlı sülhün olması regionda real əməkdaşlığın yaradılmasına birbaşa bağlıdır. Azərbaycanla Türkiyə arasına nüfuz etməyə, onları bir-birindən ayırmağa çalışmaq əməkdaşlığa zərbədir. Bu, bütövlükdə, regionda qeyri-sağlam və bir-birinə etimadın olmadığı mühiti yaratmaq deməkdir. Yəni Ermənistan xəyal edirsə ki, Azərbaycanı qane etməyən şərtlərlə Türkiyə ilə münasibət qura bilər, cəfəngiyyatdır. Eyni zamanda, Türkiyəni qane etməyən şərtlərlə Ermənistanın Azərbaycanla sülh müqaviləsi imzalamaq xəyalı absurddur. Çünki Şuşa Bəyannaməsi bu variantları istisna edir. Belə bir vəziyyət də tamamilə beynəlxalq hüquq normalarına uyğundur. Çünki əməkdaşlığın şərtlərinə əməl etmək beynəlxalq hüquqda mütləq şərtdir.

Ermənistanın bu diplomatik oyunundan başqa bir vacib nəticə alınır. Son zamanlarda baş verən geosiyasi, siyasi və diplomatik proseslər göstərir ki, Azərbaycan-Türkiyə müttəfiqliyi Cənubi Qafqazın hüdudlarından kənarda da geosiyasi mənzərəni yeniləşdirmək iqtidarındadır. Bunun konkret nümunəsi Azərbaycan Prezidentinin səmərəli və çevik xarici siyasətidir. Qısa müddət ərzində İlham Əliyev Mərkəzi Asiyadan tutmuş Yaxın Şərqə qədər geniş geosiyasi məkana təsir edə bilən səfərlər etmişdir. Azərbaycan dövlət başçısının mərhum İran Prezidenti İ.Rəisi ilə sərhəddə faydalı görüşü, nail olduğu çox ciddi razılaşmalar və sonra Misirə səfəri bu baxımdan diqqət çəkmişdir. Buna paralel olaraq bir neçə dəfə Türkiyə Prezidenti ilə müzakirələr aparması, Avropaya və sonra Ankaraya səfərlər etməsi çox fəal diplomatik addımlardan xəbər verir.

Bunların fonunda Türkiyə – Suriya münasibətlərində müsbətə doğru müəyyən dəyişmələr haqqında informasiyalar yayılmışdır. Nəhayət, Türkiyə Prezidentinin iyul ayında intensiv xarici səfərlərinin nəzərdə tutulması və o sırada Bakıya da gəlişinin gözlənilməsi təsirsiz ötüşmür. Bu cür gedişatdan müəyyən nəticələr çıxarırlar.

## Avrasiyada ən fəal müttəfiqlər

Bu cəhət aydın görünür. Azərbaycan – Türkiyə siyasi-diplomatik tandemi hazırda Avrasiya məkanında ən fəal nəticəverici müttəfiqliyin nümunəsidir. Hətta böyük və güclü dövlətlər nə ayrı-ayrılıqda, nə də birlikdə Azərbaycan – Türkiyə birliyi səviyyəsində faydalı siyasət yeridə bilirlər. Bunun əsas səbəbi bu iki türk dövlətinin ədalətli, konstruktiv əməkdaşlığa və sülhə səmimi istiqamətlənmiş siyasət yeritməsi ilə bağlıdır. Çoxlarının əzbərlədiyi bu ümumi tezisin praktiki faktlara əsaslanan arqumentləri mövcuddur. Onlara qısa nəzər salaq.

Öncə, Azərbaycan – Türkiyə birliyinin siyasi-diplomatik addımlarının ümumi ruhuna, məzmununa, əhatə dairəsinə və məqsədlərinə baxaq. Onların fonunda alınan nəticələrin siyasi və geosiyasi hədəfləri aydın olacaqdır.

Azərbaycanla Türkiyənin siyasi-diplomatik fəallığı geniş coğrafi və geosiyasi məkanı əhatə edir. Türkiyə Prezidenti və xarici işlər nazirinin dünya miqyasında əhəmiyyəti olan hadisələr haqqında fikir bildirmələri qlobal siyasi dairələrdə maraqla qəbul olunur. R.T.Ərdoğan və H.Fidan dünyanın müxtəlif regionlarında müşahidə edilən proseslər barədə lakonik mövqe bildirirlər və bunu dünya dərhal Azərbaycan–Türkiyə birliyinin mövqeyi kimi ciddiyə alır.

Eynilə Azərbaycan Prezidenti İlham Əliyevin və onun tapşırığı ilə səfərlər edən rəsmilərin (məsələn, Sahibə Qafarova Hikmət Hacıyev, Ceyhun Bayramov və başqaları) dünya üçün əhəmiyyəti olan prinsipial məsələlər haqqında söylədikləri fikirləri Azərbayan-Türkiyə birliyinin mövqeyi olaraq anlayırlar.

Nümunə kimi Azərbaycan – Ermənistan münasibətlərinin normallaşması ilə ardıcıl siyasətin yeridilməsi, Rusiya – Ukrayna münaqişəsinin həlli yollarının təklif edilməsi, İsrail – Fələstin müharibəsinin sona çatdırılması və orada iki dövlət modelinin tətbiq edilməsi ilə bağlı qətiyyətli mövqe nümayiş etdirilməsi, yeni enerji və nəqliyyat layihələri, Azərbaycan – İran – İraq – Türkiyə – Suriya – BƏƏ marşrutu üzrə yeni əməkdaşlıq platformasının yaradılması, Avropanın enerji təhlükəsizliyi ilə bağlı addımların atılması, Türk Dövlətləri Təşkilatının gücləndirilməsi istiqamətində gedişlər, Azərbaycan – Türkiyə – Rusiya münasibətlərinin daha da irəli aparılması və digər aktual məsələlər maraqlıdır. Çünki bütün bu proseslərdə həm Türkiyə, həm də Azərbaycanın ayrı-ayrılıqda fəallıq göstərməsi ilə yanaşı, dərin koordinasiyada çalışmaları bir nümunədir. Görünür, bir sıra mürtəce dairələri də məsələnin məhz bu aspekti narahat edir. Səbəbi regionların və bütövlükdə, dünyanın yeni geosiyasi xəttə çıxmasını qəbul etməməklə bağlıdır. Burada, böyük güclərin də maraqları ciddi şəkildə toqquşur!

Həmin sırada Rusiya – Ukrayna münaqişəsinin həlli ilə əlaqədar diplomatik addımların atılmasını göstərə bilərik. Məsələ ondan ibarətdir ki, Türkiyə bu məsələdə çox fəaldır. Azərbaycan da siyasi-diplomatik müstəvidə problemin ədalətli həll edilməsi istiqamətində təsirli addımlar atmaqdadır. Bir müddət bu prosesdə Türkiyə aparıcı rol oynadı. Lakin sonradan müəyyən səbəblərdən Ankara bir qədər geri çəkildi. Lakin ədalət naminə irəli sürülən digər təşəbbüsləri də beynəlxalq hüquq çərçivəsində aktiv surətdə dəstəklədi. Bakı da eyni mövqedə oldu. Bununla Ankara – Bakı tandemi dünyaya göstərdi ki, başlıca məqsədi şəxsi nüfuz və ya maraq deyildir – məsələnin ədalətli həllidir! Çünki bu problem çox aspektlərdə dünya miqyasında sabitliyə təhlükələr yaradır. Baxmayaraq ki, Türkiyənin taxılla bağlı siyasətinə qısqanclıqla yanaşanlar olmuşdu və müxtəlif təxribatçı informasiyalar yayırdılar. Rəsmi Ankara münaqişə ilə bağlı keçirilən son konfransda heç bir təxribat etmədi və ədalətlə perosesdə iştirak etdi.

Bu, deməkdir ki, Azərbaycan – Türkiyə birliyi real olaraq hüquqa, ədalətə və əməkdaşlığa əsaslanır. Bu səbəbdən, ciddi uğurlar əldə edir. Ermənistanla sülh müqaviləsinin imzalanması və İsrail-Fələstin məsələsi ilə atılan addımlar da bunu sübut etməkdədir. Açıq görünür ki, Azərbaycan – Türkiyə tandemi geniş bir geosiyasi məkanda müasir realpolitika çərçivəsində nəticəverici siyasi-diplomatik fəaliyyətin nümunəsidir.

Bütün bunların fonunda Türkiyə Prezidentinin obrazlı desək, “iyul turnesi”nin bir çox məsələlərin həllində ciddi rol oynaya biləcəyi qənaətini ala bilərik. Bu baxımdan R.T.Ərdoğanın Astanadan Bakıya və oradan da Qərb istiqamətinə səfərləri xüsusi geosiyasi məna kəsb edir.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

---

# “Freedom House”un açıq qərəzi

## Təşkilat hesabatını erməni mənbələrə istinadla hazırladığını etiraf edir

**“Freedom House” Qarabağ mövzusu üzrə yeni hesabat hazırlayıb. “Dağlıq Qarabağda niyə ermənilər yoxdur?” başlığı ilə təqdim edilən hesabat iyulun 1-də ictimailəşdirilib. Ənənəsinə sadiq qalaraq, təşkilat bu hesabatını da erməni lobbisinin tezislərinə uyğunlaşdırıb, qondarma faktlara istinad etməklə Azərbaycanın adını ləkələməyə çalışıb.**

Amma ənənəvi metodologiya və tezislər əsasında hazırlanmasına baxmayaraq, indiki hesabatda bəzi “yeniliklər” edilib. Həmin “yeniliklərin” motivini araşdırmaqla, hesabatın mahiyyətini açmaq mümkündür.

Diqqət çəkən budur ki, “Freedom House” bu hesabatını qeyri-ənənəvi təqvimdə yayıb. Faktdır ki, təşkilat öz hesabatlarını adətən, hər ilin başlanğıcında– yanvar ayı ilə aprel aralığında dərc edir. “Dünyada azadlıqlar” adı ilə yayımlanan hesabatlarında əvvəlki ildə qeydə alınmış proseslərin şərhini verir, özünün qiymətləndirməsini təqdim edir. Bir qayda olaraq, Azərbaycan və Qarabağ mövzusuna da həmin hesabatların tərkibində yer verir. İndiki hesabat isə əlahiddə hazırlanıb. Təşkilatın açıqlamasında da qeyd olunub ki, “Dağlıq Qarabağda niyə ermənilər yoxdur?” hesabatı məxsusi hazırlanıb, “Special report” kateqoriyası üzrə təqdim olunub (https://freedomhouse.org/report/special-report/2024/why-are-there-no-armenians-nagorno-karabakh). Hansı zərurət vadar edib ki, “Freedom House” indiki məqamda Qarabağ mövzusunda xüsusi hesabat yayımlayıb?

Diqqət çəkən ikinci nüans budur ki, bu hesabatda qondarma faktlara limitsiz dərəcədə istinad olunub. “Freedom House” iddia edir ki, guya Azərbaycan Silahlı Qüvvələri 2023-cü il sentyabrın 19-da Qarabağın ermənilər məskunlaşan ərazilərində hərbi əməliyyatlar keçirərkən, 229 nəfər həlak olub: “Bunlardan 34 nəfəri mülki şəxs olmaqla, 5 nəfəri uşaqdır”. Təşkilat bununla kifayətlənməyərək, daha da irəli gedir və bildirir ki, guya əməliyyatlar zamanı öldürülmüş şəxslərdən 14 nəfərin meyiti üzərində təhqiredici əlamətlər, işgəncə izləri tapılıb. Əsaslandırmağa çalışır ki, guya mülki ermənilər Qarabağdan təhlükəsiz formada getməyiblər, zorakılıqdan qurtarmaq üçün qaçıblar.

Məsələ ondadır ki, “Freedom House” bu iddiaları sübuta yetirəcək heç bir sənədli fakt təqdim etməyib. Nə ad, nə soyad, nə də foto/video görüntülər yoxdur. Əgər 14 nəfər Qarabağ sakini işgəncəyə məruz qalaraq öldürülübsə, onlardan heç olmasa bir nəfərin ad/soyadını, şəklini, ən azı Qarabağ sakini olması barədə sənədlərini təqdim etmək olmazdımı? Təqdim edilməyibsə, deməli bu faktlar mövcud deyil. Hansı ki, beynəlxalq təşkilatların hesabatlarında ciddiliyi artıran əsas meyar fakt və sübutlara istinad edilməsidir.

“Freedom House” sübutların yoxluğu üzərindən sükutla keçir. Məsuliyyəti özünün istinad etdiyi mənbələrin üzərinə yıxır. Təqdimat bölümündə qeyd edir ki, son hesabat bir sıra digər təşkilatların rəyləri əsasında tərtib edilib. Həmin təşkilatların adları da çəkilir. Bəlli olur ki, “Freedom House” “Dağlıq Qarabağda niyə ermənilər yoxdur?” hesabatını hazırlayarkən, mənbə qismində “İnsan Hüquqları üzrə Beynəlxalq Tərəfdaşlıq”, “Demokratiyanın İnkişafı Fondu”, “Helsinki Vətəndaş Assambleyası” və bir sıra digər qurumların rəylərinə əsaslanıb.

Əslində, bu açıqlamanın özü də qüsurludur. Beynəlxalq təşkilat hansısa digər təşkilatın nə deməsinə yox, əlində olan fakt və sənədlərə istinad etməlidir. “Freedom House” isə bu prinsipi pozub. Əlavə olaraq, bu qeydi ilə daha bir yanlışının üstünü açıb.



**Müşfiq ƏLƏSGƏRLİ,**
**XQ-nin media eksperti**

Problem ondadır ki, “Freedom House” adıçəkilən təşkilatların ümimi hesabatlarına deyil, onların Ermənistan üzrə filiallarının rəylərinə söykənib. Məsələn, hesabatın təqdimat bölümündə qeyd edilib ki, “faktların bir qismi “Helsinki Vətəndaş Assambleyası – Vanadzor”-dan alınıb”. Məlumat üçün bildirək ki, “Vanadzor qrupu” Beynəlxalq Helsinki Vətəndaş Assambleyasının” Ermənistan üzrə partnyor təşkilatıdır. Eyni minvalla, digər beynəlxalq təşkilatların adları çəkilməklə, onların Ermənistan üzrə filiallarına istinad edilib.Təbii ki, onlar da erməni xislətinə sadiq qalaraq, öz ideologiyalarına uyğun rəylər veriblər. Təqdimat bölümündə o da vurğulanır ki, “Anuş Bağdasarian hesabatın bir neçə bölməsinin redaktə edilməsinə mühüm töhfələr verib” (şəkil-1).

Beləliklə, aydın olur ki, “Freedom House” sonuncu hesabatını erməni şəbəkəsinin təkcə sifarişi ilə deyil, həm də ermənilərin birbaşa iştirakı ilə hazırlayıb. Hesabat hazırlanarkən Azərbaycanı təmsil edən heç bir quruma istinad edilməyib. Münaqişədə tərəf olmuş icmalardan birinə gen-bol yer ayırmaq, digərini isə görməzdən gəlmək nə qədər ədalətlidir? Bu metodla hazırlanmış hesabat nə qədər obyektiv ola bilər? “Freedom House” 30 il müddətində qaçqın, köçkün həyatı yaşamış, təkcə işğala deyil, həm də işgəncələrə məruz qalmış Qarabağın Azərbaycan icması barədə nə vaxt hesabat hazırlayacaq? Ümumiyyətlə Azərbaycan icmasını nə vaxtsa diqqətə alıbmı?

“Freedom House” Azərbaycana qarşı həmişə qərəzli olub. Hətta Qarabağ torpaqları işğal altında olan vaxtlarda da Ermənistanın mövqeyindən çıxış edib. İşğalın bitməsindən sonra isə Azərbaycana qarşı bəyanatlarını sərtləşdirib və intensivləşdirib. Təkcə 2024-cü ilin 1-ci yarısında Qarabağ üzrə iki hesabat yayıb və hər iki hesabatda faktları saxtalaşdırıb (https://xalqqazeti.az/az/siyaset/168760-freedom-house-yene-faktlari-saxtalasdirdi).

Amma sonuncu hesabatı daha radikaldır, daha qərəzli və müəmmalıdır. Əvvəlki hesabatlarında qərəzini gizlətməyə çalışırdısa, sonuncuda açıq davranıb, birmənalı şəkildə ermənipərəst mövqe sərgiləyib. Səbəbləri tam aydın olmasa da, ehtimallar üçün əsas yaradan məqamlar vardır. Çox aydın şəkildə görünür ki, ABŞ–Azərbaycan münasibətlərində istiləşmə meyli yaranan kimi, “Freedom House” və onun qismində olan təşkilatlar hərəkətə keçirlər. Münasibətləri pozmaq üçün təxribatlar törədirlər. Başa vurduğumu həftə içində ABŞ rəsmilərinin Azərbaycana səfərlərini, telefon danışıqlarını nəzərdən keçirməklə, “Freedom House” təşkilatının həyəcanlamasının səbəblərinə izah tapmaq mümkündür.


freedomhouse.org/report/special-report/2024/why-are-there-no-armenians-nagorno-karabakh

presence.

**About the Report**

This fact-finding report was jointly prepared by Freedom House, International Partnership for Human Rights, Democracy Development Foundation, Helsinki Citizens' Assembly - Vanadzor, Protection of Rights without Borders NGO, Law Development and Protections Foundation, and Truth Hounds. Media Diversity Institute conducted the open-source investigation and verification. Talin Hitik provided substantial support editing the summary and the larger report. Anoush Baghdassarian made a significant contribution to editing several sections of the larger report. The methodology and questionnaires were prepared by Democracy Development Foundation, International Partnership for Human Rights, and Truth Hounds. The fact-finding mission was made possible with the support of Open Society Foundations and Freedom House. The fact-finding mission was coordinated by the Democracy Development Foundation.

# Azərbaycan–ŞƏT: çoxtərəfli dialoqda ortaq hədəflər

(əvvəli 1-ci səhifədə)

"Çoxtərəfli dialoqun möhkəmləndirilməsi – davamlı sülhə və inkişafa nail olmaq" mövzusunda keçirilən Astana Zirvə görüşündə siyasi, iqtisadi-ticari, mədəni-humanitar əməkdaşlıq və digər məsələlərə dair fikir mübadiləsi aparılacaq. Həmçinin, əsas sənəd olan Astana Bəyannaməsi qəbul ediləcək ki, orada ŞƏT-in bir çox aktual məsələlərə münasibətdə mövqeyi ortaya qoyulacaq, təşkilatın fəaliyyəti qiymətləndiriləcək və gələcək iş istiqamətləri müəyyənləşdiriləcək.

Qeyd edək ki, ŞƏT 2001-ci ildə Qazaxıstan, Çin, Qırğızıstan, Rusiya, Özbəkistan və Tacikistan tərəfindən Şanxayda təsis olunub. Hazırda qurumun 9 üzvü (Qazaxıstan, Çin, Rusiya, Qırğızıstan, Özbəkistan, Tacikistan, Pakistan, Hindistan, İran), 3 müşahidəçi üzvü (Əfqanıstan, Monqolustan, Belarus) və 14 dialoq tərəfdaşı (Azərbaycan, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, Bəhreyn, Ermənistan, Misir, Kamboca, Qətər, Küveyt, Maldiv, Myanma, Nepal, Səudiyyə Ərəbistanı, Şri-Lanka) var. ŞƏT-in iki daimi orqanı – Pekində yerləşən Katibliyi və Daşkənddəki Terrorizmə qarşı Regional Strukturu mövcuddur.

Bilavasitə Azərbaycan–ŞƏT əməkdaşlığına gəlincə, qurumun Çindən olan baş katibi Can Min bu ilin fevralında Bakıda Prezident İlham Əliyev tərəfindən qəbul edilib. Görüşdə ölkəmizin təşkilatın fəal tərəfdaşlarından biri olduğu və Azərbaycan ilə əlaqələrin hərtərəfli inkişafına əhəmiyyət verildiyi diqqətə çatdırılıb. Ancaq bunadək keçilmiş yol var. Belə ki, 2015-ci ildə quruma üzv dövlətlərin başçıları şurasının iclasında ölkəmizə tərəfdaş statusunun verilməsinə dair qərar qəbul edilib. 2016-cı ildə Pekində Azərbaycana ŞƏT-in dialoq üzrə tərəfdaşı statusunun verilməsi haqqında Memorandum imzalanıb.

Yeri gəlmişkən, Heydər Əliyev Fondu da ŞƏT ilə əməkdaşlıq əlaqələrinin gücləndirilməsinə mühüm töhfə verib. Fondun təşkilatçılığı ilə 2018-ci ildə qurumun Pekindəki mənzil-qərargahında Azərbaycan mədəniyyəti günü, 2021-ci ildə isə dahi Azərbaycan şairi Nizami Gəncəvinin 880 illik yubileyi qeyd edilib və qərargahda Nizami Gəncəvinin büstü qoyulub. Onu da xüsusi vurğulamalıyıq ki, N.Gəncəvi Çin filosofu Konfutsidən sonra ŞƏT-in qərargahında büstü qoyulmuş ikinci tarixi şəxsiyyətdir.



Qeyd etdiklərimizin nəticəsidir ki, Prezident İlham Əliyev 2022-ci ildə ŞƏT-in Özbəkistanın Səmərqənd şəhərində keçirilmiş Zirvə görüşündə fəxri qonaq qismində iştirak edib. Ümumən isə Azərbaycanın rəhbəri ŞƏT-ə üzv ölkələrin Zirvə toplantısına ikinci dəfədir dəvət olunur. Bununla bağlı bir sıra məqamları diqqətə çatdırmağa ehtiyac var.

Əvvəla, Prezident İlham Əliyevlə təşkilata üzv dövlətlərin rəhbərləri arasında qarşılıqlı inam və etimada əsaslanan yüksək səviyyəli münasibətlər mövcuddur. Nəzərə alaq ki, ölkəmizin liderinin Qazaxıstanın paytaxtında bu ölkə ilə yanaşı, Çinin, Türkiyənin, Rusiyanın və Pakistanın prezidentləri ilə görüşü nəzərdə tutulub. İkinci məqam kimi ölkəmizin, xüsusilə onun liderinin dünya miqyasında nüfuzunun artması və dövlətimizin başçısına göstərilən yüksək ehtiram amili vurğulanmalıdır. Üçüncüsü, Azərbaycanla təşkilata üzv olan ölkələrin ikitərəfli əlaqələri yüksək səviyyədədir, həmçinin öz inkişaf dinamikasına sadiqdir. Bu baxımdan siyasi, iqtisadi, xüsusilə nəqliyyat, kommunikasiya, enerji və s. istiqamətlərdə əməkdaşlığın inkişafına yönəlmiş addım və təşəbbüslər üzərində dayanıla bilər.

Digər tərəfdən, ölkəmizin Avrasiya məkanında əsas tranzit qovşağa çevrilməsi faktorundan da söz açılmalıdır. ŞƏT ilə əməkdaşlıq kontekstində Azərbaycanın Şimal–Cənub və Şərq–Qərb nəqliyyat dəhlizləri üzrə fəaliyyəti mühüm əhəmiyyətə malikdir. Qurumun önəm verdiyi Orta dəhlizin tərkib hissəsi olan Bakı–Tbilisi–Qars dəmir yolu məhz ölkəmizin sərmayəsi hesabına başa gəlib. Bunlar Azərbaycanın ŞƏT üçün əhəmiyyətini daha da artırır. Rəsmi Bakı da öz növbəsində həm təhlükəsizlik, həm də iqtisadi inkişaf sahəsində daha mühüm rol oynamağa başlayan ŞƏT ilə əməkdaşlığı dərinləşdirməkdə maraqlıdır.

Bəli, Azərbaycan–ŞƏT əməkdaşlığı iqtisadi tərəfdaşlıq, nəqliyyat əlaqələri, terrorizm, ekstremizm və separatizm ilə mübarizə, regional təhlükəsizliyin və sabitliyin təminatı, sivilizasiyalararası dialoqun təşviqi kimi sahələri əhatə edir ki, bunlar hər iki tərəfin maraqlarına uyğundur. Eyni zamanda, Azərbaycan–ŞƏT münasibətləri ölkəmizin regional güc kimi dəstək qazanmasını şərtləndirir. Qurum beynəlxalq səviyyədə səsimizin eşidilməsi, mövqeyinin çatdırılması baxımından vacib platformadır. Prezident İlham Əliyevin zirvə görüşlərində iştirakı və etdiyi çıxışlar ölkəmizlə bağlı ən mühüm məsələlərin, prioritetlərin qlobal səviyyədə geniş ictimaiyyətə çatdırılmasını təmin edir. Şübhəsiz ki, Astana görüşü də bu baxımdan əhəmiyyət daşıyacaqdır. Nəzərə alaq ki, hazırda ölkəmiz üçün prioritet olan məsələ dünyanın ən böyük beynəlxalq tədbirlərindən olan COP29-a hazırlıq çərçivəsində ŞƏT ilə əməkdaşlıq məsələlərinin diqqət mərkəzində saxlanılmasıdır.

Ümumən, Astana Zirvə görüşünün Azərbaycan–ŞƏT əməkdaşlığının daha geniş sahələrini əhatə etməsi, habelə gələcək inkişaf perspektivlərinin müəyyənləşdirilməsi nöqteyi-nəzərindən böyük anlam daşıyacağı şübhəsizdir. Burada Azərbaycanın xarici siyasəti, uğurlu çoxtərəfli və ikitərəfli diplomatiyası, haqqında söz açdığımız COP29-a sədrliyi vacib məqamlardır. Bütün bunlar ölkəmizin qlobal səviyyədə siyasət yürüdən mövqeyə sahibliyinin, qlobal aktor olduğunun göstəriciləridir. Qeyd etdiyimiz amillər, eyni zamanda, ŞƏT dövlətlərinin də Azərbaycanla münasibətləri gücləndirməkdə maraqlı olmaları üçün yeni əsaslar formalaşdırır.

***XQ-nin Analitik qrupu***

# Oskanyanın "siyasi şizofrenliyi"

## Yaxud Ermənistanın keçmiş XİN rəhbərinin "5 dəqiqə" məntiqi

**Bu aralar yaşadığımız Cənubi Qafqaz coğrafiyasında havalar buludlu, yağışlı keçir. Ermənistanda da güclü yağışlar yağır. Ölkənin keçmiş xarici işlər naziri Vardan Oskanyan isə obrazlı desək, yağışdan sonra çıxmış göbələk kimidir. Bu qeydlərimizdə onun "News.am"ın "Güc faktoru" proqramında söylədiklərinə diqqət yetirəcəyik. Oskanyan bir çox şeyləri qarışdırdığı, necə deyərlər, kəlləmayallaq anladığı üçün biz də borclu qalmayıb, ilk növbədə onun ən sonda söylədiklərinə nəzər salaq.**

Beləliklə, sabiq erməni XİN rəhbəri Azərbaycan və Ermənistan arasında gedən delimitasiya və demarkasiya ilə bağlı danışarkən bildirib ki, prosesin öz qanunları var, indi yaşananlar isə blefdir, bir növ, imitasiyadır. Onun sözlərinə görə, delimitasiya iki ölkə arasında diplomatik münasibətlər və sülh olduqda həyata keçirilir və bunun üçün beynəlxalq istinad nöqtələri olur. "Haqlı olaraq bizə aid olmayan və onlara verilməli olan sahələr varsa belə, danışıqlar yolu ilə hər zaman müxtəlif mübadilə variantları mümkündür. ATƏT-in təlimatlarında belə qeyd olunub. Bunu təkcə təzyiq altında deyil, normal sülh yarandıqda etmək olar. Biz isə arabanı atdan qabağa qoymuşuq. Azərbaycanın bütün tələblərini yerinə yetirmək istəyirik ki, yalnız bundan sonra sülhə gedək. Bu, sülh deyil, kapitulyasiyadır", –deyən V.Oskanyanın köhnə şakərində olduğu göz qabağındadır. Sanki, 44 günlük müharibə yaşanmayıb, Ermənistan acınacaqlı məğlubiyyətə uğramayıb.

Əlbəttə, indiki durum Vardanın haqqında söz açdığı kapitulyasiyadan qaynaqlanır. Keçmiş XİN rəhbəri, görəsən, vəziyyətdən xəbərdar deyil? Çox yaxşı xəbərdardır. Sadəcə olaraq, müəyyən revanşist-şovinist dairələrin və onların Ermənistandan kənardakı hamilərinin sifarişlərini yerinə yetirməkdədir. Öz aləmində, erməni xalqının hisslərinə təsir göstərməyi düşünür. Kapitulyasiya məntiqini qabardıb sıravi insanlarda ölkələrinin alçaldıldığına dair rəy formalaşdırır ki, onlar ayağa qalxaraq iqtidarı devirsinlər. Ümumən, Oskanyanın dediklərinin hamısında bu iş üçün ideoloji baza hazırlamaq niyyəti var.

Bəli, V.Oskanyan siyasi spekulyasiya ilə məşğuldur. Ancaq erməni xalqı reallıqlardan yaxşı xəbərdardır. Yəni, sadə ermənilər 44 günlük müharibəyə son qoymuş 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın, əslində, kapitulyasiya aktı mahiyyətinə bələddirlər. Ən əsası isə indi Oskanyan buna görə baş nazir Nikol Paşinyan iqtidarını ittiham edən ritorikaya üstünlük verirsə, müharibəyə görə özünü də günahlandırmalıdır. Axı bu məxluqun vaxtilə təmsil olunduğu komanda hakimiyyətdə qalsaydı, yenə savaş qaçılmaz idi. Çünki Azərbaycanın səbri tükənirdi və Oskanyanın "diplomatikliyi" heç nəyə yaramayacaqdı.



Məsələn, 2016-cı ilin Aprel müharibəsini xatırlayaq. O vaxt Azərbaycanın qarşısı diplomatik yolla deyil, Ermənistanın Rusiyaya yalvarması ilə alındı. Nəzərə alaq ki, yalvarmağın da bir qaydası var və davamlı şəkildə ola bilməz. Nikol isə yalvarmadı, Qərbdəki ağalarına güvəndi, axırda yalvarmaq məcburiyyətində qaldı. Amma bu da bir faktdır ki, hazırda Ermənistan iqtidarının bəzi hərəkətləri onun dörd il əvvəl yaşananları, sanki, unutduğu təəssüratını formalaşdırır...

Ümumən, Ermənistan Qarabağı və digər ərazilərimizi öz gücü ilə tutmamışdı. İllər ərzində davam etmiş işğal rəsmi İrəvanın diplomatik davranışının məhsulu deyildi. Yəni ki, V.Oskanyanın bu mənada deyəcək hansısa sözü olmamalıdır. Ancaq, çox arsız adam olduğundan, danışmağa üstünlük verir, susmur. Elə Naxçıvana yol məsələsində sərsəmləyərkən də belə demək mümkünsə, arsız diplomatiyasını işə salır. Deyir ki, sözügedən məsələ Qarabağda ermənilərin mövcud olduqları dövrün məhsuludur.

Oskanyanın bildirdiyinə görə, Azərbaycan tərəfindən vaxtilə Naxçıvana yol məntiqi ona görə qaldırılmışdı ki, Laçın dəhlizi söhbəti var idi və guya, hazırda o söhbət sıradan çıxdığından, Naxçıvana yol da tələb kimi irəli sürülə bilməz. "Beləliklə, güzgü vəziyyəti yaratmaq üçün (Azərbaycan) bu məsələni müzakirəyə çıxardı. İndi nə Qarabağ, nə də Qarabağ erməniləri var. Amma problem (Naxçıvana maneəsiz yol – red.) danışıqlar masasında qalır. Məsələ ətrafında düşünməyə başlayanda, deyirlər (erməni iqtidarı nəzərdə tutulur - red) ki, mən nə edim, ABŞ-a bu lazımdır, Rusiyaya bu lazımdır, Türkiyəyə, İrana, Çinə, Hindistana lazımdır, əlinizi yuxarı qaldıra bilərsiniz. Ancaq başa düşürsən ki, onlar heç bir səbəb olmadan ərazinizdən kiməsə yol verməkdən danışırlar. Mübaliğə etmirəm, amma bu gün Ermənistanın xarici işlər naziri olsaydım, beş dəqiqə ərzində bu məsələni gündəmdən çıxarardım. Mənə bir səbəb göstərə bilərsinizmi ki, niyə bu yoldan imtina edək?"

Göründüyü kimi, V.Oskanyan bu fikrini gündəmə gətirərkən də özünü dartaraq, guya, hansısa fövqəladə bacarığa sahibliyini iddia edir və spekulyasiya yolunu tutur. Əvvəla, üçtərəfli bəyanatın Ermənistan tərəfindən yerinə yetirilməyən şərtlərindəki Qarabağ amili bölgənin Azərbaycana məxsusluğundan geri durmaq deyildi. Yəni, rəsmi Bakı heç bir halda Naxçıvana yol məntiqini Laçın dəhlizi məntiqi ilə paralel tutmayıb. Məsələlərin hər birinin öz yeri olub. Ölkəmizin rəhbərliyi hər zaman bildirib ki, Qarabağda ermənilər Azərbaycan yurisdiksiyası altında, vətəndaş olaraq yaşaya bilərlər. Bilavasitə Naxçıvana yola gəldikdə isə bu, həm Ermənistanın Azərbaycana otuz il ərzində yaşatdığı işğalın təzminatıdır, həm tarixi ədalətin bərpasıdır, həm də ölkəmizin regional düzən üçün təklif etdiyi yeni iqtisadi layihədir. O layihə ki, bütövlükdə, dünya üçün önəmlidir. Oskanyan isə ayrı-ayrı ölkələrin adlarını çəkir və başa düşmür ki, Ermənistan nə indi, nə də onun nazir olduğu dövrdə həmin ölkələrin iradəsinə qarşı çıxacaq gücdə olmayıb. Bir qədər də konkret ifadə etsək, Vardan nazir postunu tutanda, ölkəsi Rusiyanın forpostu ampluasında idi. İndi də tamamilə Qərbin patronajlığı altına keçmək planları qururaq "dividend" götürməyi düşünür.

Digər yandan, V.Oskanyan hələ də özünü Azərbaycanın regional lider, söz sahibi mövqeyini anlamamış kimi aparır. O, ölkəsinin müharibədən sonra danışıqların gündəliyini dəyişmək üçün bir çox imkanları əldən verdiyini bildirir. Görəsən, hansı imkanlardan söz açır? Məsələ burasındadır ki, Paşinyan iqtidarı 44 günlük müharibədən sonra bütün mümkün vasitələrdən istifadə etdi ki, reallıqları dəyişsin. Amma buna müyəssər ola bilmədi, çünki Azərbaycan qətiyyətli və prinsipial davrandı.

Bəli, ölkəmizin qətiyyəti və prinsipiallığı nəticəsində rəsmi İrəvanın qaldırdığı Qarabağ ermənilərinə beynəlxalq təminat məsələsi puça çıxdı. Ermənistan rəhbərliyi bölgədəki separatçı rejimi saxlamaq üçün də cidd-cəhd göstərdi. Amma yenə istəyinə çata bilmədi. Belə olan halda Oskanyanın səsləndirdiyi bu fikirlər cəfəngiyyatdan başqa bir şey deyil: "Ancaq danışıqların gündəliyini dəyişmək mümkündür. Qarabağ ermənilərinin beynəlxalq zəmanətlə kollektiv şəkildə geri qaytarılması məsələsini gündəmə gətirmək tamamilə mümkündür. Uorlik (ATƏT-in Minsk qrupunun keçmiş həmsədri Ceyms Uorlik nəzərdə tutulur – red.) son müsahibəsində deyib ki, Qarabağ ermənilərinin öz evlərinə qaytarılmaları məsələsi sülh müqaviləsinin gündəliyinə daxil edilməlidir".

Əvvəla, Uorlik kimdir ki, onun dilə gətirdiyi hansısa söz ciddiyyət immuniteti qazansın? Bu adam canını tapşırmış strukturda vaxtilə təmsil olunmuş birisidir. O strukturda ki, heç nəyə yaramadı, erməni işğalını leqallaşdırmaq yolunu tutdu. İkincisi, görəsən, Oskanyan C. Uorlikin Fransanın Ermənistanı silahlandırmasının sülh prosesinə zərər vurduğuna dair fikirləri ilə tanışdırmı? Yəni, keçmiş XİN rəhbəri rahat olsun ki, hər zaman günahlandırdığı Paşinyan iqtidarı ən pis erməni olmaq yarışından geri durmayıb. Yəni, necə ki keçmiş XİN rəhbəri sülh prosesini pozmağa girişib, eyni istək az və ya çox dərəcədə Nikol və komandasında da var. Bu mənada Oskanyan ona da arxayın olsun ki, hazırda dilə gətirdiyi bütün cəfəngiyyatları rəsmi İrəvan sınaqdan çıxarıb, yuxarıda da vurğuladığımız kimi, istəyinə çatmağı bacarmayıb. Elə ona görə də müxbir Oskanyana Azərbaycanın prinsipiallığına söykənmiş sual verir. Soruşur ki, rəsmi Bakı, həqiqətən də, Qarabağ ermənilərinin qaytarılmasına razı olacaqmı?

Erməni keçmiş XİN rəhbərinin hansı cavabı verdiyini diqqətə çatdırmazdan əvvəl təkrarlayaq ki, Azərbaycan Qarabağ ermənilərinin bölgəni tərk etmələrini istəməyib. Bunu tez bir zamanda gerçəkləşdirən Paşinyan iqtidarı olub. Ermənistan hakimiyyəti istəmişdi ki, onların bölgədən, guya, zorla çıxarıldıqlarına dair beynəlxalq rəy formalaşdırsın və bu yolla Azərbaycana təzyiq göstərilsin. Məqsəd aydın idi – haqqında söz açdığımız beynəlxalq təminatı qazanmaq. Elə bir təminatı ki, Qarabağdakı erməni varlığına, faktiki olaraq, məxsusi status versin.

Nikol və komandası belə fikirdə idi ki, Qarabağda ermənilərin Azərbaycanın qoyduğu şərtlərlə yaşamaları qeyri-mümkündür. Həm də ona görə ki, bu şərtlər 1988-ci ildə ortaya atılmış "Miatsum" ideyasını, yəni Qarabağın Ermənistana birləşdirilməsi ambisiyasını mümkünsüzə çevirir, separatizm üçün fürsət tanımırdı.

Bəli, məhz qeyd etdiyimiz məqamlara görə Qarabağda erməni qalmadı. Azərbaycan prosesin özünə qarşı yönəldiyini, şübhəsiz, bilirdi. Ona görə də hazırda qayıdış şərtləri də dəyişib. Yəni, əvvəlki şərtlər işlək deyil. Bir halda ki, Ermənistan rəhbərliyində, o cümlədən ölkədə və dünya erməniliyində və onun xaricdəki havadarlarında Qarabağ ermənilərinin bölgəyə qayıdışını sülh müqaviləsinin tərkib hissəsinə çevirmək istəkləri var, o zaman 1988-1991-ci illərdə Ermənistandakı ata-baba yurdlarını tərk etmiş azərbaycanlıların da eyni qaydada evlərinə dönmələri məsələsi aktual olmalıdır. Azərbaycan rəhbərliyinin tələbi budur. Oskanyan isə nədənsə hesab edir ki, İrəvan tərəfindən sülh müqaviləsinə Qarabağ ermənilərinin ilə bağlı müddəa əlavə olunsa, Bakı bunun qarşılığında heç nə edə bilməyəcək. Sabiq XİN rəhbəri daha sonra bunları bildirir: "Azərbaycan hər gün yeni gündəm irəli sürür, amma biz müharibədən sonrakı danışıqlarda heç vaxt öz gündəmimizi diktə etməmişik. Bu problemdir. Məsələləri gündəliyə qoymalısınız, lakin onlar məntiqli, proses üçün əlverişli olmalıdır ki, kənar müşahidəçilər dərhal rədd edə bilməsinlər. Beynəlxalq Ədalət Məhkəməsinin qərarı var. Avropa Parlamentinin bu ilin mart ayından başlayaraq qərarları var. Onlarda deyilir: biz Azərbaycanı Qarabağ nümayəndələri ilə danışıqlar masası arxasına oturmağa, münaqişəni müzakirə etməyə çağırırıq".

Bəli, Oskanyan manipulyasiyaya yol verir. Əvvəla, Avropa Parlamentinin qərəzli, ermənipərəst qətnamələri yolverilməzdir. İkincisi, Azərbaycan Qarabağ nümayəndələri ilə danışıqlara dəvət etmişdi, lakin onlar bundan boyun qaçırmışdılar. Artıq, necə deyərlər, iş-işdən keçib. Zamanında Azərbaycanın danışıqlar çağırışlarına məhəl qoymaq lazım idi. Oskanyanın "diktə məntiqinə" gəlincə, görəsən, bu məxluq beyin qıcqırmasının hansı həddindədir? Azərbaycanla, özü də diktə dilində danışmaq? Vardan, deyəsən, ağlını tam itirərək, siyasi şizofrenliyə keçib.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Türk birliyinin iqtisadi özülləri möhkəmlənir




**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) nəzdində fəaliyyət göstərən Türk Dünyası Araşdırmalar Mərkəzi "Türk iqtisadi icmalı"nın növbəti sayını təqdim edib. 2024-cü ilin yanvar-mart ayları üzrə əsas iqtisadi göstəriciləri verilən bülletendə Türk Dövlətləri Təşkilatının üzv və müşahidəçi ölkələrinə dair məlumatlar əksini tapıb.**

İcmalda ölkələrin ərazi, əhali, ümumi daxili məhsul (ÜDM) və ticarət dövriyyəsi üzrə ümumiləşdirilmiş göstəriciləri və dünyadakı payı diqqətə çatdırılmaqla türk ölkələrinin ayrı-ayrılıqda ÜDM artımının müqayisəsi aparılıb. Eyni zamanda, türk dünyasından keçən Orta Dəhliz, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri təsvir edilməklə türk dövlətlərinin Avrasiya regionu üzrə nəqliyyat daşımalarında mövcud potensialı təqdim olunub. İcmalın ikinci bölməsində isə 2024-cü ilin ilk rübü üzrə makroiqtisadi göstəricilərin dinamikasının 2023-cü ilin eyni dövrü ilə müqayisəsi aparılıb.

Azərbaycan türk dövlətləri arasında əməkdaşlığın dərinləşməsi prosesində aparıcı rola malik ölkələrdəndir. Rəsmi Bakı türk dövlətlərinin inteqrasiyası üçün fəal siyasi təşəbbüslərlə çıxış edir, iqtisadi maraqların uzlaşdırılması məqsədilə koordinasiyanın formalaşmasını gerçəkləşdirir. Bu, respublikamızın türk dövlətləri ilə iqtisadi münasibətlərində özünü aydın nəzərə çarpdırır. Məsələn, Türk Dövlətləri Təşkilatının üzv və müşahidəçi ölkələrinə ümumi baxış statistikasında göstərilib ki, 2024-cü ilin ilk rübündə türk dövlətlərinin ÜDM-i 518,4 milyard ABŞ dolları, ticarət dövriyyəsi 285,7 milyard ABŞ təşkil edib. Bu dövrdə iqtisadi artım Türkiyədə 5,7 faiz, Azərbaycanda 4 faiz, Özbəkistanda 6,2 faiz, Qırğızıstanda 8,8 faiz, Qazaxıstanda 3,7 faiz, Macarıstanda 1,1 faiz, Şimali Kipr Türk Respublikasında 3,5 faiz və Türkmənistanda 6,3 faiz olub ki, bunula da türk dövlətlərinin iqtisadi artımı orta hesabla 4,9 faiz qeydə alınıb.

Azərbaycanda iqtisadi artım neft və qaz sektoru ilə yanaşı, qeyri-neft sektorunda, xüsusilə kənd təsərrüfatında qeydə alınıb. Qazaxıstan iqtisadiyyatında mədənçıxarma və tikinti sahələrində nəzərəçarpan artım və inflyasiyanın sabitliyi, Qırğızıstanda mədənçıxarma və xidmət sektorlarında birbaşa xarici investisiyaların (BXİ) axınının artması müşahidə edilib. Türkiyə iqtisadiyyatı 2024-cü ilin ilk rübündə daxili tələbatın yüksəlməsi və ixracın canlanması nəticəsində 5,7 faiz artıb, işsizlik səviyyəsi 9,8 faizə enib. Türkmənistan iqtisadiyyatı infrastruktura investisiyalar və qaz ixracı ilə dəstəklənən artım sayəsində fiskal sabitliyi təmin edib. Özbəkistanda infrastruktura və istehsala yönələn investisiyalar hesabına güclü iqtisadi artım qeydə alınıb və iqtisadiyyatın dayanıqlığını gücləndirən xarici ehtiyatların payı çoxalıb. Macarıstan iqtisadiyyatı sənaye istehsalı və ixracı ilə dəstəklənən artım nümayiş etdirib, bu ölkədə dövlət borcunun azalması, fiskal dayanıqlığın yaxşılaşması baş verib. Şimali Kipr isə turizm və tikinti fəaliyyətləri hesabına artım əldə etməklə iqtisadi fəallığını yüksəldib.

Təşkilatda təmsil olunan ölkələr arasında ötən müddətdə həm çoxtərəfli, həm də ikitərəfli formatlarda əməkdaşlıq əlaqələri qurulub. İndiyədək vaxtaşırı iqtisadi münasibətlər çərçivəsində bu birliyə üzv dövlətlərin müvafiq qurumlarının yüksək səviyyəli rəsmiləri arasında çoxsaylı görüşlər keçirilib, bir neçə biznes forum gerçəkləşdirilib. Həmin tədbirlərdə quruma üzv dövlətlərin iqtisadi imkanları, əməkdaşlıq sahələri təqdim olunub. O cümlədən, investisiya mühitinin yaxşılaşdırılması, iqtisadiyyatın şaxələndirilməsi və sahibkarlıq üzrə işçi qruplarının yaradılması haqqında qəbul edilən qərarlar müsbət nəticələrlə diqqət çəkib.

Yeri gəlmişkən, Azərbaycan bu ilin ilk rübündə Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi ölkələri ilə əməkdaşlığa da xüsusi diqqət yetirib. Bu, statistik göstəricilərdə də öz ifadəsini tapıb. Belə ki, sözügedən dövrdə TDT-yə üzv və müşahidəçi statusa malik ölkələrlə ticarət dövriyyəsi 1 milyard 709,1 milyon ABŞ dolları təşkil edib. Bu da ölkəmizin ümumi ticarət dövriyyəsinin 17,6 faizinə bərabər olub.

Dövlət Gömrük Komitəsinin məlumatına görə, cari ilin ilk rübündə Azərbaycan Türkiyə ilə 1 milyard 469,1 milyon dollar, Türkmənistanla 96 milyon 926 min dollar, Qazaxıstanla 70 milyon 829 min dollar, Özbəkistanla 35 milyon 814 min dollar, Qırğızıstanla 23 milyon 382 min dollar, Macarıstanla isə 13 milyon dollar məbləğində idxal-ixrac əməliyyatları həyata keçirib.

2024-cü ilin yanvar–mart aylarında Azərbaycandan Türkiyəyə 150 milyon 291 min dollar, Qırğızıstana 20 milyon 815 min dollar, Türkmənistana 16 milyon 861 min dollar, Qazaxıstana isə 11 milyon 731 min dollar dəyərində qeyri-neft məhsulları ixrac edilib.

Xatırladaq ki, 2023-cü ildə Azərbaycanın TDT-yə üzv ölkələrlə ticarət dövriyyəsi 8 milyard 208 milyon dollar təşkil edib ki, bu da əvvəlki illə müqayisədə 23,7 faiz və ya 1 milyard 574 milyon dollar çox olub. Ümumilikdə, ötən il təşkilata üzv ölkələrlə aparılan idxal-ixrac əməliyyatları Azərbaycanın ümumi ticarət dövriyyəsinin 16 faizinə bərabər olub.

Türk dünyası hazırda beynəlxalq münasibətlərin yeni bir güc mərkəzi kimi mühüm önəm daşıyır və ciddi geosiyasi və geoiqtisadi çəkiyə malik olması ilə diqqət çəkir. Bunu statistik göstəricilər də təsdiq edir: TDT-yə üzv ölkələrin əhalisi 173 milyon nəfərdən çoxdur. Bu dövlətlərdə ümumi daxili məhsulun (ÜDM) həcmi 1,5 trilyon ABŞ dolları, ticarət dövriyyəsi 1,2 trilyon ABŞ dolları təşkil edir. Ümumilikdə, dünya ərazisinin 1 faizi, ticarət dövriyyəsinin isə 2,4 faizi TDT-yə üzv ölkələrin payına düşür.

Prezident İlham Əliyev bu il iyunun 6-da TÜRKPA-nın nümayəndə heyəti ilə görüşündə son illərdə türk dövlətlərinin nəqliyyat əlaqələrinin qurulması və genişləndirilməsi, iqlim məsələlərinin həllinin diqqətdə saxlanılması, Orta Dəhlizin fəaliyyətə başlaması, habelə yükdaşımaların artırılması istiqamətində önəmli tədbirlər həyata keçirildiyini bildirib. Ölkə rəhbəri, eyni zamanda, işğaldan azad olunan Qarabağ və Şərqi Zəngəzurda sürətlə aparılan bərpa-quruculuq işlərində Türk dünyasının fəal iştirak etdiyini diqqətə çatdırıb. Dövlətimizin başçısı bununla bağlı deyib: "Türk Dövlətləri Təşkilatına üzv ölkələrin liderləri Şuşaya səfərlər etmişlər. Türkiyə Prezidenti, Özbəkistan Prezidenti, Qazaxıstan Prezidenti, Qırğızıstan Prezidenti Ağdama və Füzuliyə səfər etmişdir. Yəni bu, işğal edilmiş torpaqların bərpası üçün, əlbəttə, böyük məna daşıyır. Biz bir daha qardaş dəstəyini hiss edirik, bütün Azərbaycan xalqı bunu hiss edir".

TÜRKPA-nın nümayəndə heyəti ilə görüşdə türk dövlətlərinin sıx bağlılığı, möhkəm birliyi barədə danışılarkən, həmçinin bildirilib ki, bu gün çoxgütblü bir dövrün uğurlu başlanğıcı diqqət çəkir. Orta Asiya dediyimiz Özbəkistan və Qazaxıstandan başlayan, Qafqazdan Anadoluya, oradan da Avropaya – Macarıstana qədər uzanan coğrafiyada təxminən 300 milyon türk yaşayır. Bu, böyük bir ehtiyatdır. Həm insan gücü, həm də yeraltı, yerüstü sərvətlər baxımından qeyri-adi böyük bir potensialdır. Türk dövlətlərinin bundan ən doğru şəkildə istifadə edərək yeni dünyada böyük bir güc mərkəzinə çevriləcəyi isə heç bir şübhə doğurmur.

Xatırladaq ki, TDT-nin 2009-cu ildə Naxçıvan şəhərində keçirilən Zirvə görüşündən indiyədək qurum səmərəli bir inkişaf yolu keçib. Ötən müddətdə sözügedən TDT 160 milyona yaxın insanın yaşadığı böyük bir coğrafiyada və qlobal miqyasda güclü təşkilat kimi tanınıb. Prezident İlham Əliyevin TDT ölkələri ilə bütün sahələrdə əlaqələrin möhkəmləndirilməsini Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biri elan edib.

## Taxıl – 2024

**Azərbaycan Respublikasının Dövlət Ehtiyatları Agentliyi bu il sentyabr ayının 1-dək yerli buğda istehsalçılarından 2024-cü ildə istehsal olunmuş yüksək keyfiyyətli yerli ərzaqlıq buğdanın tədarükünü elan edib.**

Agentlikdən qəzetimizə daxil olan məlumata görə, tədarük ediləcək ərzaqlıq buğda Nazirlər Kabinetinin 2009-cu il 7 iyul tarixli qərarı ilə təsdiq edilən "Dövlət Taxıl Fondunun saxlanması və istifadəsi Qaydaları"nın 1 nömrəli əlavəsində vurğulanan bütün keyfiyyət göstəricilərinə, habelə "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyənləşdirilən tələblərə cavab verməlidir. Təklif olunan ərzaqlıq buğdanın keyfiyyət tələblərinə uyğunluğu müvafiq sahədə akkreditasiya olunan laboratoriyalar tərəfindən təsdiqlənməlidir.

Tədarük zamanı ərzaqlıq buğdanın keyfiyyət göstəriciləri Dövlət Ehtiyatları Agentliyi tərəfindən əlavə olaraq yoxlanılacaq. Bütün keyfiyyət tələblərinə cavab verməyən ərzaqlıq buğda qəbul edilməyəcək. Tədarük ediləcək ərzaqlıq buğdanın qiyməti hər ay üçün ondan öncəki ay ərzində Azərbaycan Respublikasına idxal edilən ərzaqlıq buğdanın orta idxal

# Zəmilər biçilir, anbarlar dolur



statistik göstəricisinə uyğun olaraq müəyyənləşdiriləcək.

Ərzaqlıq buğdanın qəbul məntəqələrinə çatdırılması istehsalçının vəsaiti hesabına həyata keçirilir. Qəbul məntəqələri Bakı, Gəncə, Şəki, Xızı, Kürdəmir, Şabran və Xaçmazda yerləşir.

"Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" Azərbaycan Prezidentinin 2022-ci il 19 iyul tarixli fərmanına uyğun olaraq, pilot layihə çərçivəsində Kənd Təsərrüfatı Nazirliyi ilə bağlanmış müqavilələrə əsasən, müasir suvarma sistemlərinin tətbiq edildiyi təsərrüfatlarda ərzaqlıq buğda istehsalı ilə bağlı öhdəlik götürmüş şəxslər tərəfindən təhvil verilən ərzaqlıq buğdaya məhsul subsidiyası tətbiq ediləcək. Sözügedən təsərrüfatlarda təhvil verilmə dövründə ərzaqlıq buğdanın orta idxal statistik göstəricisi Nazirlər Kabinetinin 2024-cü il 29 iyun tarixli sərəncamında müəyyənləşdirilən 400 manat dövlət tədarük qiymətindən aşağı olduğu hallarda, aradakı fərqin proqrama qoşulan istehsalçılara kompensasiya edilməsi məqsədilə məhsul subsidiyası əmsalının Aqrar Subsidiya Şurası tərəfindən yenilənməsi nəzərdə tutulub.

Qeyd edək ki, aparılan qiymətləndirmələrə əsasən, son bir neçə ildə qədər ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsi təqribən 25 faiz olub, 2023-cü ildə isə həmin göstərici 34 faizə çatdırılıb. Bu sahədə vəziyyətin daha da yaxşılaşdırılması üçün ölkədə ərzaqlıq buğda ilə yerli istehsal potensialının artırılması da diqqətdə saxlanılıb. Buğda istehsalında yüksək məhsuldarlığın pivot suvarma sistemləri hesabına tətbiqinin genişləndirilməsi üçün sahibkarlara subsidiya və güzəştli kreditlər formasında dəstək verilməsinə başlanılıb. Həmçinin ilk dəfə olaraq un emalı müəssisələrinə və dövlət ehtiyatları üçün təhvil verilən ərzaqlıq buğdaya görə məhsul subsidiyası tətbiq olunub.

Ərzaqlıq buğdanın dövlət tədarük qiymətinin azaldılması mövcud qaydalara əsaslanır. Belə ki, bu qaydalara görə, hər il ərzaqlıq buğdanın maya dəyəri göstəriciləri hesablanaraq bəyan olunur. Ötən il tədarük qiymətinin azaldılması da buna görədir. Məlum olduğu kimi, 2022-ci ildə buğdanın istehsal xərcləri xüsusilə gübrələrin qiymətlərindəki kəskin artıma görə yüksək idi, 2023-cü ildə isə müvafiq xərclər ciddi şəkildə azaldı ki, bu da təbii olaraq buğdanın maya dəyərinin azalmasını şərtləndirdi.

Bu məsələ ilə bağlı kənd təsərrüfatı naziri Məcnun Məmmədov mediaya müsahibəsində bildirib: "Ərzaqlıq buğda üzrə idxaldan asılılıq məsələsində söhbət idxala son qoyulmasından deyil, idxaldan asılılığın azaldılmasından gedə bilər. Buğda idxalına tam olaraq son qoymaq ona görə mümkün deyil ki, hər bir ölkədə kənd təsərrüfatı məhsullarının istehsalı, ilk növbədə, təbii resurslardan və iqlim şəraitindən asılıdır. Bizim təbii-iqlim şəraitimiz və torpaq resurslarımız daha çox meyvə-tərəvəzlərin və bəzi texniki bitkilərin yetişdirilməsi üçün əlverişlidir. Dünya ölkələrinin təcrübəsi göstərir ki, buğda istehsalı, ümumilikdə, taxıl məhsulları istehsalı böyük ərazilərdə, daha çox dəmyə şəraitində, eyni zamanda, çox da yüksək olmayan, hətta çox aşağı məhsuldarlığa əsaslanır".

Məcnun Məmmədov müsahibədə belə vəziyyətin əsas taxılçılıq ölkələrində də yaşandığını bildirir və dünyada davam edən qeyri – sabit şəraitin Azərbaycanı yerli istehsal hesabına əsas ərzaq məhsulları, xüsusilə də buğda ilə mümkün qədər daha çox təmin etməyin zəruriliyini vurğulayır.

Taxıl istehsalının artırılmasının əsas yollarına gəldikdə isə deyə bilərəm ki, burada əsas rolu qısa rotasiyalı əkin dövriyyələri, torpaq becərməli, gübrə verilməsinin səmərəli üsulları, həmçinin optimal səpin müddəti və normalarının, yeni intensiv sortların təsərrüfatlara tətbiqi, keyfiyyətli toxum materialından istifadə edilməsi və əkinlərin xəstəlik, ziyanverici, eyni zamanda, alaqlardan mühafizə olunması kimi amillər oynayır.

Göstərilən becərmə kompleksinə daxil olan əhəmiyyətli tədbirlərdən biri də taxıl səpininin vaxtında və keyfiyyətlə aparılmasıdır. Keyfiyyətli səpin aparmaqla sağlam və kütləvi cücərtilərin alınması məhsulun yarısı deməkdir. Yüksək texnologiya əsasında fəaliyyət göstərən, müasir aqro tələblərə əməl edən təsərrüfatların əkin sahələrində yüksək göstəricilərə nail olunması məhz bunun bariz ifadəsidir.

Yeri gəlmişkən, hazırda ölkəmizdə kənd təsərrüfatında məhsul istehsalının artmasına yönələn tədbirlərin həyata keçirilməsi qarşıdakı illərdə ərzaq təhlükəsizliyinin gücləndirilməsini şərtləndirir. Ötən ilin iyul ayında qəbul edilən "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda ölkədə ərzaq təhlükəsizliyinin daha da gücləndirilməsinə xidmət edən layihələr məhz həmin məqsədi daşıyır.

Hazırda ölkəmizin buğda ehtiyatının dayanıqlığı üzərində iş aparılır. Qarşıdakı illərdə 80–100 min hektar ərazinin torpağın əkin dövriyyəsinə cəlbi planlaşdırılır. Prezident İlham Əliyev martın 13-də Berlində Almaniyanın aparıcı şirkətlərinin rəhbərləri ilə görüşü çərçivəsində keçirilən müzakirələrdə bununla bağlı deyib: "İşğaldan azad olunmuş Qarabağın və Şərqi Zəngəzurun böyük kənd təsərrüfatı potensialı var. Hazırda Kənd Təsərrüfatı və İqtisadiyyat nazirlikləri, həmin zonalarda Prezidentin xüsusi nümayəndələri və digər qurumlar birgə çalışırlar ki, kənd təsərrüfatına uyğun torpaqlardan maksimal səmərəliliklə istifadə edilsin. Çünki 30 il ərzində Ermənistan qanunsuz olaraq torpaqlarımızı istismar edib, lakin bu da səmərəsiz edilib. Onlar heç bir vəsait yatırmayıb, sadəcə, torpaqdan istifadə ediblər və bu səbəbdən məhsuldarlıq Azərbaycanda digər növlərlə müqayisədə üç dəfə aşağı olub. İndi isə biz azad olunmuş ərazilərə qayıdacaq fermerlərimiz üçün hansı məhsulların yetişdirilməsi ilə bağlı tövsiyələr hazırlayırıq və zənnimcə bu iş bitib. Biz onları məcbur edə bilmərik. Lakin güzəştli subsidiyalarla biz onları istiqamətləndirə bilərik ki, bəzi torpaqlar kartof, digərləri başqa tərəvəz və meyvələr üçün istifadə edilsin".

Qeyd edək ki, Qarabağda və Şərqi Zəngəzurda bitkiçiliklə yanaşı, heyvandarlıq da inkişaf etdirilir. Artıq qoyunçuluq təsərrüfatları yay aylarında Kəlbəcər və Laçın yaylaqlarına köçürülür. Təkcə keçən il adları çəkilən iqtisadi zonalardakı yaylaqlara 61 mindən çox arı ailəsi aparılıb. Qarşıdakı illərdə isə işğaldan azad olunmuş ərazilərin hesabına Azərbaycanın ərzaq təhlükəsizliyinin daha da güclənəcəyi proqnozlaşdırılır.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

## Polad yollarda sərnişindaşıma 20 faiz artıb

**Bu ilin yanvar-iyun aylarında "Azərbaycan Dəmir Yolları" QSC (ADY) ötən ilin eyni dövrü ilə müqayisədə 20 faizdən çox – 3 milyon 849 min 804 sərnişin daşıyıb.**



ADY-nin bu barədə məlumatına görə, 6 ay ərzində Abşeron dairəvi dəmir yolu xətti üzrə 3 milyon 666 min 518 sərnişin (1 il əvvələ nisbətən 19 faiz çox), Bakı–Ağstafa–Bakı marşrutu üzrə 160 min 799 sərnişin (30 faiz çox), Bakı–Qəbələ–Bakı marşrutu üzrə isə 22 min 487 sərnişin (2,5 dəfə çox) mənzil başına təhlükəsiz çatdırılıb.

Göstərilən dövrdə Bakı-Ağstafa-Bakı marşrutu ilə hərəkət edən qatarlarda doluluq səviyyəsi 92 faiz (ötən ilin 6 ayında 90 faiz), Bakı-Qəbələ-Bakı marşrutu üzrə 61 faiz (ötən ilin eyni dövründə 50 faiz) təşkil edib. Bununla yanaşı, Bakı–Qəbələ–Bakı istiqamətində səfər edən sərnişinlərin 10 faizdən çoxu, Bakı–Ağstafa–Bakı marşrutu üzrə isə 7 faizdən çoxu əcnəbi turistlər olub.

Bu il iyun ayının 14-dən etibarən Bakı-Ağstafa-Bakı xətti üzrə istismara yeni qəbul edilmiş 2 yeni "Stadler" qatarı ilə son 17 gün ərzində 16 mindən çox sərnişin daşınıb.

İlin ilk 6 ayında sərnişindaşıma üzrə ümumilikdə 9 min 265 reys həyata keçirilib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 22 faiz (ötən il 7610 reys) çoxdur. 2024-cü ilin yanvar-iyun ayları üzrə sərnişindaşıma proqnozu 101 faiz yerinə yetirilib.

## Büdcədə vergi-gömrük gəlirləri 60 faizə çatdırılıb

**Azərbaycanın yenidən baxılmış və Prezident İlham Əliyevin təsdiqlədiyi dövlət büdcəsinin gəlirləri 36 milyard 388 milyon manat məbləğində proqnozlaşdırılır ki, bunun da 21 milyard 705 milyon manatını və yaxud 59,65 faizini vergi-gömrük orqanları təmin edəcək.**



İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin büdcə öhdəliyi 13 milyard 865 milyon manatdan 15 milyard 270 milyon manata, Dövlət Gömrük Komitəsinin büdcə öhdəliyi isə 5 milyard 900 milyon manatdan 6 milyard 435 milyon manata çatdırılıb.

Beləliklə, büdcə gəlirlərindəki 2 milyard 215 milyon manat artımın 1 milyard 940 milyon manatı və yaxud 87,6 faizi vergi-gömrük orqanlarının üzərinə qoyulub.

## Çinlə "Orta dəhliz" memorandumu imzalanıb

**"Azərbaycan Dəmir Yolları" QSC-də Çin Xalq Respublikasının Szyansu əyaləti hökumətinin nümayəndə heyəti ilə görüş keçirilib.**

Söhbət zamanı Orta Dəhlizə yeni yüklərin cəlb olunması, iki ölkə arasında qarşılıqlı əlaqələrin mövcud və gələcək inkişaf perspektivləri, hər iki tərəfi maraqlandıran aktual məsələlər, eyni zamanda, Azərbaycan ərazisindən keçən tranzit daşımaların Çin tərəfindən subsidiyalaşdırılması barədə fikir mübadiləsi aparılıb.



Görüşün yekunu üzrə əməkdaşlığa dair memorandum imzalanıb. Memorandum tərəflər arasında dəmir yol nəqliyyatı sahəsində ikitərəfli əlaqələrin inkişafına və Orta Dəhliz üzrə daşımaların həcminin artırılmasına xidmət edəcək.

Qeyd edək ki, Szyansu əyaləti ilə əməkdaşlıq çərçivəsində Çinin bu bölgəsindən Azərbaycana ilk blok qatarı iyunun 20-də yola düşüb və yaxın günlərdə Bakıya çatacaq.

# “İqlim” həmrəyliyi və çoxmədəniyyətlik

**Keçmişdən bu günə qədər yaranmış cəmiyyətlərin əksəriyyəti multikultural quruluşa malik olub. Ən azından müharibə, köç, ticarət kimi amillərə görə müxtəlif cəmiyyətlərin bir-biri ilə qarşılıqlı əlaqəsi fərqli mədəniyyətlərin birgə yaşadığı sosial modellərin yaranmasına zəmin yaradıb.**




Məqalənin adından göründüyü kimi, burada üç önəmli məfhum yer alır; yaşıl dünya (biosfera), həmrəylik və çoxmədəniyyətlilik. Bu yazıda cari ildə ölkəmizdə keçiriləcək COP29 tədbirinin məzmun və mahiyyətini, o cümlədən multikultural–fəlsəfi yöndən əhəmiyyətini göstərməyə çalışacağıq.

İlkin olaraq biosferin (yaşıl dünyanın) fəlsəfi-etik təsvirinə nəzər yetirək. XX əsrdə sürətli texniki inkişafla bərabər dünya əhalisinin artması, şəhərləşmə və sənayeləşmənin təbiət üzərindəki təsiri ilə təhlükəli problemlər ortaya çıxdı. XVII əsrdən etibarən fəlsəfə tarixində və elmdə “təbiətə hakim olma” istəyi sənayeləşmə inqilabı ilə birlikdə təbiəti nəzarət altına almaq istəyinə çevrildi. Nəticədə, özünü təbiətin “ağası” sayan bəşər övladı təbiət ilə uzlaşmanın labüdlüyü fikrini qəbul etdi. Bu baxımdan müasir filosofların daha çox vurğuladıqları məfhum “organic” aləm məfkurəsidir. Onlara görə, bizim bir dünyamız vardır və onun başına nə gələrsə, bizim də başımıza gələcək. Buna görə insanın ətraf mühitə qarşı laqeyd qalması nəticəsində özü də zərər çəkəcək. Ekoloji şüur bizə insanların fatehlər olmaqdan çox canlı cəmiyyətin üzvlərindən mütəşəkkil “bio yurddaşlar” olduğunu göstərir. Bu anlayış eko-sistemlərdə insanın imtiyazlı vəzifəyə sahib olmadığını qəbul edir.

İkincisi həmrəylik anlayışıdır; tarix boyunca insanlar ortaq məxrəcə, həmrəyliyə və uzlaşmağa gəldikləri zaman daha çox fayda əldə etmiş və bu mənada sivilizasiyaların inkişafı labüd hala gəlmişdir. Burada önəmli olan həmrəyliyə aparan yolun çoxsəslilikdən və fərqlilikdən keçməsidir. Qədim yunan filosofu Platon cəmiyyətin inkişafının həmrəyliyə dayandığını iddia edirdi. Ancaq onun şagirdi Aristotelə görə, cəmiyyətin inkişafı fərqliliklərə istinad edərək çoxyönlü inkişafı zərurətə çevirir. Bu mənada fərqliliklər və bu fərqliliklərə söykənən uzlaşma cəmiyyətin və mədəniyyətlərin əsasını təşkil edir.

XX əsrin məşhur alman filosofu H.Q.Qadamerə görə, cəmiyyət daxilində insani münasibətlərdə anlaşmaya əsaslanan “üfüqlərin qovuşması” ideyası çoxmədəniyyətliliyin əsasını təşkil edir. Bu baxımdan məqalədə nəzərdən keçirilən üçüncü anlayış – çoxmədəniyyətlilik birbaşa həmrəylik anlayışı ilə əlaqəlidir. Məhz çoxmədəniyyətlilik (multikulturalizm) birdən çox mədəni qrupu təmsil edən strukturların mövcud olduğu cəmiyyətə istinad edir və bu kontekstdə o özündə həm konkret, həm də mücərrəd olan kimlikləri, dəyərləri və simvolları ehtiva edir. Məşhur multikulturalizm tədqiqatçısı Bixu Parexin təbirincə desək, multikultural cəmiyyət iki və ya daha çox mədəni icmanı özündə birləşdirən cəmiyyətdir.

Məlum olduğu kimi, Prezident İlham Əliyevin sərəncamı ilə 2024-cü il ölkəmizdə “Yaşıl dünya naminə həmrəylik ili” elan edilib. BMT-nin COP29 –“Conference of the Parties”, yəni Tərəflərin Konfransının sayca 29-cu olduğuna işarə edir. Azərbaycan 2030-cu ilə qədər bərpaolunan enerji potensialını 30 faizə çatdırmaq və mövcud enerji sistemini şaxələndirmək niyyətində olduğunu elan edib. Prezident İlham Əliyev işğaldan azad olunmuş torpaqları “Yaşıl enerji” zonası elan edib və 2022–2026-cı illər üzrə tədbirlər planı təsdiqlənib. 2050-ci ilədək bu ərazilərin “Netto sıfır emissiya” zonasına çevrilməsi nəzərdə tutulur.

Ümumiyyətlə, COP tədbirlərinin məqsədi Paris Sazişinin tələbi olaraq dünyada karbon qazının (CO2) miqdarını, qlobal istiləşməni sənayeləşmədən əvvəlki dövrdə olduğu kimi, 1,5 dərəcə Selsi ilə məhdudlaşdırmaq üzrə irəliləyişə nail olmaqdır. Bu kontekstdə qeyd etməliyik ki, iqlim dəyişikliyi ilə bağlı belə qlobal tədbirin keçirilməsi birbaşa miqrasiya, köçün qarşısının alınması ilə yerli xalqların və icmaların öz yurdlarında yaşamasını təmin etməkdir. Məhz yerli xaqların və yerli icmaların platforması, Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası (UNFCCC) nəzdində yer alan 17 platformadan biridir. Digər tərəfdən, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrə iqlim dəyişikliyinin təsirini azaltmaq və uyğunlaşmaqda kömək etmək məqsədilə maliyyə yardımı üçün fond yaradılır. Bu həm də məqsədsiz miqrasiyanın qarşısını almaq üçün edilən təşəbbüsddür. Yerli icmalar və yerli xalqlar platforması açıq və əhatəli məkandır. O, iqlimə davamlı dünya qurmaq üçün insanları və onların təcrübələrini bir araya gətirir.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası (UNFCCC) Katovitse mütəxəssislər komitəsi tərəfindən cari ilin 28 iyun tarixində yeni hesabatı dərc olunub. Hesabat həssas qruplar üçün həm imkanları, həm də riskləri araşdırır, daha inklüziv iqlim siyasətinin hazırlanmasının önəmini vurğulayır.

Sənəddə dörd əsas yumşaldıcı siyasət araşdırılır: karbon ticarəti və enerji səmərəliliyi, kömürdən mərhələli şəkildə imtina, bərpaolunan enerjinin qəbulu və meşə sektorunda islahatlar. O, hər bir siyasətin müxtəlif həssas qruplara, o cümlədən qadınlar, yerli icmalar, yerli xalqlar, gənclər, qocalar, uşaqlar, əlillər və yoxsullar üzərində potensial müsbət və mənfi təsirlərini təhlil edir. Bu kontekstdə hesabatda vurğulanan əsas məsələlərdən biri də yerli icmalar və yerli xalqların ənənəvi təcrübələrini pozan və ya onları öz torpaqlarından sıxışdıran bərpaolunan enerji layihələrindən mənfi şəkildə təsirlənə bilmə istiqamətidir. Bununla belə, bu icmalar təmiz enerjiyə çıxışı təmin edən və iqtisadi imkanlar yaradan bərpa olunan enerji layihələrindən də faydalana bilər.

Ümumiyyətlə, sonuncu COP tədbirlərinə nəzər yetirdikdə aydın olur ki, iqlim dəyişiklikləri insanların dünyagörüşlərinə və paradiqmalarına əsaslı təsir göstərir. Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən COP28 tədbirində elm, texnoloji inkişaf, gender məsələsi və s. 17 platforma-mövzunun yer alması, eyni zamanda yerli xalqlar və yerli icmalar platformasının yaradılması, multikulturalizm aspektindən də xüsusi əhəmiyyət kəsb edir. Bu, onu göstərir ki, iqlim dəyişikliyinə, eyni zamanda qlobal müstəvidə milli azlıqlar və icmalar da məcburən miqrasiya etməyə məcbur olurlar. Bu isə qlobal xaosa, eko-sistemin pozulmasına gətirib çıxarır. Bunun qarşısının alınması isə müxtəifliyə, fərqliliyə və çoxsəsliliyə istinad edərək eko-sistemin mühafizəsinə səbəb olacaq.

***Rəşad İLYASOV,***
***Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin şöbə müdiri, fəlsəfə doktoru***




# Yeni nəqliyyat standartları

**Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyində olan Azərbaycan Standartlaşdırma İnstitutu (AZSTANDART) yeni dövlət standartlarını qəbul edib. Qurumun açıqladığı həmin standartlar isə aşağıdakılardır:**

- AZS ECE 83:2024 “Mühərrikin yanacaq tələblərinə uyğun olaraq çirkləndiricilərin emissiyası ilə bağlı nəqliyyat vasitələrinin təsdiqinə dair vahid müddəalar”;

- AZS ECE 101:2024 “Karbon 4-oksidin həcminin və yanacaq sərfinin və/və ya elektrik enerjisinin və elektrik diapazonunun ölçülməsi ilə bağlı yalnız daxiliyanma mühərriki ilə hərəkətə gətirilən, yaxud hibrid elektrik ötürücünün köməyi ilə hərəkətə gətirilən minik avtomobillərinin, həmçinin elektrik enerjisinin sərfinin və elektrik diapazonunun ölçülməsi baxımından yalnız elektrik ötürücünün köməyi ilə hərəkətə gətirilən M1 və N1 kateqoriyalı nəqliyyat vasitələrinin təsdiqinə dair vahid müddəalar”;

- AZS ECE 100:2024 “Elektrik ötürücülərinə dair xüsusi tələblərlə bağlı nəqliyyat vasitələrinin təsdiqinə dair vahid müddəalar”.

Qeyd edək ki, yeni dövlət standartları Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın “Ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin dövriyyəsinin stimullaşdırılması və infrastrukturun təkmilləşdirilməsi üzrə 2024-cü il üçün Yol Xəritəsi”ndə nəzərdə tutulmuş tədbirlərin icrası məqsədilə qəbul edilib. Sənəd adı çəkilən komissiyanın “Ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin dövriyyəsinin stimullaşdırılması və infrastrukturunun təkmilləşdirilməsi üzrə altqrupu”-nun fəaliyyətini əhatə edir.

Yeni standartlar “Nəqliyyat və nəqliyyat infrastrukturu” (AZSTANDART/TK 43) standartlaşdırma üzrə Texniki Komitənin iclasında müzakirə olunmuş və konsensus əsasında qəbul edilmiş qərara müvafiq olaraq Azərbaycan Standartlaşdırma İnstitutu tərəfindən təsdiq edilərək standartlaşdırma üzrə normativ sənədlərin Dövlət Fondu və Reyestrinə daxil edilib.

Yeri gəlmişkən, bir müddət bundan əvvəl Azərbaycan Standartlaşdırma İnstitutu (AZSTAND) AZS ISO 7887 “Suyun keyfiyyəti - Rəngin tədqiqi və müəyyən edilməsi” və AZS ISO 8288 “Suyun keyfiyyəti - Kobalt, nikel, mis, sink, kadmium və qurğuşunun təyini - Alovlu atom absorbsiya spektrometrik üsullar” yeni dövlət standartlarını da qəbul edib.

Adıçəkilən Dövlət Xidmətindən bildirilib ki, standartlar Ekologiya və Təbii Sərvətlər Nazirliyində beynəlxalq standartlar əsasında hazırlandıqdan sonra “Ekologiya” standartlaşdırma üzrə Texniki Komitədə (AZSTAND/TK-09) müzakirəyə çıxarılıb. Standartlar müvafiq qurumlarla razılaşdırılaraq AZSTAND tərəfindən təsdiqlənib.

***V.BAYRAMOV***
***XQ***

# Ərzaq niyə tullantı olmalıdır?

**Müxtəlif ərzaq məhsullarının tullantıları da ətraf mühitin çirklənməsinə səbəb olur. Artıq məsələnin ciddiliyi bir sıra beynəlxalq təşkilatları narahat etməyə başlayıb. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) eksperti Pərviz Əliyev “Yaşıl dünya naminə həmrəylik: Dayanıqlı gələcək üçün tullantıdan dəyərə” adlı beynəlxalq forumda çıxışı zamanı bildirib ki, ərzaq sahəsində itki və tullantılar (Food Loss & Waste - FLW) dünyada istixana qazlarının ümumi emissiyasında 10 faiz təşkil edir.**

O deyib ki, ərzaq sahəsində itki və tullantıların azaldılması FAO-nun qlobal istiləşməni 1,5 dərəcə Selsi ilə məhdudlaşdırmaq üçün Yol Xəritəsinin həyata keçirilməsi üzrə fəaliyyəti üçün prioritetdir. Ekspertin sözlərinə görə, qlobal ərzaq sistemi istixana qazlarının ümumi emissiyasının 21–37 faizinə cavabdehdir.

Ərzaq istehsalçılarının torpaqdan, sudan, enerjidən, yəni ən mühüm, bəzən isə bərpa oluna bilməyən resurslardan istifadə etdiklərini diqqətə çatdıran P. Əliyev onu da qeyd edib ki, ərzağa diqqətli münasibət olmadıqda isə bu, bütün iqtisadi sistemə, eləcə də iqlim dəyişikliyinə təsir edir. Qeyd olunub ki, bu yanaşma artıq FAO-nun dünyada ərzaq istehsalının 35-50 faiz azala biləcəyini və bunun da ciddi mənfi nəticələrə səbəb olacağını proqnozlaşdırmasına gətirib çıxarıb.

“Hazırda FAO ərzaq sahəsində itki və tullantıları azaltmaq üçün Qlobal Ərzaq Təşəbbüsü (Global Food Initiative) həyata keçirir. Bir sıra hallarda tullantıları




azaltmaq mümkün olmadıqda emal və texnologiya yolu ilə işlənmiş ərzaq məhsullarından faydalı qeyri-ərzaq məhsulları yaradılmalıdır”, – deyə ekspert əlavə edib.

P. Əliyev, həmçinin qeyd edib ki, FAO ölkəmizdə fermerlər üçün layihələr həyata keçirir və bu layihələr artıq fermer təsərrüfatlarının gəlirlərini, ümumilikdə, 15 faiz (ildə 3,6 milyon ABŞ dolları) artırmağa imkan verib.

***XQ***

# “Masdar” “yaşıl” potensialımızı öyrənir

**Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) “Masdar” şirkəti Azərbaycanda “yaşıl” hidrogenin istehsalı üzrə tədqiqatlarda iştirak edir. Bu barədə “Masdar Azerbaijan” şirkətinin direktoru Murad Sadıqov məlumat verib. O deyib ki, şirkət Azərbaycanın İqtisadiyyat və Energetika nazirlikləri ilə birlikdə hidrogen istehsalı ilə bağlı tədqiqatlar aparıb.**




2022-ci ildən başlayaraq Azərbaycanda dəniz külək enerjisi və “yaşıl” hidrogen istehsalının texniki-iqtisadi əsaslandırmasının aparıldığını xatırladan M. Sadıqov tədqiqatların hazırda da davam etdiyini, nəticələrin isə bir-iki ay ərzində açıqlanacağını diqqətə çatdırıb. “Azərbaycan hökuməti gələcək addımlarla bağlı qərarlar verəcək. Hazırda SOCAR ilə birgə işlər aparılır. Demək olar ki, iki ilə böyük məlumat bazası yaradılıb”, – M. Sadıqov əlavə edib.

Yeri gəlmişkən, Niderlandın tanınmış “Advision” məsləhətçi şirkəti "Avropa Yenidənqurma və İnkişaf Bankının dəstəyilə Azərbaycanın hidrogen potensialının qiymətləndirilməsi ilə bağlı təhlilini yekunlaşdırıb. Qurumun hesabatında ölkəmizin bu sahədəki potensial imkanları ilə bağlı müsbət məqamlar yer alıb. Tədqiqatın nəticələri göstərir ki, formalaşmış emal, ammonyak və metanol bazarları və hidrogenə çevrilə biləcək təbii qazın bölüşdürülməsi üzrə geniş sistemlə Azərbaycan aşağı karbonlu hidrogen tələbatını ödəmək üçün böyük potensiala malikdir.

Ekspertlər hesab edirlər ki, hidrogen bu sahələri karbonsuzlaşdıra bilər. Böyük həcmdə bərpaolunan resurslara, eləcə də “Şahdəniz” yatağında təbii qaz ehtiyatlarına birbaşa çıxışa malik olan Azərbaycan həm “yaşıl”, həm də “mavi” hidrogenin hasilatı üçün qabaqcıl imkanlara malikdir. Bundan əlavə, təbii qazın tədarükü üzrə mövcud infrastruktur olan Cənub Qaz Dəhlizi potensial olaraq ixrac məqsədilə hidrogeni təbii qazla qarışdırmağa imkan verəcək.

Yeri gəlmişkən, “Əsrin müqaviləsi” imzalanandan sonra reallaşdırılan bir sıra neft və qaz layihələri hazırda bərpaolunan “yaşıl enerji” təşəbbüsləri ilə uğurla davam etdirilir. Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) bir müddət əvvəl “Masdar” şirkəti tərəfindən inşa ediləcək üç günəş və külək enerjisi elektrik stansiyalarının təməlqoyma mərasiminin keçirilməsi də bunun bariz ifadəsidir. Bu, Azərbaycanın və onun beynəlxalq tərəfdaşlarının qazıntı yanacağından bərpaolunan enerji resurslarına transformasiyasını nümayiş etdirir və qazıntı yanacağının uzun illər ərzində təkcə ölkəmiz üçün yox, həm də respublikamızın tərəfdaşları üçün mühüm önəm daşıyır.

Prezident İlham Əliyev Bakı Enerji Həftəsi çərçivəsində keçirilən tədbirdəki çıxışında bu barədə deyib: “Bu gün həqiqətən də əlamətdar gündür. Bakı Neft və Qaz Sərgisində qaz müqaviləsinin imzalanmasından 28 il sonra, 1 qiqavat həcmində bərpaolunan enerji ilə bağlı artıq imzaladığımız müqavilələr nəticəsində bu gün təməlqoyma mərasimi baş tutacaqdır. Artıq qeyd etdiyim kimi, bu, sadəcə, başlanğıcdır, çünki potensialımız nəhəngdir. Bizim tərəfdaşlarımız qlobal səviyyədə aparıcı şirkətlərdir və dediyim ki, “Masdar” yaşıl enerjiyə keçid sahəsində ən öndə gedən şirkətdir.

Hesab edirəm ki, BƏƏ-dən bir il sonra Azərbaycanın COP29-a ev sahibliyi etməsi heç də təsadüf deyil. BƏƏ-nin bizə ötürdüyü miras olduqca dəyərlidir. Birincisi, mən dostum nazir Sultan əl-Cabiri təbrik etmək istəyirəm və salamlarımı qardaşım, BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zahid Əl-Nəhyana çatdırmağı xahiş edirəm. Həmçinin COP istiqamətində irəlilədiyimiz bu mürəkkəb yolda qardaşımın dostluğuna, tərəfdaşlığına və dəyərli tövsiyələrinə görə təşəkkürümü bildirirəm”.

Xatırladaq ki, ötən ilin oktyabrında “Masdar” şirkəti 230 meqavat gücündə günəş elektrik stansiyasını istifadəyə verib. İndi isə daha 1 qiqavat enerji həcmi əlavə edilib. Hazırda iki layihə işlənilməkdədir, onlardan biri inşaat mərhələsindədir, digərinin tikintisi isə tezliklə başlanacaq. Bununla da Azərbaycanın bərpaolunan enerji potensialı 2 qiqavata yaxın olacaqdır. Bura təkcə günəş və külək enerjisi daxildir. Qarabağ və Şərqi Zəngəzurda hidroelektrik stansiyalarla bağlı görülən işlər də əlavə olunarsa, 2027-ci ilədək 2 qiqavat həcmində bərpaolunan enerjinin əldə edilməsinin tamamilə real hədəf olduğu bir daha təsdiqlənir.

***M.YAQUBZADƏ***
***XQ***

# BMT Azərbaycanın COP hazırlığını təqdir edir

**BMT bu ilin noyabr ayında keçiriləcək COP29-dan sonra da Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizə tədbirlərini dəstəkləyəcək. Bu fikri BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi Vladanka Andreyeva “Dayanıqlı inkişaf naminə dövlət-özəl tərəfdaşlığı” mövzusunda keçirilən ekoloji, sosial və korporativ idarəetmə (ESG) sammitində çıxışı zamanı deyib.**



“İqlimlə bağlı söhbətlərimiz iqlim dəyişikliyi və ədalətli keçidlə bağlı milli dialoqu və fəaliyyəti gücləndirməkdən ibarətdir. Bugünkü tədbir bizim təşkil etdiyimiz sayca 15-ci iqlim dialoqudur. BMT ailəsi olaraq COP29 sədrliyini dəstəkləməyə və iqlimlə bağlı fəaliyyətin nəinki sürətlənməyə davam etməsini, həm də COP29-dan sonra da fəaliyyətini təmin etmək üçün bütün maraqlı tərəflərlə qarşılıqlı əlaqələr qurmağa sadiqik”, – deyə BMT rəsmisi əlavə edib.

V.Andreyeva vurğulayıb ki, “Dayanıqlı inkişaf naminə dövlət-özəl tərəfdaşlığı” mövzusunda keçirilən ekoloji, sosial və korporativ idarəetmə (ESG) sammitinin məqsədi dövlət və özəl təşkilatların daha yaxşı həll yolları tapmaları uğrunda strategiyaları paylaşa bilməsi üçün dialoq və əməkdaşlığı təşviq etməkdir.

***XQ***

# DTX Akademiyasında növbəti buraxılış





**Dünən Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasında (Akademiya) növbəti məzun buraxılışına həsr olunmuş təntənəli tədbir keçirilmişdir. Tədbirdə DTX-nin rəisi, general-polkovnik Əli Nağıyev, Xidmətin rəhbər əməkdaşları, təhlükəsizlik orqanlarının veteranları, akademiyanın professor-müəllim heyəti və valideynlər iştirak etmişlər.**

Öncə Ulu öndər Heydər Əliyevin Akademiyanın ərazisində ucaldılmış abidəsi ziyarət olunaraq önünə gül dəstələri düzülmüşdür. Daha sonra Azərbaycan Respublikasının ərazi bütövlüyü və müstəqilliyi uğrunda həlak olmuş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Təntənəli tədbir məzunlara diplomların təqdim olunması mərasimi ilə davam etmiş, ardınca DTX-nin rəisi, general-polkovnik Əli Nağıyev giriş nitqi ilə çıxış etmişdir.

Azərbaycan təhlükəsizlik orqanlarının fəxri rəhbəri, dahi şəxsiyyət Heydər Əliyevin adını daşıyan akademiyada təhsillərini uğurla başa vurmaları ilə bağlı məzunlara təbriklərini çatdıran Xidmət rəisi DTX-nin gələcək zabit əməkdaşlarının Vətənə və xalqa dönməz sədaqətlə xidmət edəcəklərinə, dövlətimizin təhlükəsizliyinin keşiyində hər zaman ayıq-sayıq duracaqlarına, əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin əvəzsiz səyləri nəticəsində müasir çağırışlara uyğun formalaşdırılmış milli təhlükəsizlik konsepsiyasının müvəffəqiyyətlə reallaşdırılması istiqamətində üzərilərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəklərinə, ölkənin təhlükəsizliyinin etibarlı təminatı naminə var qüvvə ilə çalışacaqlarına inamını ifadə etmişdir.

General-polkovnik Əli Nağıyev bildirmişdir ki, yüksəkixtisaslı kadrlarla komplektləşdirilmiş və maddi-texniki bazası davamlı yenilənən akademiyada keyfiyyətli təhsil alınması üçün tədris prosesi ilbəil təkmilləşdirilir, xüsusi təyinatlı təhsil müəssisəsinin infrastrukturu çağdaş tələblərə uyğun şəkildə yenidən qurulur. Sadalanan amillərlə yanaşı, akademiyada kursant adına yiyələnmək istəyənlər arasında ciddi seçim aparılır, bu proses çərçivəsində yalnız qənaətbəxş səviyyədə bilik və bacarıqları olan, gələcəyi böyük potensial vəd edən gənclərə üstünlük verilir. Son illərdə görülən bu məqsədyönlü tədbirlərin nəticəsidir ki, yüksək bal toplayaraq akademiyaya daxil olan kursantların sayı hər ötən il daha da artır və onlar respublika üzrə keçirilən müxtəlif bilik yarışlarında birincilik qazanırlar.

Tədbirin digər çıxışçıları kursantların peşəkar zabit kimi yetişmələri üçün Akademiyada yaradılan hərtərəfli şəraitə görə DTX-nin və akademiyanın rəhbərliyinə minnətdarlıq etmiş, övladlarının dövlətimizə təhlükəsizlik orqanı əməkdaşı kimi xidmət edəcəklərinə görə qürur və şərəf hissi keçirdiklərini bildirmişlər.

Sonda xatirə fotoşəkli çəkdirilmişdir.

***XQ***

# Baş prokuror Lerikdə qəbul keçirib



**Dünən Baş prokuror Kamran Əliyev Lerik rayon prokurorluğunun inzibati binasında Lerik, Lənkəran, Astara rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.**

Qəbulda iştirak edən 32 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb.

***XQ***

**XQ-nin şərhi**

# Çağırışçıların tibbi müayinəsində şəffaflıq və obyektivlik

**Prezident İlham Əliyevin fərmanına əsasən, iyulun 2-dən müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların tibbi şəhadətləndirilməsi zamanı 4 kateqoriya üzrə qərarlardan birinin qəbul edilməsi üçün onların yekun tibbi müayinəsini Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi həyata keçirir.**

Bu kateqoriyalara sıradankənar həqiqi hərbi xidmətə yararlılıq haqqında ("B" kateqoriyası), sağlamlıq vəziyyətinə görə həqiqi hərbi xidmətə müvəqqəti yararsız hesab edilməklə çağırışa möhlət verilməsi haqqında ("Ç" kateqoriyası), dinc dövrdə həqiqi hərbi xidmətə yararsızlıq, müharibə dövründə məhdud yararlılıq haqqında ("C" kateqoriyası) və həm dinc vaxtda, həm də müharibə zamanı hərbi xidmətə yararsızlıq ("D" kateqoriyası) daxildir.

***Yekun tibbi müayinənin aparılması qaydası ilə bağlı Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin (DTSERA) şöbə müdiri Tural Qurbanov XQ-yə bildirdi:***



– Agentlik yekun müayinəni hərbi-həkim komissiyalarının tibbi müayinəsinin nəticələri və müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların əyani tibbi müayinəsi əsasında aparır. Həmin müayinə prosesinə hazırlıq məqsədilə nazirlik tərəfindən yekun tibbi müayinə prosedurunun da rəqəmsal infrastrukturu qurulub. Bu da qeyd olunan prosedurun həyata keçirilməsində şəffaflığın və çevikliyin, obyektiv yanaşmanın təmin olunmasına xidmət edir.

Nazirliyin "Tibbi şəhadətləndirmə" altsistemi hazırlanaraq bununla Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və digər aidiyyəti qurumların informasiya bazalarının inteqrasiyası, elektron məlumat mübadiləsi imkanları yaradılıb. Müayinə ilə bağlı məlumatlar müvafiq qurumlardan həmin altsistemlə qəbul edilərək toplanır və yekun müayinələrin nəticələri bu altsistemə daxil edilərək rəsmiləşdirilir. Bununla "Vətəndaş qəbulu" altsisteminin tənzimlənərək "Tibbi şəhadətləndirmə" altsisteminə avtomatik inteqrasiyası təmin edilib.

Eyni zamanda, yekun tibbi müayinələrin həyata keçirilməsi üçün DTSERA-nın müasir tibbi avadanlıqlarla təchiz edilmiş Tibbi Qiymətləndirmə Mərkəzi də yaradılıb. Müvafiq qanunvericiliyin təkmilləşdirilməsi işləri də aparılıb, müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların tibbi şəhadətləndirilməsi zamanı yekun tibbi müayinənin aparılması qaydası Nazirlər Kabineti tərəfindən təsdiq edilib. Bundan əlavə Nazirlər Kabinetinin müvafiq qərarı ilə "Hərbi-həkim ekspertizası haqqında Əsasnamə"də dəyişiklik edilərək, hərbi xidmətə çağırılanlarla bağlı tibbi müayinələrdə qabaqcıl dünya təcrübəsinə uyğun



yeni meyarlar müəyyən olunub.

Müayinə prosesində iştirak edəcək DTSERA və digər müvafiq qurumların əməkdaşları üçün təlimlər keçirilib və yekun tibbi müayinə sahəsi üzrə müvafiq bilik və bacarıqlara malik mütəxəssis heyəti formalaşdırılıb.

Yekun tibbi müayinə proseduru aparılan zaman öncə çağırışçıya dair verilmiş rəy Mərkəzi Hərbi-Həkim Komissiyası tərəfindən təsdiqləndiyi halda çağırışçının yekun tibbi müayinəsinin aparılması üçün e-sistem üzərindən agentliyin "Tibbi şəhadətləndirmə" altsisteminə göndəriş (forma 44) daxil edilir. Sonra göndəriş əsasında çağırışçı üçün əyani müayinəyə elektron növbə təyin edilir. Növbəlilik əsasında çağırışçıları agentliyin həkimləri əyani şəkildə tibbi müayinələrdən keçirirlər. Sonda müayinəyə dair qəbul edilmiş qərar e - sistemə daxil edilir və qərar barədə çağırışçıya elektron qaydada məlumat verilir.

***Z.BAYRAM***
***XQ***

**Yazdığımıza qayıdırıq**

# Sözümüz AYNA-yadır

## *52 saylı avtobus xəttini kim çökdürür?*

**"Sizin Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin Vətəndaşlarla iş və Çağrı Mərkəzinə ünvanlanmış 52 nömrəli müntəzəm marşrutun fəaliyyəti barədə 22 dekabr 2023-cü il tarixli müraciətinizə tərəfimizdən baxılmışdır.**




**Qeyd edirik ki, sərnişin tələbatına uyğun olaraq 52 nömrəli müntəzəm marşrutda 4 avtobus 20 dəqiqə hərəkət intervalı ilə fəaliyyət göstərir. Lakin günün müəyyən saatlarında marşrutun hərəkət sxemi üzrə yollarda yaranan nəqliyyat sıxlığı avtobuslararası hərəkət intervalında ləngimələrə və avtobusların aralıq dayanacaq məntəqələrinə gecikmə ilə çatmalarına səbəb olur.**

**Buna baxmayaraq, müraciətiniz əsasında marşrutun müvəqqəti istismarçısı olan "Xaliq Faiqoğlu" MMC-nin məsul şəxsinə xəbərdarlıq olaraq, sərnişindaşıma fəaliyyətlərinin müvafiq qanunvericiliyin tələblərinə uyğun təşkil olunması, eləcə də sürücülərin təyin edilmiş hərəkət cədvəlinə riayət etmələrinə nəzarətin gücləndirilməsi tapşırılmışdır. Nəzərə almağınızı xahiş edirik".**

AYNA Publik Hüquqi Şəxsin İdarə Heyətinin sədr müavini Heydər Rüstəmovun imzası ilə "Xalq qəzeti"nə ünvanlanan bu məktubu olduğu kimi oxucuların diqqətinə çatdırmağımız səbəbsiz deyil. AYNA-ya ünvanlanan müraciətin tarixinə (22 dekabr 2023-cü il) diqqət edin. Məktuba 17 yanvar 2024-cü ildə



cavab hazırlanıb, 29 yanvar 2024-cü ildə redaksiyaya daxil olub.

Buna qədər agentliyin redaksiyaya cavab məktubunda adı keçən şirkətə müraciət edib 52 saylı marşrut xəttində cəmi 2 avtobusun fəaliyyət göstərdiyini, ərazidə yaşayanların əziyyət çəkdiyini bildirmişdik. 40 – 50 dəqiqə intervalla şəhər içində marşrut işləyərmi? Şirkətə etdiyimiz telefon zənginə Asif adlı şəxs, az qala, hər gün istifadə etdiyimiz marşrutla bağlı şikayətin düzgün olmadığını sübut etməyə çalışdı. O, redaksiyaya şikayət edənlərin haqsız olduğunu dönə-dönə təkrarladı. Xəttə hər gün 4 avtobusun çıxdığını dedi. Biləndə ki, həmin marşrutun əziyyət çəkən sərnişinlərindən biri də bizik, sərnişin azlığını əsas gətirdi.

Əslində, bu, əsassız bəhanədir. 52 saylı xətdə avtobusda yetərincə sıxlıq olur. 6-cı mikrorayonun bir hissəsi, 4-cü mikrorayon, ətraf məhəllələrin sakinləri o qədər də az deyil. Avtobuslar müntəzəm işləmədiyindən əhali 800 – 1000 metr piyada yol qət edib bir hissəsi 85, bir hissəsi isə 79 nömrəli marştutlarla işə tələsirlər. İndi yeganə 52 saylı marşrutun ümidinə qalan çoxsaylı sərnişinlərə vaxtilə sonuncu dayanacaqdan müxtəlif istiqamətlərə 52 saylı



marşrutdan əlavə, 116, 13, 122 nömrəli xətlərin avtobusları da xidmət edirdi.

AYNA-dan aldığımız cavabdan sonra qurumla əlaqə saxladıq. Aprelin 4-də 050-212-04-... nömrəli telefonla göndərilən cavabın həqiqəti əks etdirmədiyini, şirkətin agentliyə qeyri-düzgün məlumat verdiyini bildirdik. Xəttin o başındakı xanım müraciətimizi Heydər Rüstəmova məruzə edəcəyini bildirdi. Bundan sonra davamlı olaraq aprelin 5-də, 24-də, mayın 7-də və son dəfə iyunun 14-də agentliyə müraciətlər etmişik. Hətta işə gedərkən avtobusdakı sıxlığı da telefonla çəkib sübut üçün göndərmişik. Telefon danışıqlarımızın birində –aprelin 26-da marşrut xəttinə lap tezliklə 1 avtobus da əlavə ediləcəyini, hətta, əraziyə yeni marşrut verilməsi barədə düşündüklərini bildirdilər. Bu vəddən də 2 aydan çox keçib.

6 ay problemin həllini səbrlə gözləyəndən sonra yenə sözümüz AYNA-yadır: "Xaliq Faiqoğlu" şirkətinin sizə qeyri-dürüst məlumat verdiyini bildiniz. Bizə yazdığınız cavaba görə, şirkətə xəbərdarlıq da etmisiniz. Bəs nəticə niyə yoxdur? Kim kimi aldadır? Şirkət bizə də, sizə də yalan vəd verib. Siz də o vədə inanıb bizə cavab vermisiniz, eləmi? Nəticədə aldadılan sərnişindir, əhalidir.

Vaxtilə bu xətt paytaxtın ən işlək, nümunəvi marşrutlarından biri idi. O vaxt avtobuslar arasında interval 4 – 5 dəqiqə idisə, indi 40 – 50 dəqiqədir. 10 dəfə geriləmənin səbəbi nədir? Bu suala cavab gözləyirik.

AYNA
AZƏRBAYCAN YERÜSTÜ
NƏQLİYYAT AGENTLİYİ

**P.S: İyulun 1-dən gediş haqlarının 50 qəpiyə qaldırılması, şübhəsiz paytaxtda sərnişin nəqliyyatının nöqsanlarını aradan qaldırmağa kömək edəcək. İnanırıq ki, sürüşüb düşən oturacağı olan, köhnə, yarıyolda nasazlıq səbəbindən dayanan, sərnişinləri arxadan gələn başqa marşruta əyləşən 52 saylı marşrutda da indiki biabırçılığa son qoyulacaq.**

***Zərifə BƏŞİRQIZI***
***XQ***

XQ-nin kitabxanası

**Bu il 105 yaşını qeyd edəcəyimiz "Xalq qəzeti" istər sovet dönəmində – "Kommunist" adı ilə nəşr olunanda, istərsə də 1991-ci ilin yayından – indiki adla tanınandan sonra, ictimai-siyasi formasiyaların fərqinə baxmayaraq, daim Azərbaycan xalqına xidmət edib. Yubiley ərəfəsində "Xalq qəzeti"nin kitabxanası" seriyasından redaksiyanın yaradıcı kollektivinin zəhmətinin məhsulu olan nəşrlərin çapına Əməkdar jurnalist İttifaq Mirzəbəylinin "And və əməl" kitabı ilə başlanılıb.**

# Anddan göyərən əməl




Qəzetin baş redaktoru Əflatun Amaşovun "Ön söz"də yazdığı kimi, "And və əməl" kitabında toplanmış 100-ə qədər məqalə kollektivin dövlətçiliyə xidmətinin bariz nümunəsidir. Otuz ilə yaxın müddətdə "Xalq qəzeti" ictimai-siyasi məsələlər şöbəsində xüsusi müxbir, operativ müxbir, analitik qrupun rəhbəri və nəhayət, şöbə müdiri vəzifələrində çalışmış İttifaq Mirzəbəylinin tərtib etdiyi bu kitabda əsasən müəllifin öz yazıları toplanıb. Qocaman jurnalist həmkarımız qürurla xatırlayır ki, jurnalist kimi fəaliyyət göstərdiyi illərdə SSRİ-nin süqutu, Azərbaycanın öz dövlət müstəqilliyini bərpa etməsi, Ulu öndər Heydər Əliyevin ölkədə siyasi hakimiyyətə qayıtması, 2003-cü ilin prezident seçkiləri, həmin seçkilər ərəfəsində Ümummilli liderin xalqa müraciəti, seçkilərdən sonra xalqın Prezident İlham Əliyevin ətrafında sıx birləşməsi kimi tarixi faktlara həm şahidlik edib, həm də əksər proseslərin iştirakçısı olaraq minlərlə radio və qəzet materialı hazırlayıb.

Kitablarının sayı 10-a çatan, redaktoru və tərtibçisi olduğu nəşrlər daha çox olan İttifaq Mirzəbəyli qələmi heç zaman əlindən düşməyən jurnalistlərdəndir. Müasir siyasi publisistikaya özünəməxsus töhfələr verib. Hazırda təqaüddə olsa da, yenə qəzetimizin, az qala, hər nömrəsində onun maraqlı yazıları dərc edilir. İttifaq müəllim sözün qədrini bilən, məna çalarlarını yerli-yerində işlədən, daim dövlətçilik mövqeyindən cəsarətli çıxışlar edən təcrübəli qələm sahibidir.

Onun "And və əməl" kitabının annotasiyasında qeyd edilir ki, Azərbaycan Prezidenti İlham Əliyevin son 20 ildə yürütdüyü qətiyyətli və ardıcıl siyasət nəticəsində yaranmış yeni reallıqlar təkcə müasir günlərimizin deyil, ümumiyyətlə, son əsrlərdəki tariximizin ən şərəfli səhifələridir: "Xüsusilə vurğulanmalıdır ki, müstəqilliyimizin bərpasından keçən 30 ildən bir az çox müddətdəki uğur, nailiyyət və nəhayət, möhtəşəm Zəfər salnaməmizin qələmə alınmasında bu il 105 yaşı tamam olan "Xalq qəzeti" kollektivinin də özünəməxsus rolu olub. Oxuculara təqdim edilən bu kitab da həmin xidmətin bir parçasından ibarədir. Belə ki, "And və əməl"də toplanmış materiallar məxsusi olaraq kitab tərtib etmək üçün yazılmamış, qəzetin gündəlik fəaliyyəti prosesində qələmə alınmışdır".

Kitab müasir tariximizin ən aktual məsələləri, keçmiş Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi üçün aparılan danışıqların nəticələri və Azərbaycan Ordusunun qazandığı Zəfərə gedən yol, İkinci Qarabağ müharibəsi, eləcə də Zəfərdən sonrakı proseslərlə maraqlananlar üçün dəyərli vəsait kimi qiymətləndirilir.

Qeyd edilir ki, müəllif bu kitabı "44 gündə qələmə aldığım 46 yazı" adıyla nəşrə göndərmək istəyirdi. Redaksiya rəhbərliyi isə məsləhət gördü ki, kitaba İkinci Qarabağ müharibəsinə aparan yollar haqqında qələmə alınmış bəzi məqalələr də, işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa-quruculuq işlərini əks etdirən materiallar da, Azərbaycanla Türkiyə Cümhuriyyəti arasındakı sarsılmaz dostluq və qardaşlıq münasibətlərini əks etdirən sətirlər də əlavə edilsin. "Müəllif bu təklifimizlə ona görə dərhal razılaşdı ki, yada saldığımız istiqamətlərdə onun sayını bilmədiyi qədər yazıları var".

Kitabdakı bəzi məqalələrin təkcə sərlövhəsi, adı onların hansı məram və mətləblərdən söz açdığını göstərir. "And və əməl" (44 günlük müharibədən əvvəl qələmə alınmış yazılardandır), "Azərbaycan Ordusu işğala son qoyacaqdır", "Bu, Azərbaycan xalqının azadlıq müharibəsidir", "Salam Bayraq, salam Torpaq", "Haqqın sözü və haqqın özü", "Bayraqların paradı" və digər yazılar müəllifin sözə inamından, orduya, dövlətə və Ali Baş Komandana sədaqətindən xəbər verir.

"Biz bu zəfərə inanırdıq", "44 gündə yazdıqlarım" və "Zəfərdən sonra şahid olduq ki..." adlı 3 bölməyə ayrılmış bu yeni kitabın redaktoru Əməkdar mədəniyyət işçisi Hacı Qüdrət Piriyev, nəşriyyat redaktoru filologiya elmləri doktoru, professor Telman Cəfərov, korrektoru Aida Şükürlü, dizayneri isə Rövşən Toğruldur.

*Ə.DOSTƏLİ*
*XQ*

# Türkiyə–Azərbaycan qardaşlığı mahnı qanadlarında



**Türkiyə müxbirimiz xəbər verir ki, bu adda konserti qardaş ölkədə fəaliyyət göstərən azərbaycanlı musiqi müəllimləri, "Xarıbülbül" Azərbaycan Vizyon Teatr Birliyinin üzvləri təşkil ediblər. Öncə Azərbaycan və Türkiyənin Dövlət himnləri səsləndirilib, iki qardaş ölkənin şəhidlərinin xatirəsi yad edilib.**

"Tək Hədəfimiz Təhsil" Birliyinin rəhbəri Cem Yıldırımer ölkələrimiz arasındakı dostluq və qardaşlığın dünya üçün əsl örnək olduğunu bildirərək deyib ki, bu münasibətlər hər sahədə olduğu kimi, mədəniyyət sahəsində də sağlam təməllər üzərində inşa edilib və bu dəyərləri qoruyub-saxlamaq bizim ən ali vəzifəmizdir.

Tədbirlə bağlı jurnalistlərə müsahibə verən "Xarıbülbül" Azərbaycan Vizyon Teatr Birliyinin rəhbəri Kamalə Kamal Cabbarova deyib: "Belə tədbirlərin keçirilməsi gənclərimizin ortaq mədəniyyətimizə marağının artırılması baxımından olduqca vacibdir. Proqramda fiziki baxımdan qüsurlu övladlarımız da iştirak edirdilər. Bu baxımdan bu üç xanımın hazırladığı konsert proqramı bütün qonaqlarda xoş duyğular oyatdı. Çünki belə tədbirlər həm də bu gənclərin cəmiyyətə inteqrasiyasına kömək edir".

Konsertdə Azərbaycan və Türkiyə gənclərinin ifasında xalq və bəstəkar mahnıları ilə yanaşı, Avropanın klassik musiqiləri də səsləndirilib. Çıxışlar alqışlarla qarşılanıb.

*Qafar ÇAXMAQLI,*
*XQ-nin xüsusi müxbiri*
**İstanbul**

# Teatrlar da "yay tətili"nə gedir

**İnsanların hər zaman estetik zövq aldığı teatrlar bu mövsümdə də rəngarəng repertuarları ilə yadda qaldılar. Mövzu seçimi baxımından çağdaş tələblərə cavab verən tamaşaların hazırlanması ənənəsi özünü sənət ocaqlarının təqdimatında hər zamankından daha fərqli göstərdi. Bakı teatrlarının bir-birindən fərqli ovqatyaradıcı səhnə əsərləri salonlarında əks-səda verdi, tamaşaçı rəğbəti qazandı.**



Yola salınan mövsüm Azərbaycan Dövlət Akdamik Musiqili Teatrı üçün tamaşaçı rəğbəti və bir-birindən maraqlı premyeralarla yadda qalıb. Bu barədə danışan sənət ocağının mətbuat xidmətinin rəhbəri Fəridə Rüstəmova dedi ki, Musiqili Teatrın hazırladığı tamaşalara bu mövsümdə izləyici sevgisi daha da artıb.

– Teatrımız həmişəki kimi, yeniliklərə üstünlük verdi, peşəkarlıq və tamaşaçı məmnuniyyətini düşündü. Buna görə də, teatrın rəhbərliyi və yaradıcı heyət çox mükəmməl səhnə əsərləri ortaya qoya bildilər. Düşünürəm ki, yola salmağa hazırlaşdığımız 114-cü mövsüm həm bizim üçün, həm də tamaşaçılar üçün maraqlı oldu. Teatr iyulun 19-da Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" musiqili komediyası ilə mövsümə yekun vuracaq.

Azərbaycan Milli Dram Teatrının mətbuat xidmətinin rəhbəri Cavid Zeynallı bu mövsümün təmsil etdiyi sənət ocağı üçün unudulmaz olduğunu qeyd etdi. O bildirdi ki, mövsümdə Milli Dram Teatrının repertuarına əlavə olunan yeni tamaşalar maraqla qarşılandı, baxımlı oldu.

– Tamaşaçı sevgisi qazanan və günün tələbləri ilə səsləşən səhnə əsərlərinin repertuara salınması rəhbərlik və yaradıcı heyətimiz üçün başlıca məqsəddir. İnamla deyə bilərəm ki, bu ənənəmizi yenə də qoruyub saxlamışıq. Artıq biz mövsümə Cəlil Məmmədquluzadənin pyesi əsasında hazırlanmış "Ölülər" tamaşası ilə yekun vurmuşuq. Qarşıdakı mövsümdə daha maraqlı səhnə əsərləri ilə teatrsevərlərin görüşünə gələcəyik.

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının əməkdaşı İrada Karaceyava mövsüm ərzində hazırlanan səhnə əsərləri barədə danışdı. Teatrda təmir işləri getdiyi üçün balet və operaların fərqli məkanlarda təqdim edildiyini bildirdi. Opera və Balet Teatrının da mövsümə yekun vurduğunu deyən müsahibimiz, yeni mövsümdə də yüksək səviyyəli səhnə əsərləri ilə tamaşaçıların zövqünü oxşayacaqlarına ümidvar olduğunu söylədi.



Azərbaycan Dövlət Kukla Teatrının da bu mövsümdə təqdim etdiyi səhnə əsərlərində fərqli texniki həll üsullarına, təbii təsir bağışlayan bədii tərtibata üstünlük verilib. Balacaların sevimli məkanının mətbuat xidmətinin rəhbəri Həmidə Rüstəmova bildirdi:

– Bu il fərqli kukla estetikasında səhnəyə qoyulan tamaşalar azyaşlı seyrçilər üçün daha əyləncəli və yaddaqalan oldu. Hər tamaşadan sonra uşaqların üzündə təbəssüm görmək bizdə xoş ovqat yaradır. Qeyd edim ki, mövsümün sonuncu səhnə əsəri iyulun 14-də oynanılacaq "Dovşanın ad günü" nağıl-poemasının tamaşası olacaq. Görkəmli yazıçı Xanımana Əlibəylinin bu əsərinə Saida Haqverdiyeva maraqlı quruluş verib. Tamaşanın rəssamı Rəna Abasova, bəstəkarı Əməkdar artist Vüqar Camalzadə, mahnıların mətn müəllifi Sevinc Nuruqızıdır.

Fərqli və dərin məna yozumlu tamaşaların nümayişinə üstünlük verən Azərbaycan Dövlət Pantomim Teatrı da "yay tətili"nə hazırlaşır. Bədii ideyanın, mətləbin sözsüz, mimika və musiqilərin köməyi ilə təqdim edildiyi sənət ocağı mövsümün son akkordunu iyulun 14-də Uilyam Şekssprin məşhur "Romeo və Cülyetta"əsərinin tamaşası ilə vuracaq. Bu tamaşanın premyerası martın 30-da olub. Səhnə əsərinin quruluşçu rejissoru və musiqi tərtibatçısı Ceyhun Dadaşov, rəqslərin quruluşçusu Əməkdar artist Nargilə Qəribova, rəssamı Xəyyam Səmədovdur.

Bu il 35 illik yubileyi olan Azərbaycan Dövlət "Yuğ" Teatrında isə "Asılqan" tamaşası ilə mövsümə yekun vurulacaq. Xalq yazıçısı Anarın "Asılqanda işləyən qadının hekayəti" əsəri əsasında rejissoru Əbdülqəni Əliyevin quruluş verdiyi tamaşa həyatlarının hər bir dönəmində sınaqlarla üzləşən iki gəncin sevgi hekayəsindən bəhs edir.

Qeyd edək ki, paytaxtın digər teatrları və bölgələrdəki sənət ocaqları da mövsümə yaddaqalan tədbirlərlə yekun vurmaq əzmindədirlər.

*Ceyhun ALIŞLI*

# Çağdaş qəhrəmanlıq dastanı



**Prezident sərəncamı ilə Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş Birinci Qarabağ müharibəsinin cəsur döyüşçüsü – Xocalı girovlarını xilas etmək üçün təslim olan zaman Vətən bayrağını köksünə sıxmış Natiq Qasımovun hünəri dillərdə dastan olmaqdadır. Onun haqqında poetik duyğularını qələmə alan şair Ayaz Arabaçı yazır: "Nəfəsimi dərə-dərə bu əfsanəvi qəhrəman haqqında bir poema yazmağa başladım. Bir az xəyallarıma güvəndim, bir az tarixin solğun vərəqlərinə göz gəzdirdim, bir az da səngərlərin soyuğunu canıma çəkdim. O acı illərdə bizə cəsarət şirinliyi daddıran oğula "Ruhun şad olsun!" – dedim".**

Milli Qəhrəman Natiq Qasımova həsr olunan həmin poemadan bir parçanı "XQ"-nin oxucularına təqdim edirik:

*...Vətənin yaraları ürəyində qövr edən,*
*Yernən əlləşən igid, göynən əlləşən igid.*
*Damarında qeyrəti qan yerinə dövr edən,*
*İyirmi bir yaşında əfsanələşən igid.*

*Döyüşdün yorulmadan hey gündüz də, gecə də,*
*Ləyaqətlə bitirdin həm də son vuruşunu.*
*Bütün dünya mat idi, itirmədin necə də,*
*Düşmənin ortasında öz məğrur duruşunu.*

*Titrəmədi tətikdə bircə gün də barmağın,*
*Dönmədin öz yolundan bu çovğunla, bu qarla.*
*Yeriyirdin inamla başın üstə bayrağın,*
*Babəki xatırladan əzəmətlə, vüqarla.*

*Qəzəbin örtük idi çəkdiyin ağrılara,*
*İyirmi bir yaşından dillərdə dastan igid..*
*Sən öz haqq savaşınla göstərdin yağılara,*
*Göstərdin necə olur, şir igid, aslan igid.*

*Güllələr ac quş kimi qapırdı hər bir "dən"i,*
*Qanına bələyirdi yolları-cığırları.*
*Kilsədə bir batalyon əsgər zənn edib səni,*
*Qorxuya düşmüşdülər erməni dılğırları...*

*Beş gün gecəbəgündüz susmayıb avtomatın,*
*Bilirik danışmısan düşmənlərlə nə tonla.*
*Bilmirik harda bitdi, necə bitdi həyatın,*
*Öyündük o mübarək qəhrəmanlıq fotonla…*

*Ayaz ARABAÇI*

# Arxa cəbhənin kino salnaməsi

**Azərbaycan Kinematoqrafçılar İttifaqının elan etdiyi "Arxa cəbhənin insanları" ssenari müsabiqəsinin finalçıları elan edilib.**




Müsabiqəyə 50 ssenari qəbul olunmuşdur. Kinorejissor Vaqif Azəryar, ssenarist, pedaqoq Nadir Bədəlov, rejissor, prodüser Əli İsa Cabbarov, ssenarist, təlimçi Pərviz Məmmədov, kinoşünas Sevda Sultanovadan ibarət münsiflər heyətinin ciddi seçimindən sonra 2-ci mərhələyə 13 ssenari buraxılıb. Qalib ssenarilər 2 avqust Milli Kino günü öncəsi elan ediləcək.

Azərbaycan Kinematoqrafçılar İttifaqından verilən məlumata görə, filmlərin dramaturji keyfiyyətini artırmaq məqsədilə müntəzəm ssenari müsabiqələri keçirmək planlaşdırılır. İştirakçıların ssenari texnikası biliklərinin artırılması üçün müsabiqədən əvvəl kinoyazarlar üçün təlimlərin keçirilməsi də AKİ-nin planlarına daxildir.

*XQ*

# Şəhid övladları toyu – el şənliyi

**Bu günlərdə Lənkəranda 2 şəhid övladının toy məclisləri keçirilib. El-obanın böyük həvəslə toplaşıb şənləndiyi məclislərdə şəhər icra hakimiyyətinin rəhbərliyi də yaxından iştirak edib.**



Lənkəran şəhərindən olan şəhid Məhəmməd Məcidov (oğlu Şəhriyar) 1994-cü ildə Qarabağ uğrunda döyüşlərdə igidliklə həlak olub. Zaur Ağalı (oğlu Ayxan) isə İstisu qəsəbəsində dünyaya gəlib. 2-ci Qarabağ müharibəsi zamanı Cəbrayıl, Qubadlı və Zəngilanda igidlik nümunələri göstərib, ölümündən sonra "Vətən uğrunda", eləcə də Cəbrayıl və Qubadlının azad olunmasına görə medalları ilə təltif edilib.

Şəhid balalarının toy məclislərində çıxışı zamanı Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov dövlətimizin hər zaman şəhid ailələrinin yanında olduğunu vurğulayıb, onların şad günlərinə qatılmağı mənəvi borc hesab etdiyini bildirib və xeyir-dua verib.

Şəhid ailələrinin üzvləri zəfər yolçularının Vətənə əmanət qoyduqları övladlarının hərtərəfli qayğı ilə əhatə olunduqlarına görə ölkə rəhbəri cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlıqlarını ifadə ediblər.

*Ə.ƏLİYEV*
*XQ*

BEYNƏLXALQ HƏYAT

# NATO Ukraynaya silah, ŞƏT ümid vəd edir

**İyulun 3-də Astanada başlayan Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) dövlət başçılarının "Çoxtərəfli dialoqun gücləndirilməsi: davamlı sülh və inkişafa can atmaq" sammitinin şüarı Ukraynadakı münaqişənin həlli problemlərinin müzakirəsini də nəzərdə tutur. Vaşinqtonda keçiriləcək NATO-nun yubiley sammitinin gündəliyindən fərqli olaraq, ŞƏT iştirakçılarının görüşündə atəşkəslə bağlı dialoqun başlanması və Moskva ilə Kiyev arasında ziddiyyətlərin sülh yolu ilə həlli yollarının axtarılması gözlənilir.**



Astanada keçirilən sammit ərəfəsində ŞƏT-in sabiq baş katibi Rəşid Alimov demişdi ki, Şanxay təşkilatı "qarşıdurma siyasətini qəbul etmir və əsas regional münaqişələrin, o cümlədən Ukraynadakı münaqişələrin sülh yolu ilə həlli üçün dürüst və birbaşa dialoq yolu ilə çalışır". İyun ayında rusiyalı diplomatlarla görüşən Rusiya prezidenti Vladimir Putin ŞƏT-i "Avrasiya təhlükəsizlik sistemi"nin yaradılmasında iştirak edə biləcək əsas strukturlardan biri adlandırmışdı. Bu sistemdə, cənab Putinə görə, münaqişələrə yer yoxdur. Mütəxəssislərin fikrincə, bu o deməkdir ki, Moskva ŞƏT-in də Ukraynadakı münaqişənin həllində iştirak edə biləcəyinə inanır. Çünki "ŞƏT+ formatından üç ölkənin rəhbərləri – Qazaxıstan, Çin və Türkiyə (Ankara təşkilatda müşahidəçi qismində iştirak edir) liderləri bir vaxtlar Ukrayna münaqişəsinin həlli üçün tədbirlər təklif ediblər. Ekspertlərin sözlərinə görə, ŞƏT sammiti çərçivəsində, Vladimir Putin ilə görüşən Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Ukraynadakı münaqişənin həlli üçün Moskva və Kiyevə bütün həmsöhbətlərin iştirakı ilə sülh konfransı keçirməyi təklif edə bilər.

Bütün bunların fonunda media NATO-nun Ukraynaya dəstək üçün yeni tədbirlər hazırladığını, Donald Trampın noyabrda ABŞ-da keçiriləcək prezident seçkilərində qalib gələcəyi təqdirdə, əsasən, Avropa ölkələri tərəfindən kömək olunacağı barədə xəbərlər yayır. "The Wall Street Journal" yazır ki, alyans Almaniyanın Visbaden şəhərində Ukraynaya hərbi texnikanın verilməsini və Ukrayna qoşunlarının təlimini əlaqələndirmək üçün yeni komandanlıq yaratmağı planlaşdırır. Kiyevdə isə prosesi NATO-nun xüsusi nümayəndəsi koordinasiya edəcək. "NATO-nun Ukraynaya Təhlükəsizliyə Yardımı və Təlimi" adlanacaq əməliyyatda ABŞ və alyansın digər ölkələrindən 700-ə yaxın hərbçi iştirak edəcək. Bu əməliyyat iyulun 9–11-də Vaşinqtonda keçiriləcək NATO-nun yubiley sammitində rəsmən elan ediləcək. Nəticədə, hərbi yardım və təlim üçün Vaşinqton deyil, NATO məsuliyyət daşıyacaq. ABŞ-ın NATO-dakı keçmiş daimi nümayəndəsi İvo Daalderin sözlərinə görə, buna görə də Vaşinqton hərbi dəstəyi azaltsa və ya geri götürsə belə, Ukraynaya yardım davam etdiriləcək.

ABŞ-ın hazırkı rəhbərliyi təkcə Ukraynanın özünə deyil, həm də Amerika biznesini hərbi iqtisadiyyatına cəlb etmək təşəbbüslərinə uzunmüddətli dəstək vermək niyyətində olduğunu nümayiş etdirməkdə davam edir. Amerika mediası ABŞ dövlət katibi Antoni Blinkenə istinad edərək yazır ki, "ABŞ Ukraynadakı amerikalı investorların obyektlərini əhatə etmək üçün Kiyevi hava hücumundan müdafiə sistemləri ilə təmin edəcək": "Ukrayna iqtisadiyyatı düzgün investisiyalarla böyük potensiala malikdir. Lakin onun hərbi və iqtisadi potensialı sərmayə qoyduğunuz sahələri qorumaq üçün hava hücumundan müdafiə imkanlarını tələb edir". O qeyd edib ki, NATO-nun Vaşinqton sammitinə qədər Ukraynaya hava hücumundan müdafiə sistemlərinin tədarükü ilə bağlı konkret məlumatlar ortaya çıxacaq.

ABŞ və digər ölkələrin Ukraynanın müdafiə sənayesinin inkişafına ciddi sərmayə yatırmaqda davam etməsi faktı müəyyən dərəcədə Ukrayna müdafiə nazirinin birinci müavini, general-leytenant İvan Qavrilyukun etirafı ilə təsdiqlənir. Cənab Qavrilyuk 2024-cü ilin birinci yarısında Ukraynanın 480-ə yaxın silah və hərbi texnikanın istismara verilməsini təsdiqlədiyini bildirir və bu silahların 290-a yaxını yerli istehsaldır. Bu sözlərdən belə nəticəyə gəlmək olar ki, silahların 40 faizi Qərb ölkələrindən alınıb. Qavrilyuk bu Qərb silahlarının Ukraynada istehsal edilib-edilmədiyini dəqiq açıqlamayıb, lakin qeyd edib ki, yeni silahlar siyahısında əsas yeri pilotsuz uçuş aparatları (PUA), xüsusən də hava kəşfiyyatı üçün nəzərdə tutulanlar və müxtəlif təyinatlı pilotsuz təyyarələr tutur. İkinci ən böyük qrup müxtəlif növ döyüş sursatlarıdır, ən çox PUA-lar üçün, ondan sonra rabitə və elektron mübarizə avadanlığıdır. Yeni və modernləşdirilmiş silahların siyahısına mühəndislik avadanlığı, robot sistemləri, minatəmizləmə avadanlıqları və hərbi optika da daxildir.

Eyni zamanda NATO artıq Ukraynaya təyyarələrini tədarük etməyə hazırlaşır. Danimarkanın ardınca Hollandiya Ukraynaya F-16-ların tədarükünə icazə verib. Bu ölkənin Müdafiə Nazirliyi bildirib ki, Xarici Ticarət və İnkişaf Əməkdaşlıq Naziri Ukraynaya 24 F-16 təyyarəsi və daha 7 təyyarə mühərriki ixrac etmək üçün lisenziya verib. Moskvada bu addıma "təxribat" kimi baxılır. Prezidentin mətbuat katibi Dmitri Peskov artıq bəyan edib ki, Qərbin Rusiyaya hücumları üçün Ukraynaya silah tədarük etməsi nəticəsiz qalmayacaq.

***S.ELAY***
***XQ***

# Şahdağın şahanə yaylağı



**Ölkəmizdə mövsümi yaşayış məskənlərindən biri də yaylaqlardır. Sərinliyinə görə yayda istirahət üçün əlverişli olan bu dağ yerləri dəniz səviyyəsindən orta hesabla 2800 metrə qədər yüksəklikdə yerləşir.**

Azərbaycanın ən yüksək və ən böyük yaylağı – Şahyaylaq Qusar rayonunun inzibati ərazisi daxilində, Şahdağ Milli parkında yerləşir. Bu yaşayış və istirahət məskəni Bazardüzü, Zəfər, Şahdağ, Tufandağ və başqa zirvələri özündə cəmləyən möhtəşəm bir ərazidir.

Yaylağın uzunluğu təxminən 20, eni isə 3 kilometrdir. Dəniz səviyyəsindən 2700–3000 metr yüksəklikdə yerləşir. Ölkədə olan 4000-dən çox zirvə bu yaylağın ətrafındakı silsilələrdə qərar tutub. Bu silsilələrdə bir çox dağ gölü də var.

Yaylağa gözəllik verən xüsusiyyətlərdən biri də yuxarı hissədən aşağıya doğru axan Şahnabad çayıdır. Qeyd edək ki, bu çay mənbəyini Qusarçaydan götürür. Çay Şahdağın ətəyindəki Şahnabad düzündən axdığı üçün bu cür adlanır. Şahyaylaqda yaz fəslinin gəlişi, əsasən, iyun–iyul aylarında hiss olunur. Həmin dövrdə yaylaq ətirli və rəngarəng gül-çiçəyə qərq olur.



Buradakı ərazilər tarixən Xınalıq bölgəsinə məxsus olub. Şahyaylaqdan Xınalığa, Qusarın və Qəbələnin Laza kəndlərinə at və maşın yolu da var. Keçmişdə bu istiqamətlərdə fayton yolu da fəaliyyət göstərib.

Yaylaqlar, adətən, yüksək dağlıq yerlərdə, alp çəmənliklərində yerləşir. İlin 3–4 ayını yaylaqlarda keçirən köçəri maldarlar burada alaçıqlar quraraq yaşayırlar. Yaylaqlara köçən zaman, əsasən, su mənbələrinə yaxınlıq və otlaq sahələrinin çox olması nəzərə alıınırdı. Maraqlıdır ki, yaylaqlarda məskunlaşan insanlar arasında qohumluq münasibətləri əsas yer tutur. Onların yaşadıqları bu yurd yerləri ailə başçısının, bəzən də onların təmsil etdikləri kəndlərin adları ilə – Əmirəhmədin yurdu, Nəbi yurdu, Eldar yaylağı və s. adlanır.

***Fidan SALMAN***
***XQ***



## AZƏRBAYCAN RESPUBLİKASININ RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİNİN KOLLEGİYASI QƏRAR

**№ 3-27/3-7-7/2024/1**

**Bakı şəhəri** **20 iyun 2024-cü il**

**Hava nəqliyyatı ilə ölkədaxili yük və sərnişindaşıma xidmətlərinin tariflərinin tənzimlənməsi barədə**

"Rəqəmsal inkişaf və nəqliyyat sahəsində tariflərin və xidmət haqlarının tənzimlənməsinin təkmilləşdirilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 2 sentyabr tarixli 2315 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 12 sentyabr tarixli 767s nömrəli Sərəncamının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"nin 3.0.7-ci yarımbəndini və 5.11-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası

**qərara alır:**

**1.** "Hava nəqliyyatı ilə ölkədaxili sərnişindaşıma xidmətlərinin tariflərinin yuxarı hədləri" təsdiq edilsin (əlavə olunur).

**2.** Ölkədaxili sərnişin hava gəmilərində yükün, poçtun və normadan artıq baqajın daşınması üçün tarif ƏDV daxil olmaqla hər kiloqram üçün 0,30 manat məbləğində təsdiq edilsin.

**3.** Hüquq şöbəsi bu Qərarın qəbul edildiyi gündən 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

**4.** Bu Qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.

**Kollegiyanın sədri, rəqəmsal inkişaf və nəqliyyat naziri**
**Rəşad Nəbiyev**

**Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2024-cü il 20 iyun tarixli 3-27/3-7-7/2024 nömrəli qərarı ilə təsdiq edilmişdir.**

**Hava nəqliyyatı ilə ölkədaxili sərnişindaşıma xidmətlərinin tariflərinin yuxarı hədləri (əks istiqamət üzrə eyni olmaqla)**

| № | İstiqamətlər | Tariflər (ƏDV daxil, manatla) |
|---|---|---|
| 1 | Bakı–Naxçıvan/ Naxçıvan–Bakı | [illegible] |
| 2 | Naxçıvan–Gəncə/ Gəncə–Naxçıvan | [illegible] |
| 3 | Bakı–Gəncə/Gəncə–Bakı | [illegible] |
| 4 | Bakı–Qəbələ/Qəbələ–Bakı | [illegible] |
| 5 | Bakı–Füzuli /Füzuli–Bakı | [illegible] |
| 6 | Bakı–Zəngilan / Zəngilan–Bakı | [illegible] |
| 7 | Bakı–Lənkəran/ Lənkəran–Bakı | [illegible] |
| 8 | Bakı–Zaqatala / Zaqatala–Bakı | [illegible] |

**Kollegiyanın sədri, rəqəmsal inkişaf və nəqliyyat naziri**
**Rəşad Nəbiyev**

# Yumurta – daha çox fayda!

**Rusiyalı mütəxəssislər son araşdırma və müşahidələrlə belə qənaətə gəliblər ki, yumurtanın tərkibində çoxlu xolesterinin olması və bunun ürəyə zərəri iə bağlı indiyədək səsləndirilən fikirlər mif imiş. Hələ də qanda xolesterin səviyyəsinin yüksəkliyi və onun ürək xəstəliklərinin inkişafında rolu olmasından şübhələnib yumurta yeməkdən imtina edənlər yanılırlar.**



Həkimlər mütəxəssislərin son araşdırmalarına əsasən bildirirlər ki, toyuq yumurtasının faydası düşündüyümüzdən də çoxdur. Bildirirlər ki, yumurta görmə qabiliyyətini artıran antioksidant lüteinlə zəngindir. İnsan orqanizmi digər qida məhsullari ilə müqayisədə yumurtadan daha çox lütein mənimsəyir.

Bir ədəd yumurtada 100 qram losos balığında olan miqdarda Omeqa-3 var. Həmçinin yumurta vitaminlər qrupu – xolin mənbəyidir. Xolin isə beynin inkişafı, işləməsi və ləngiməməsi üçün çox faydalıdır.

Türkiyəli mütəxəssislər yumurtanın yağda deyil, suda bişiriləninin daha faydalı olduğunu tövsiyə edirlər.

***Z.HÜSEYNLİ***
***XQ***

## "Zəyəm Texnologiyalar Parkı" ASC-nin 2023-cü il dekabrın 31-nə başa çatmış il üzrə maliyyə vəziyyəti haqqında hesabatı

manatla

| AKTİVLƏR | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| Qeyri-maddi aktivlər | 546 032 | 550 488 |
| Torpaq, tikili və avadanlıqlar | 11 756 511 | 12 574 785 |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR:** | **12 302 543** | **13 125 272** |
| Ehtiyatlar | 1 534 486 | 2 572 909 |
| Qısamüddətli debitor borcları | 4 952 109 | 4 088 252 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 282 223 | 140 198 |
| Sair qısamüddətli aktivlər | 3 802 615 | 3 171 109 |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR:** | **10 571 433** | **9 972 468** |
| **CƏMİ AKTİVLƏR** | **22 873 976** | **23 097 740** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 18 305 246 | 18 305 246 |
| Kapital ehtiyatları | 11 276 438 | 11 276 438 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | (21 385 558) | (19 660 009) |
| **CƏMİ KAPİTAL:** | **8 196 125** | **9 921 674** |
| Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | 849 381 | 668 540 |
| Sair uzunmüddətli öhdəliklər | 9 442 413 | 8 300 670 |
| | **10 291 794** | **8 969 210** |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 1 931 106 | 1 936 906 |
| Qısamüddətli kreditor borcları | 1 421 643 | 1 499 338 |
| Sair qısamüddətli öhdəliklər | 1 033 308 | 770 612 |
| | **4 386 057** | **4 206 856** |
| **Cəmi öhdəliklər** | **14 677 851** | **13 176 066** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **22 873 976** | **23 097 740** |

**Mənfəət və ya zərər və digər məcmu gəlirlər haqqında hesabat**

| | | |
|---|---|---|
| Əsas əməliyyat gəliri | 7 941 782 | 5 409 735 |
| Satışın maya dəyəri | (7 094 546) | (4 763 920) |
| **Ümumi mənfəət** | **847 236** | **645 815** |
| Sair əməliyyat gəlirləri | 58 350 | 83 266 |
| Kommersiya xərcləri | (94 097) | (31 969) |
| İnzibati xərclər | (1 242 241) | (805 138) |
| Sair əməliyyat xərcləri | (118 111) | (137 600) |
| **Əməliyyat mənfəəti (zərəri)** | **(548 863)** | **(245 626)** |
| Maliyyə xərcləri | (120 409) | (91 995) |
| | **(669 272)** | **(337 621)** |
| Amortizasiya xərcləri | (1 056 276) | (1 577 166) |
| **Hesabat dövrünün xalis mənfəəti (zərəri)** | **(1 725 548)** | **(1 914 787)** |

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 137 (30541) 4 iyul 2024-cü il, cümə axşamı

## Arda tarix yazır



Türkiyə millisinin hücumçusu Arda Gülər Avropa çempionatının 1/8 final mərhələsində Avstriya ilə qarşılaşmada məhsuldar ötürmə edib. O, 20 yaşa qədər Avropa çempionatında bir qol vuran və assist edən üçüncü oyunçu olub. Əvvəllər, 2004-cü ildə Avropa çempionatında bunu yalnız Ueyn Runi və Kriştiano Ronaldo bacarmışdı.

## Ən yaxşı qollar



UEFA-nın mətbuat xidməti 2024-cü il Avropa çempionatının 1/8 final mərhələsində vurulan ən yaxşı qol üçün səsvermənin başlandığını elan edib. Siyahıya bu turda vurulan 4 qol daxildir: ingilis Cud Bellingemin İngiltərə - Slovakiya matçında aşırma zərbə ilə vurduğu qol, ispanlar Niko Uilyams və Fabian Ruizin İspaniya – Gürcüstan oyunda vurduqları qollar, eləcə də isveçrəli Ruben Varqasın İsveçrə - İtaliya matçında qapıya vurduğu top.

## Merih cəzalana bilər



**UEFA türkiyəli müdafiəçi Merih Demiralın Avstriya millisi ilə Avropa çempionatının 1/8 finalında vurduğu qolun bayram edilməsi ilə bağlı araşdırmaya başlayıb. Bu barədə "The Sun" nəşri məlumat yayıb.**

Türkiyəli müdafiəçi qolu qeyd edərkən guya, "Boz qurd" təşkilatının türk millətçilərinin jestindən istifadə edib.

Türkiyəli jurnalist Yağız Sabuncuoğlu X sosial şəbəkəsində Demiraldan sitat gətirirək yazır: "Mənim fikrim var idi ki, qolumu türklüklə bağlı bir üslubda qeyd edim. Mən türk olduğum üçün fəxr edirəm, ona görə də qoldan sonra bunu etməli olduğumu hiss etdim. Bunu bacardığım üçün şadam".

### Hava

## Aranda yağmursuz, dağlarda yağış

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, iyulun 4-də Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq, əsasən yağmursuz keçəcək. Lakin gecə yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var.**



Şimal-qərb küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Gecə 20-24°, gündüz 30-35° isti olacaq. Atmosfer təzyiqi 754 mm civə sütunu, nisbi rütubət gecə 60-70 , gündüz 40-45 faiz olacaq. Abşeron çimərliklərində gözlənilən hava şəraiti: şimal-qərb küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 25-26° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 26-27° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-24°, gündüz 31-36°, dağlarda gecə 8-13°, gündüz 15-20° isti olacaq.

*QQ ASIMOV*
*XQ*

Avrofutbol – 2024

# Demiralın qolları, Mertin super "seyv"i və Türkiyənin qələbəsi

**Avstriya–Türkiyə qarşılaşması 1/8 final oyunlarının sonuncu matçı idi. Bu matçda səhvə yol vermək turniri tərk etmək demək idi. Buna görə idi ki, oyun başlayanda, sanki, artıq 90-cı dəqiqə idi və hər iki komanda özünü xilas etmək üçün qol vurmalı idi. Bu, dəlicəsinə bir futbol idi desəm, bəlkə də, ən doğru təəssürat olardı. Ancaq belə həlledici "savaşlarda" Türkiyədən bu əzmkar "döyüş" gözlənilən idi. Dəqiqə tamam olmamış Avropa çempionatının pley-off mərhələsinin tarixində ən sürətli qol vuruldu. Doğrudur, bir qədər sürpriz qola bənzədi, amma bu, mahiyyəti dəyişmirdi. Türkiyə Avropaya növbəti sürprizini gerçəkləşdirməyə doğru gedirdi.**



Künc zərbəsindən sonra təhlükəni qapılarından uzaqlaşdırmağa çalışan avstriyalı Kristof Baumqartnerin zərbəsindən sonra top partnyoru Stefan Poşa çarpıldı və qapıya uçdu - qapıçı Patrik Penz özü də bilmədən topu Merih Dəmirala yönləndirdi. Türk millisinin Səudiyyə Ərəbistanı Krallığının "Əl-Əhli" klubunun müdafiəçisi bu fürsəti əldən vermədi və 57-ci saniyədə Avstriyanı və Baumqartneri şoka saldı. Həmin Baumqartneri ki, oyundan əvvəl "güclü açılışlar"ın Avstriya millisinin əlamətdar xüsusiyyətinə çevrildiyini iddia etmişdi. Cəmi 57 saniyədən sonra qapılarında qol görəndə onun şokunun nə qədər güclü olduğunu təsəvvür etmək çətin deyildi. Çünki bu dəfə güclü açılışı onlar yox, türklər etdilər.

Bundan dərhal sonra avstriyalılar Ranqniksayağı təzyiqləri ilə cavab verməyə atıldılar. Hətta künc zərbəsindən sonra ilk qol şansını da yaratdılar. Az qala "kuriyoz" bir qol da vuracaqdılar. Türkiyəli futbolçular qeyri-standart - aşağı, qapı önü boyu ötürmədən təəccübləndilər. Top qapıçı Mert Günokun qapısının ətrafından dönsə də, çərçivəyə düşmədi. Bir müddət türklər sadəcə olaraq mövqe müdafiəsinə dözməli oldular. Müdafiəçilərə arxadan bəşinci dayaq müddafiəçisi rolunda oynayan kapitan Kaan Ayhan kömək edirdi. Bu taktiki qərar sayəsində Montellanın komandası obyektiv cəhətdən müdafiə xəttində boşluqlara yol vermədi.

Daha sonra Türkiyə yığması oyunu az-çox sakitləşdirə bildi. Almaniyada özlərini evdəki kimi hiss edən türklər, ilk növbədə, sağ cinah hücumçusu kimi çıxış edən çevik ayaqlı Barış Yılmaz və "yalançı doqquzluq" rolunu oynayan Arda Gülərin hesabına təhlükəli əks-hücumlar həyata keçirdilər. Hətta "Real" Madridin gənc ulduzunun yarımmüdafiədən vurduğu bir zərbə az qala qol olacaqdı. Cəzalı Hakan Çalhanoğlunun yoxluğunda təhlükəli künc zərbələrini də, Arda yerinə yetirirdi. Dəmiral cəsarətlə növbəti künc zərbəsindən sonra dubla yaxınlaşdı, lakin az fərqlə hədəfi qaçırdı.

Ralf Rangnikin komandası topla davranmaqda heç də xoş təəssürat yaratmırdılar. Tez-tez mərkəzdən irəli şığısalar da, bütün girişlər sanki beş qıfılla bağlanmışdı. Avstriya yığması ilk hissədə Türkiyə komandasının cərimə meydançasında 10 dəfə topa sahib oldu, cərimə meydançasından cəmi iki zərbə endirdi, ancaq bir dəfə də olsun hədəfə düşmədi. Ümumiyyətlə, fasilədən əvvəl rəqiblər bir yerdə hədəfə cəmi bir zərbə ilə məhdudlaşdılar ki, bu da Montellanın komandasının qoluna çevrildi. Bu erkən qolun vurulduğu belə gərgin bir oyun üçün heyrətamiz statistika idi.

Fasilə zamanı Ranqnik ikiqat əvəzetmə edərək, Avstriya ilə Türkiyə arasında martda keçirilən və 6:1 hesabı ilə nəticələnən yoldaşlıq oyununda het-trik edən "Frayburq"un hücumçusu Mixael Qreqorçi hücum xəttinə buraxdı. Avstriyalılar Türkiyənin müdafiəsinə təzyiqi artırdılar. Ralf Ranqnikin yetirmələri rəqiblərini bütün mövqelərdən sıxışdırmağa çalışsalar da, türklər qapının önündə əsl mənada "barrikadalar" qurdular. Arxalarında isə türk bayraqlarını yelləyib stadionu coşduran gurultulu tribunalar var idi.

Qol vəziyyətləri yaranmağa başladı. Mert Günok olmasaydı, Marko Arnautovic ikinci hissənin əvvəlində hesabı bərabərləşdirəcəkdi. Bu hissənin ilk dəqiqələrində Avstriya millisinin kapitanı Marko Arnautoviç Günokla təkbətək qaldı, lakin "Beşiktaş"ın qapıçısı gözəl "seyv" etdi. Etiraf edək ki, matçın bu məqamında bəxt və ya qapıçı sehri olmasa idi, Montellanın komandası çətin vəziyyətdə qalardı. Mert və onun super "seyv"ləri haqqında isə ayrıca danışmaq lazımdır.

Buna baxmayaraq, Türkiyə komandası yenə də avstriyalıların



təzyiqinə tab gətirdi - və ikinci qolu vurdu! Yenə Demiral. Deyəsən, Səudiyyə Ərəbistanından qollar bir günlük gecikmə ilə nəhayət, Avropa çatdı. Kriştiano Ronaldonun pərəstişkarları "Əl-Nəsr"in oyunçusunun pley-offda möhtəşəm qollarına ümid edirdilər, ancaq qəhrəman "Əl-Əhli" təmsilçisi Demiral oldu. Matçın 59-cu dəqiqəsinin tamamında Demiral küncdən zərbədən sonra növbəti dəfə hamıdan yüksəyə tullanaraq



topa başı ilə qarşısıalınmaz zərbə endirdi və qırmızı, ay-ulduzlu bayraqlarla çalxalanan stadionu lərzəyə gətirdi.

Amma bu, Avstriya yığması üçün hələ nokaut deyildi. Künc zərbəsindən sonra Mertin qapısı qarşısında yaranan eyni vəziyyət Ranqnikin komandasının da yeddi dəqiqə sonra oyuna qayıtmasına kömək etdi. Türklər və avstriyalılar sanki razılığa gəlmişdilər ki, ancaq künc zərbələrindən qol vursunlar. Forvard Qreqoriç Türkiyə millisi üçün həqiqətən də qorxulu yuxudur! Onun qolunu sadə, klassik oyunla uzaq dirəyə ötürmə gətirdi. Qəribədir ki, türkiyəli müdafiəçilər sanki rəqib hücumçunun tək qaldığını görmürdülər.

Qalan vaxtda oyun Avstriya yığmasının davamlı mövqe hücumuna çevrildi. Hiss olunurdu ki, türklərin enerjisi tükənir. Normal vaxtın bitməsinə 12 dəqiqə qalmış Montella daha az yadda qalan gənc ulduzlarını - Gülər və Kənan Yıldızı əvəzlədi. "Real" Madridin yarımmüdafiəçisi, statistikaya görə, portnyorlarını zərbə mövqeyinə çıxarmaq üçün cəmi iki ötürmə verdi, iki dribling etdi və bir dəfə qeyri-dəqiq zərbə endirdi.

Avstriya komandası çoxlu sürətli hücum ötürmələrindən birindən sonra qolkiper Günokun çıxışda yol verdiyi nadir səhv zamanı əsas vaxtda son şansını əldən verdi. Baumqartner başı ilə topu boş qapıya çatdırdı, lakin karyerasının, bəlkə də ən yaxşı matçını keçirən Demiralın təzyiqi ilə hədəfi qaçırdı. Əlavə vaxtın 5-ci dəqiqəsində isə bəxtsiz Baumqartnerin yenidən başı ilə endirdiyi zərbədən sonra Mert Günok özü super "seyv" edib, Merih Demiralın Türkiyə üçün qazandırdığı qələbəni xilas etdi. Qapıçının yerdən sıçrayan topu necə dəf etməsi inanılmaz və möcüzə idi. Ranqnikin komandası qapıya türklərin 6 zərbəsinə qarşı 21 zərbə endirdi, lakin buna baxmayaraq, onlar Avstriyanı Avro 2024-dən kənarlaşdırdılar.

Bundan sonra artıq 1/4 finalda Hollandiya ilə qarşılaşacaq türklərin əlindən qələbəni heç kim ala bilməzdi. Avro-2024-də "Avstriya nağılı" başa çatdı. Komanda ən çətin qrupda birinci yeri tutsa da, pley-off mərhələsinin başlanğıcında geri çəkildi. Ralf Ranqnikin komandaya aşıladığı hücum tərzini və inamı nəzərə alsaq, Türkiyəyə məğlubiyyət, həqiqətən, məyusedici oldu.

Türkiyə milli komandasının jurnalisti Aydın Güvenir Demiralın oyunu ilə bağlı fikirlərini bölüşərək deyib: "Merih Demiral ikinci qolu vuranda Türkiyə üçün işlərin asanlaşacağı göründü, amma belə olmadı. Çexiya və Gürcüstanla matçlarda olduğu kimi, böyük təzyiqi saxlayaraq, qələbəni əldən verməmək lazım idi".

Bax, qələbəni əldən verməyən əsas adam möcüzəli super "seyv"i ilə dünyanı heyran qoyan Mert Günok oldu. Bunu qeyd etməmək əsla doğru olmazdı. Demiral qələbə qazandırdı, Mert isə o qələbəni xilas etdi. Komanda bunu bacardı və tarixində üçüncü dəfə Avropa çempionatının 1/4 finalına yüksəldi.

Avstriya millisinin baş məşqçisi Ralf Ranqnik də Mertin ustalığını yüksək qiymətləndirib və onu 1966-cı il dünya çempionu olmuş ingilis qapıçı Qordon Benks adlandırıb. Benks XX əsrin ən güclü qapıçılarını siyahısında Lev Yaşindən sonra ikinci yeri tutur. Avstriya millisinin baş məşqçisi deyib: "Bizim bəxtimiz gətirmədi. İnanıram ki, oyun əlavə vaxta getsəydi, qalib gələcəkdik. Hesabı bərabərləşdirməyə vaxtımız var idi, lakin rəqibin qapısında "Gordon Benks" olanda bu, çətin olur!"

Matçın ən yaxşı oyunçusu elan edilən Merih Demiral oyundan sonra sevincini belə bölüşüb: "Qarşısını almaq lazım olan hər şeyin qarşısını aldım və hər iki qolu da doğru zamanda vurdum. Heç bir səhvə yol vermədim". Haqlısan Demiral, əhsən sənə! Təkcə Türkiyəni deyil, bütün türk dünyasını şərəfləndirdin.

Qardaş ölkənin Prezidenti Rəcəb Tayyib Ərdoğan bu qələbəyə həmişəki kimi diqqətsiz qala bilməyib. Dövlət başçısı milli komandanı Avro-2024-ün 1/8 final mərhələsində Avstriya ilə oyunda qazandıqları qələbə münasibətilə təbrik edərək bildirib: "Avropa çempionatında Avstriyanı məğlub edərək 1/4 finala yüksələn futbol komandamızı ürəkdən təbrik etmək istərdim. Uşaqlarımıza çempionluq yolunda uğurlar arzulayıram".

### Avstriya–Türkiyə: statistika nə deyir?

***Merih Demiralın qolu Avropa çempionatında ikinci ən sürətli qolu olub. AVRO tarixində ən sürətli altı qoldan dördü 2024-cü ildə vurulub.***

***Maykl Qreqoricin qolu UEFA AVRO 2024-ün 100-cü qolu olub.***

***Avstriyalılar 1954-cü il dünya çempionatından sonra böyük beynəlxalq turnirin pley-off mərhələsində heç bir qələbə qazana bilməyiblər.***

***Türkiyənin AVRO-2024-də vurduğu 7 qolu 6 fərqli oyunçu vurub.***

***Türkiyə pley-off matçı üçün start heyətində 2 yeniyetmə - 19 yaşlı Arda Gülər və Kənan Yıldız olan tarixdə ikinci komanda oldu (birincisi 1964-cü il Avropa çempionatında Macarıstan idi).***

***

Ötən sayımızda qeyd etdiyimiz kimi, Avro-2024-ün 1/8 final mərhələsinin son oyun günündə Münxendə Rumıniya və Hollandiya millilər qarşılaşıb. Ronald Kumanın komandası favorit olsa da, Rumıniya millisi uğurlarına görə hörmətə daha çox layiq idi. Amma buna baxmayaraq, Rumıniya millisinin 2024-cü il Avropa futbol çempionatındakı "macəraları" çərşənbə axşamı 1/8 final mərhələsində Hollandiyaya 3:0 hesabı ilə uduzmaqla başa çatıb.

"Narıncılar" əvvəlki matçlarda gördüyümüzdən daha çox hücuma önəm verən inandırıcı oyun nümayiş etdirdilər. Komanda müdafiə xəttindən hücuma qədər topla ağılla işləyir və hər bir fürsətdə sürətli hücuma keçirdi.

Hollandlar turnirin favoriti hesab olunmasalar da, bu oyundan sonra çətin ki, onlara yuxarıdan aşağı baxan olsun. Çünki Ronald Kumanın komandası qrupda 3-cü yeri tutaraq 1/4 finala yüksələn yeganə komandadır. Rumıniya isə hazırda qrupda 1-ci yeri tutaraq pley-offun ilk mərhələsində mübarizədən kənarlaşdırılan yeganə yığmadır.

Hollandiya millisi 2008-ci ildən sonra ilk dəfə Avropa çempionatının 1/4 finalına yüksəlib. 1/4 finalda Ronald Kumanın komandası Türkiyə millisi ilə qarşılaşacaq. Matç şənbə günü, iyulun 6-da Bakı vaxtı ilə saat 23:00-da başlayacaq.

***Səhifəni hazırladı:***
***İlqar RÜSTƏMOV***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2771
SİFARİŞ 1412
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV
Çapa imzalanmışdır 00:00